# Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!



NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


# iki sahil

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 176 (7676) / Çərşənbə, 7 oktyabr 2020-ci il


## Prezident İlham Əliyev Rusiyanın "Pervıy Kanal" televiziyasına müsahibə verib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Rusiyanın "Pervıy Kanal" televiziyasına müsahibə verib.*



PREZİDENTƏ YAZIRLAR:

## Sizin qətiyyətli, müdrik və cəsarətli siyasətiniz Azərbaycan xalqını uğurlu gələcəyə, parlaq qələbəyə doğru aparır



BAX: SƏH. 3

*Prezident İlham Əliyev:*

# Türkiyə bölgədə sabitləşdirici rol oynayır



Bax: səh. 2



## Hikmət Hacıyev "Sky News Arabia" televiziya kanalına müsahibə verib

BAX: SƏH. 7



*Sahibə Qafarova:*

## İşğal altında olan bütün torpaqlarımızda Azərbaycan bayrağı dalğalanacaq

BAX: SƏH. 13



*Ərdoğan:*

## Makronun sözləri ədəbsizlikdir

BAX: SƏH. 2



*Əli Əkbər Vilayəti:*

## Dağlıq Qarabağ Azərbaycana qaytarılmalıdır

BAX: SƏH. 7



*Meral Akşener:*

## Bizim ən böyük gücümüz Azərbaycanın haqlı olmasıdır

BAX: SƏH. 16



*Dövlət Baxçalı:*

## İşğal altındakı ərazilər azad edilməli, Dağlıq Qarabağda Azərbaycan bayrağı yüksəlməlidir

BAX: SƏH. 13



*Kamal Kılıçdaroğlu:*

## 83 milyonluq xalq olaraq ürəyimiz Azərbaycanladır

BAX: SƏH. 27


11 — *Türkiyəli ekspert:* ATƏT-in Minsk qrupu əvəzinə yeni diplomatik mexanizm qurulmalıdır

26 — Qarabağda döyüşən daha iki muzdlu terrorçu məhv edildi

32 — Miqrenin yaranma səbəbləri və müalicəsi...

*Prezident İlham Əliyev:*

# Türkiyə bölgədə sabitləşdirici rol oynayır

## PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

**"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Türkiyə nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev dedi:**

-Xoş gəlmisiniz, əziz Mövlud bəy, sizi salamlayıram. Şadam ki, siz gəlmisiniz. Siz Azərbaycanda dəfələrlə olmusunuz. Amma bu səfərin xüsusi önəmi var. Azərbaycan üçün o qədər də asan olmayan bir dönəmdə sizin gəlməyiniz əlbəttə ki, xüsusi önəm daşıyır. Bu, qardaş ölkənin açıq dəstəyinin təzahürüdür. Bu dəstəyə görə Azərbaycan xalqı qardaş türk xalqına və onun Prezidentinə dərin minnətdarlıq hissi ilə yaşayır.

Mənim əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilə bu günlərdə təmaslarım, onun çox açıq, qətiyyətli bəyanatları bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil. Azərbaycanın yanında Türkiyə kimi dünya miqyasında böyük bir güc olan dövlət var, qardaş ölkə var. Bu dəstək bizi ruhlandırır, bizə əlavə güc verir və eyni zamanda, bölgədə sabitliyin, əmin-amanlığın təmin edilməsi üçün önəmli rol oynayır. Mən bunu bu günlər ərzində demişəm ki, Türkiyə bölgədə sabitləşdirici rol oynayır. Türkiyənin bölgədə və dünyada yalnız sülhə hesablanmış siyasəti artıq öz nəticələrini verməkdədir, həm Yaxın Şərq bölgəsində, eyni zamanda, Qafqaz bölgəsində. Ona görə Ermənistanın növbəti hücumu ilə ələqədar bu gün yaranmış vəziyyət bir daha onu göstərir ki, Türkiyə həm regionda, həm dünyada söz sahibidir. Əlbəttə ki, bu, bizi gücləndirir, ruhlandırır. Bu gün həm bizim xalqlarımız, həm də bütün dünya görür ki, Türkiyə-Azərbaycan birliyi nə deməkdir.

Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilə biz bu məsələ ilə bağlı dəfələrlə öz sözlərimizi demişik ki, Türkiyə-Azərbaycan birliyi bütün dünya üçün örnək olmalıdır. Bu gün biz real həyatda bunu göstəririk, sübut edirik və bu birliyin gələcəyi, hesab edirəm ki, bölgədə dayanıqlı sülhün təmin edilməsi üçün əsas şərt olacaqdır.

Sizi bir daha salamlayıram. Xahiş edirəm ki, mənim səmimi salamlarımı hörmətli cənab Prezidentə çatdırasınız.

* * *

**Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu dedi:**

-Sağ olun, cənab Prezidentim. Əvvəlcə, bizi qəbul etdiyiniz üçün Sizə çox təşəkkür edirik. Hörmətli Prezidentimiz, qardaşınız Rəcəb Tayyib Ərdoğanın, bütün kabinetimizin, - dünən Nazirlər Kabinetində toplantımız var idi, - və türk xalqının Sizə salamlarını və uğur diləklərini gətirmişəm.

Xüsusilə Zati-alinizin də vurğuladığı kimi, Türkiyənin, türk xalqının Can Azərbaycana olan dəstəyini bir daha bütün dünyaya göstərmək üçün buraya səfərə gəldim. Bu gün Sizin liderliyinizlə Azərbaycan öz torpaqlarını azad etmək üçün mübarizə aparır və buna qadirdir, gücü vardır, potensialı vardır. Əlbəttə, Türkiyə olaraq və türk xalqı olaraq, biz də nə vaxt ehtiyacı olarsa, hansı sahədə ehtiyac duyarsa Azərbaycana hər cür dəstəyi verməyə hazırıq. Bunu Prezidentimiz Ərdoğan və bizlər hər platformada izah edirik, vurğulayırıq.

Azərbaycanın haqlı mübarizəsini bütün dünyaya çatdırmaq bizim də borcumuzdur. Bunu Ceyhun qardaşımla, xaricdəki bütün səfirliklərimizlə - Azərbaycanın və Türkiyənin səfirlikləri ilə birlikdə həyata keçiririk. Bu gün Sizdən alacağımız təlimatlarla daha böyük güclə bir yerdə çalışmağa davam edəcəyik. Azərbaycanın işğal edilmiş torpaqları artıq azad olunmalıdır. Azərbaycan hüquqi və mənəvi cəhətdən də haqlıdır və bu haqlı mübarizəsini hər yerdə izah edərkən bu mübarizəni də meydanda və masada birlikdə aparmağa, inşallah, davam edəcəyik.

Bu gün Sizin qəbulunuzdan sonra qardaşım Ceyhunla bu məsələlərdə necə birlikdə hərəkət edəcəyimizi dəyərləndirəcəyik.

Bizi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirik. Dostluq qrupumuzun sədri Şamil bəylə birlikdə gəldik. İnşallah, bugünkü toplantılarımız Azərbaycanın torpaqlarının azad edilməsi yolunda xeyirlərə səbəb olacaq. Bir daha təşəkkür edirəm, hörmətli Prezidentim.

**Prezident İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm.

# Prezident İlham Əliyev: İran-Azərbaycan dövlət sərhədinin işğal olunmuş ərazisinin bir hissəsi Azərbaycanın nəzarətinə keçib

**İran İslam Respublikasının Prezidenti Həsən Ruhani oktyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**



Həsən Ruhani Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın davam etməsindən ölkəsinin narahatlığını ifadə edib və münaqişənin tez bir zamanda sülh yolu ilə həll olunacağına ümidvar olduğunu bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, sentyabrın 27-dən başlamış və bu gün də davam edən Ermənistanın hərbi təxribatı nəticəsində təmas xətti boyu yerləşən hərbi birləşmələrimizin mövqeləri və yaşayış ərazilərimiz Ermənistan tərəfindən ağır artilleriya atəşinə məruz qalıb. Nəticədə hərbi qulluqçularımız, 27 mülki şəxsimiz həlak olub, 170-dən çoxu yaralanıb, 900-dən artıq evə ziyan dəyib və ya tamamilə dağıdılıb. Azərbaycan tərəfi uğurlu əks-hücum əməliyyatları həyata keçirərək, işğal olunmuş torpaqlarımızın bir hissəni işğaldan azad edib.

Dövlətimizin başçısı qeyd edib ki, İran-Azərbaycan dövlət sərhədinin işğal olunmuş ərazisinin bir hissəsi Azərbaycanın nəzarətinə keçib və sərhəd boyu işğaldan azad olunmuş ərazilərdə tezliklə Azərbaycan sərhəd qoşunlarının və sərhəd infrastrukturunun yerləşdirilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyev bildirib ki, Ermənistanın davam edən hərbi təcavüzü və təxribatları regionda sülhün və təhlükəsizliyin təmin olunması işində ən böyük əngəldir.

Prezident İlham Əliyev və Prezident Həsən Ruhani ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin gələcək uğurlu inkişafı ilə bağlı məsələləri müzakirə edib və əlaqələrimizin ölkələrimizin və xalqlarımızın maraqlarına uyğun olaraq bundan sonra da genişlənəcəyinə və möhkəmlənəcəyinə ümidvar olduqlarını bildiriblər.

## *Ərdoğan:* MAKRONUN SÖZLƏRİ ƏDƏBSİZLİKDİR



"Bu gün bir çox Qərb ölkəsində irqçilik və islamofobiya birbaşa dövlət tərəfindən himayə edilir".

"İki sahil" "Report"a istinadən xəbər verir ki, bunu "Məscidlər və din xadimləri həftəsi" tədbirində çıxışı zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

"Müsəlmanlara hücum etmək avropalı siyasətçilərin uğursuzluqlarını pərdələmək üçün istifadə etdikləri ən önəmli vasitələrindən biridir", - o bildirib.

Ölkə başçısı, həmçinin Fransa prezidenti Emmanuel Makronun İslam barədə son açıqlamasını da şərh edib: "Makronun müsəlmanların sıx yaşadığı bir şəhərdə "İslam böhrandadır" deməsi yalnız hörmətsizlik deyil, eyni zamanda təxribatdır. Belə sözləri işlətmək ədəbsizlikdir".

PREZİDENTƏ YAZIRLAR:

# Sizin qətiyyətli, müdrik və cəsarətli siyasətiniz Azərbaycan xalqını uğurlu gələcəyə, parlaq qələbəyə doğru aparır

**Azərbaycan Ordusunun cəbhədə Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr vurması, əldə etdiyi qələbələr vətəndaşlarımız, xaricdə yaşayan soydaşlarımız, həmçinin bir sıra digər ölkələrin vətəndaşları tərəfindən böyük sevinclə qarşılanır. Onlar sevinc hisslərini Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə yazdıqları məktublarda ifadə edirlər.**



**"İki sahil" Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.**

**ABŞ-ın Hyuston şəhərindən Təranə Teylor Prezidentə yazır:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan, öz adımdan, ailəmiz adından və Hyustonda yaşayan azərbaycanlılar adından Sizi və şanlı Ordumuzu düşmən üzərində gözəl qələbələrə görə ürəkdən təbrik edir və alqışlayıram. Sizə haqq işimizdə uğurlar arzu edirik. Sizin xarici informasiya agentliklərinə müsahibələrinizi izlədikcə belə müdrik, yüksək təhsilli, humanist və eyni zamanda, Vətən üçün qəti sözünü deməyə çəkinməyən rəhbərimizin olması ilə fəxr edirik. Sizi dəstəkləyirik və əlimizdən gələn yardımı etməyə hazırıq. İşimiz haqdır, qələbə bizimlədir!".

**Avstriyanın Vyana şəhərindən Ayan Məmmədli:** "Əziz Prezidentimiz, cənab İlham Əliyev, mən hazırda xaricdə təhsil alan yüzlərlə azərbaycanlı tələbələrdən biri kimi doğma Azərbaycanımızın müqəddəs torpaqlarının Sizin rəhbərliyinizlə şanlı Ordumuz tərəfindən işğalçılardan azad edilməsinin sevincini uzaq Avstriyada böyük həyəcanla yaşamaqdayam. Hər gün bu qərib ölkədə doğma yurdumdan aldığım zəfər xəbərləri qəlbimi qürur hissi ilə doldurur. Döyüş meydanlarında şücaət göstərən əsgərlərimizin hər uğurunu ailəmin Xocalıda şəhid olmuş əzizlərinin intiqamının alınması kimi dəyərləndirirəm. Hələ keçən il Avstriya Konservatoriyasında musiqi təhsilin almağa başlayanda ən böyük arzum o olmuşdur ki, Vətənə yetkin musiqiçi kimi dönəndə ilk ifamı yurdumun musiqi beşiyi olan Şuşada səsləndirim. Bu gün çox sevincliyəm ki, digər ərazilərimiz kimi, Şuşanın da azad olunmasına sayılı günlər qalıb. Bu sevinci və xoşbəxtliyi biz tələbə və gənclərə yaşatdığınız üçün Sizə sonsuz minnətdarlığımı bildirirəm. Hazırda doğma Vətəndən uzaqda olsaq da, qəlbimiz xalqımızın qəlbi ilə bir döyünür. Bu sınaq günlərində müzəffər Ordumuza can sağlığı və yalnız böyük qələbələr arzu edirəm. Dualarımız və sevgilərimiz sizinlədir! Yaşasın dünya azərbaycanlıları, yaşasın Ali Baş Komandanımız, yaşasın doğma Azərbaycanımız!".

**Gürcüstanın Bolnisi rayonunun Talaveri kəndindən Abbasov Bayram, Natiq İsrailov, Xosrov İsmail, Svetlana Eyvazova və Nərgiz Eyvazova yazırlar:** "Hörmətli cənab Prezident, Gürcüstanda yaşayan azərbaycanlıların adından müraciət edərək işğalçı ermənilərə qarşı həyata keçirdiyiniz ədalət müharibəsində Sizi tam dəstəklədiyimizi bildiririk. Azərbaycan beynəlxalq hüquqa uyğun olaraq haqqını icra edir, Birləşmiş Millətlər Təşkilatının Qarabağın işğaldan azad edilməsi ilə bağlı qətnamələrinin icrasını tələb edir. Qarabağ Azərbaycandır!".

**Gəncə şəhərindən Fazil Səfixanov:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan. Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi uğrunda gedən döyüşlərdə Ordumuzun uğurla irəliləməsi, yeni-yeni bölgələrimizi düşməndən təmizləməsi ilə bağlı Sizə minnətdarlığımı bildirirəm. Bu məhz Sizin sayənizdə mümkün olur. Qürurla bildirirəm ki, bir vətəndaş kimi dövlətim və Vətənim qarşısında müqəddəs borcumu yerinə yetirməyə hər zaman hazıram və könüllü olaraq cəbhəyə getmək üçün müraciət etmişəm. Lakin ahıl yaşımla əlaqədar olaraq döyüşlərə aparmırlar. Cənab Ali Baş Komandan, Sizdən xahiş edirəm, göstəriş verin ki, məni də Orduya qəbul etsinlər. Hər zaman Sizin yanınızdayıq, hər an döyüşə hazırıq. Hər şey üçün Sizə minnətdaram. Yaşasın müzəffər Ordumuz!".

**Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndindən Rauf Musayev:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan, 27 ildən sonra doğma Cəbrayılımızın erməni tapdağından azad edilməsi sevincini bizə bəxş etdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Biz cəbrayıllılar Sizin uzaqgörən siyasətinizi dəstəkləyirik. Verdiyiniz qərarlar və qətiyyətli mövqeyinizlə bizi qələbədən qələbəyə aparırsınız. İnanırıq ki, Sizin rəhbərliyinizlə Ordumuz yeni-yeni zəfərlər qazanacaq. Hörmətli Ali Baş Komandan, biz cəbrayıllılar daim Sizin əmrinizi gözləyir, ölkəmiz uğrunda döyüşməyə hər an hazır olduğumuzu bildiririk. Yaşasın müstəqil Azərbaycan!".

**Cəbrayıl rayonundan məcburi köçkün Gültəkin Maxsudova:** "Möhtərəm cənab Prezident, Sizin siyasətiniz nəticəsində doğma torpağımız - Cəbrayılımız erməni işğalçılarından azad edildi. Sizə ailəmiz, Quycaq kənd camaatı, bütün cəbrayıllılar adından dərin təşəkkürümü bildirirəm. 27 ildir ki, düşmən tapdağı altında qalan doğma yurd yerimizə yenidən gedəcəyimiz, cənnətməkan torpağının havasını udacağımız, o buz kimi bulaqların suyundan yenidən dadacağımız günü səbirsizliklə gözləyirik. Bu gün Siz bizə yeni nəfəs, yeni ruh bəxş etdiniz. Biz Sizinlə və bütün hərbçilərimizlə fəxr edirik, qürur duyuruq. Allah Sizi və bütün hərbçilərimizi qorusun".

**Gəncə şəhərinin 32 saylı tam orta məktəbinin 10-cu sinif şagirdi Qənirə Rzazadə:** "Hörmətli cənab Ali Baş Komandan, yaşadığımız tarixi günlərdən son dərəcə ilhamlanaraq, mən də bir məktəbli kimi Sizə məktub yazmağı özümə borc bildim. Cəbrayıl şəhərinin işğaldan azad olunması xəbəri hamımızda böyük sevincə səbəb oldu. Nəzərinizə çatdırmaq istərdim ki, Ermənistanın səngiməyən təxribatları Gəncə şəhərində heç bir narahatlıq yaratmır, əksinə, hər kəsdə mübarizə ruhu vardır. Sizin sayənizdə Azərbaycan dünyada öz sözünü deyə biləcək qüdrətli dövlətə çevrilib. Sizin bütün təşəbbüslərinizi dəstəkləyirik və gələcəkdə də daim dəstəkləyəcəyik. Artıq haqqın zamanı çatıb. Rəşadətli Azərbaycan Ordusu haqqın, ədalətin mücahidlərinə çevrilib. Qarabağ artıq onların həyat amalıdır. Təbiidir ki, Ermənistanın muzdlu döyüşçüləri Vətən həsrəti ilə alışıb-yanan Azərbaycan əsgərini məğlub etməyə qadir deyil. Minlərlə şəhidlərimizin qanı yerdə qalmamalıdır. Şəhid anasının göz yaşları hədər olmamalıdır. Yalnız uğrunda şəhidlik zirvəsinə ucaldıqları torpaqlar qaytarıldıqdan sonra onların ruhu rahatlığa qovuşacaqdır. Qardaş Türkiyə və Pakistan dövlətləri və xalqı mənəvi dəstək yerimiz oldu. Onlara da təşəkkürlərim sonsuzdur. Sizə ailəmiz adından minnətdarıq ki, bizim Prezidentimizsiniz. Uğurlarımız və zəfərlərimiz daimidir. Azərbaycan Ordusu həmişə müzəffərdir. Qarabağ bizimdir. Qarabağ Azərbaycandır".

**Kəlbəcər rayonundan məcburi köçkün Vüsal Musalı:** "Hörmətli cənab Prezident, Allah Sizdən razı olsun. Allah bizi dəstəkləyən ölkələrin, Rəcəb Tayyib Ərdoğan kimi saleh dostlarımızın sayını artırsın. Siz bu günlərdə xalqımızın Sizə olan etimadını bir daha doğrultdunuz. Bir şəhid övladı olaraq torpaqlarımızın erməni işğalından azad olunmasında göstərdiyiniz qətiyyətli mövqeyinizi dəstəkləyir və bu yolda yürütdüyünüz siyasət uğruna canımı fəda etməyə hazır olduğumu bildirirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

**Quba şəhərinin sakini Gülnarə Məclumova yazır:** "Hörmətli cənab Prezident, torpaqlarımızın işğaldan azad edilməsini çoxdan gözləyirdik. Təhsil işçisi olaraq, əminliklə deyə bilərəm ki, məhz Sizin uğurlu siyasətiniz nəticəsində biz artıq Qələbənin astanasındayıq. Bunun üçün Sizə və şanlı Ordumuza minnətdaram. Düşmən üzərində qazanılan zəfərlərə görə Sizi və xalqımızı təbrik edirəm. Var olsun yenilməz Azərbaycan Ordusu və cənab Ali Baş Komandanımız! Qarabağ Azərbaycandır!".

**Laçın rayonunun Minikənd kəndindən Sənan Əmirov:** "Rəşadətli, möhtərəm Ali Baş Komandanımız, müdrik və qətiyyətli rəhbərliyinizlə yeni-yeni ərazilərimizin düşmənlərdən azad edilməsi və qürurverici qələbələrimiz münasibətilə Sizi təbrik edirik. Yaxın zamanlarda tam qələbəmizi bayram edəcəyimizə əminik. Hər birimiz, bütün xalq Sizinlədir. Vətənimizin düşməndən azad edilməsi naminə son damla qanımızadək vuruşmağa hazırıq və bunun üçün könüllü olaraq müraciət etmişik. Möhtərəm Prezidentimiz, Siz müdrik lider kimi, dövlətimizin-xalqımızın tarixinə şərəfli səhifələr yazmısınız. Rəşadətli rəhbərliyinizlə apardığınız bu şərəfli müharibə həm Vətən torpaqlarımızı düşməndən azad edəcək, həm də son 200 ildə mənfur qonşumuz ermənilərin bizə etdiklərinə, onların işğalçılıq siyasətinə və hərəkətlərinə layiqli tarixi cavab olacaq. Mövcud qlobal, sosial-siyasi çətinliklər mühitində, haqq işi uğrunda mübarizədə Sizə yeni uğurlar diləyirik, əziz liderimiz. Qarabağ Azərbaycandır! Qələbə bizimlədir! Biz öz rəhbərimizə dərindən inanırıq, güvənirik, daim Sizinləyik. Sizinlə və şücaətli Ordumuzla fəxr edirik".

**Bərdə rayonunun Gərənə kəndindən Sevinc Bahadurlu:** "Cənab Prezidentim, Bərdə rayon Alpout kənd tam orta məktəbinin kollektivi adından yazaraq bildiririk ki, bu şərəfli zəfər yolunda daim Sizin yanınızdayıq və hər zaman Sizi dəstəkləyirik. Uca Yaradan Sizi, Ordumuzu, xalqımızı qorusun. Azərbaycan xoşbəxt ölkədir ki, güclü ordusu və onun başında duran uzaqgörən Ali Baş Komandanı var. Əziz Prezidentimiz, arzumuz, amalımız Sizinlə, Ordumuzla irəli, qələbəyə doğru getməkdir. İnanırıq ki, Sizin və məğrur Ordumuzun sayəsində işğal olunmuş torpaqlarımız tezliklə qaytarılacaq, üçrəngli bayrağımız Qarabağda dalğalanacaq".

**Tovuz rayonunun sakini Ramin Qələndərov:** "Çox hörmətli cənab Prezident, biz Tovuz rayonunun çoxsaylı gəncləri Qarabağın düşməndən azad olunması barədə şanlı Ordumuza, qəhrəman əsgərlərimizə Sizin verdiyiniz əks-hücum əmrini ürəkdən bəyənir, dəstəkləyirik və mənfur düşmənə qarşı mübarizədə bizim hər birimiz əsgəriniz olaraq döyüşlərə qatılmağa hazırıq. Cənab Ali Baş Komandan, artıq 30 ilə yaxındır ki, düşmən tapdağında olan Qarabağımızın Sizin dönməz siyasətiniz, mətin iradəniz və Ali rəhbərliyinizlə azad olunmasında biz Tovuz gəncləri olaraq iştirak etməyə hazırıq. Ordumuza uğurlar arzulayırıq".

**Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Sərxanlı kəndindən Elvin Quliyev:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə ordumuzun torpaqlarımızın işğaldan azadlığı uğrunda apardığı mübarizədə hər gün eşitdiyimiz yeni zəfər, yeni uğur, yeni qələbə sevincini Uca Allahın yardımı ilə xalqımıza bəxş etdiyiniz üçün Sizə dərin minnətdarlığımızı bildirir, qələbələr münasibətilə Sizi səmimi qəlbdən təbrik edirik. Bu zəfərin əldə edilməsi Sizin ağıllı və savadlı siyasətinizin, müdrik uzaqgörənliyinizin bariz nümunəsidir. Haqq yolunda aparılan mübarizəmizdə Ali Baş Komandan olaraq Sizə güvənirik. Bu günlərdə yaşadığımız zəfər coşqusu bizlərə hər an sevinc göz yaşları, sevincdən doğan qəhər bəxş edir. Bu məktubu yazarkən belə, ardı-arası kəsilməyən, sevincli zəfər xəbərləri eşidirəm. Bir Vətən övladı olaraq azadlıq uğrunda canımdan, qanımdan keçmək üçün səbirsizliklə əmrinizi gözləyirəm. Allah Sizi var etsin, daim qorusun. Biz Sizinləyik, yanınızdayıq. Bir Vətənimiz var - Azərbaycan. Bir şüarımız var - Qarabağ Azərbaycandır!".

**Şamaxı rayonundan Samir Xanaliyev:** "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, bu günlər hamımızın qəlbi qürurla doludur. Mən də keçirdiyim sevinc hisslərini sözlə ifadə edə bilmirəm, fərəhdən göz yaşlarımı saxlaya bilmədim. Siz bizim müdrik, uzaqgörən liderimizsiniz. Xalq həmişə olduğu kimi ətrafınızda sıx birləşərək Sizə güvənir. Zəfər bizimdir. Cənab, Ali Baş Komandan, Sizin komandanlığınızla şanlı ordumuz müqəddəs üçrəngli bayrağımızı, İnşallah, Qarabağda dalğalandıracaq. Ordumuzun zəfərinə çox sevinirik. Bu qələbə əzmini, zəfər sevincini bizə yaşatdığınız üçün Sizə dərin təşəkkür edirik. Sizə, Azərbaycana, şanlı ordumuza daha böyük uğurlar, zəfərlər arzulayıram. Allah Sizə yar olsun. Allah Sizi, xalqımızı, ordumuzu qorusun".

⇨ **Davamı 4-cü səhifədə**

PREZİDENTƏ YAZIRLAR:

# Sizin qətiyyətli, müdrik və cəsarətli siyasətiniz Azərbaycan xalqını uğurlu gələcəyə, parlaq qələbəyə doğru aparır

⇨ Əvvəli 3-cü səhifədə

**Zaqatala şəhərindən Samir Rəhimov:** "Möhtərəm və əziz Prezident, son günlər Azərbaycan Silahlı Qüvvələri qazandığı böyük uğurlarla xalqımızı sevindirir. Dünyadakı bütün azərbaycanlılar Sizin rəhbərliyinizlə ordumuzun bütün torpaqlarımızı işğaldan tam olaraq azad edəcəyinə inanırıq. Bu müqəddəs yolda zəfərin müjdəçisi olan şanlı Ordumuza uğur arzulayırıq. Allah Sizə uzun ömür, cansağlığı versin. Biz hər an Sizinləyik. Allah Sizi qorusun".

**Qazax rayonunun sakini Ülvi Zeynalov:** "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Sizin qətiyyətli, müdrik və cəsarətli siyasətiniz Azərbaycan xalqını hər zaman uğurlu gələcəyə, parlaq qələbəyə doğru aparır. Biz qazaxlı gənclər olaraq Sizin və Ordumuzun ətrafında sıx birləşmişik, xalqımızın işıqlı gələcəyi naminə atdığınız hər bir addımı dəstəkləyirik. Biz Sizin rəhbərliyinizlə əzəli və tarixi Azərbaycan torpaqları olan Dağlıq Qarabağın, o cümlədən, ətraf 7 rayonun birmənalı olaraq düşmən tapdağından azad edilməsi müjdəsini səbirsizliklə gözləyirik. Cənab Ali Baş Komandan, Siz müstəqil Azərbaycanın ərazi bütövlüyünü təmin edən, əzəli və əbədi torpaqlarımız olan Dağlıq Qarabağı işğaldan azad edən sərkərdə kimi tarixdə qalacaqsınız. Əminik ki, gələcək nəsillər ən yeni tarix dərsliyində bu ifadə ilə qarşılaşacaqlar. Bu tarixi anları Azərbaycan gəncliyinə yaşatdığınız üçün Sizə minnətdarıq. Biz Sizinlə fəxr edirik. Uca Tanrı Sizi qorusun".

**Sabirabad rayonunun Suqovuşan kəndindən Xalid Əliyev:** "Möhtərəm cənab Prezident, bu günlərdə Qarabağ uğrunda gedən mübarizədə Sizinləyik. Bildirmək istəyirəm ki, Sizin yürütdüyünüz siyasəti, atdığınız hər bir addımı tam dəstəkləyirik. Cənab Ali Baş Komandan, Ordumuz Sizin siyasi iradənizdən, millətə olan sevginizdən güc alaraq, böyük ruh yüksəkliyi ilə uğurlu əməliyyatlar həyata keçirir, zəfərlər qazanır. İnanıram ki, bu qələbələr davamlı olacaq, bizə məxsus torpaqlardan sonuncu erməni əsgəri çıxanadək mübarizəmizi davam etdirəcəyik. Atdığınız hər bir addıma, qazandığınız hər bir uğura görə Sizə minnətdaram. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

**Sumqayıt şəhərindən Qivami Cavadov:** "Cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə Ordumuz 30 illik işğala son qoyaraq, Azərbaycan torpaqlarını xain düşmənlərdən azad edir. İgid əsgərlərimiz yeni tarix yazırlar. Bu gün bütün xalq bir yumruq kimi Sizin ətrafınızda cəmləşib, Sizinlə fəxr edir. Yürütdüyünüz məqsədyönlü siyasəti dəstəkləyir, atdığınız hər bir addımı təqdirəlayiq sayırıq. İnşallah, yaxın günlərdə Azərbaycanın üçrəngli bayrağı azad olunan rayon və kəndlərimizdə dalğalanacaq. Mən öz adımdan və ailəm adından Sizə çox-çox minnətdaram. Hər zaman Sizin yanınızdayıq. Allah Sizə uzun ömür, cansağlığı versin".

**Bakı şəhərindən dosent David Nəsibov:** "Hörmətli cənab Prezidentim, bir həftədir ordumuzun zəfər yürüşü ilə torpaqlarımızı 30 ildir işğalda saxlayan, tərəfdaşları ilə yalançı sülh danışıqları vasitəsilə vaxtı uzadan, ancaq heç vaxt, heç bir şərt müqabilində torpaqlarımızı qaytarmağı ağlından belə keçirməyən, çox hiyləgər, işğalçı, mənfur ermənilərdən azad etməsi ürəyimizi fəxarət hissi ilə döyündürür. Sanki yenidən doğuluruq, keçirdiyimiz bütün ağrı-acılar unudulur, uçmaq üçün qanad istəyirik. İnanırıq ki, bu zəfər yürüşü axıradək davam edəcək. Sizin çıxışlarınız, onlara və havadarlarına verdiyiniz haqlı, məntiqi və sərt cavablar bizləri buna bir daha inandırır. İnanırıq ki, bütün millətimiz böyük ruh yüksəkliyi içindədir, heç bir çətinliklər, gələcək məhrumiyyətlər millətimizin bu ruhunu sarsıda bilməz. Millətimiz ömrü boyu Sizə minnətdar olacaq. Sizin rəhbərliyinizlə şanlı Azərbaycan ordusuna, millətimizə qalibiyyət diləyirik. Üçrəngli bayraqlarımızın işğal olunmuş bütün rayonlarımızda, kəndlərimizdə dalğalanmağına böyük inam hissi ilə yaşayırıq".

**Şəki şəhərindən Yusif Kərimli:** "Hörmətli cənab Prezidentim, mənim 9 yaşım var. Şəki şəhəri 11 saylı orta məktəbin 4a sinif şagirdiyəm. 5 yaşımdan şahmatla məşğul oluram. 9 yaşım olmağına baxmayaraq şanlı bayrağımızı 4 dəfə dünya və Avropa çempionatlarında yüksək zirvələrə qaldırmışam. Hazırda Qarabağda başlayan zəfər dolu yürüşlərimizi mən və ailəm hər gün sevinc dolu göz yaşlarımızla izləyirik. İnşallah, gözəl bayrağımız qısa müddət ərzində Qarabağımızda və işğalda olan 7 rayonumuzda dalğalanacaqdır. Buna tam inamım var. Bu gün atamın 34 yaşı olur. Suqovuşanın işğaldan azad olunması atam üçün ən böyük hədiyyə oldu. Buna görə Sizə və bütün hərbçilərimizə təşəkkür edirik. Biz idmançılar bu haqlı mübarizəmizdə Sizinləyik. Qarabağ Azərbaycandır! Əminik ki, Sizin komandanlığınızla torpaqlarımıza qayıdacağıq".

**Lənkəran rayonunun Boladi kəndindən Akif Nəsirov:** "Hörmətli cənab Prezident, cəbhədəki uğurlarımız münasibətilə Sizi ürəkdən təbrik edirəm. Sizə bu şərəfli və haqq yolunda daha böyük uğurlar qazanmağı arzu edirəm. Siz bizim güc və qürur mənbəyimizsiniz. Sizin yorulmaz fəaliyyətinizin nəticəsidir ki, bu gün qüdrətli Azərbaycan Ordusu öz vəzifəsini çox layəqətlə icra edir. Azərbaycan xalqı Sizinlə fəxr edir və Sizin arxanızdadır. İşğal altında olan torpaqların azad edilməsi ilə Azərbaycan Respublikasının Milli Məclisindən xahiş edərdim ki, Sizə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilsin. Bir daha Sizi və xalqımızı təbrik edirəm".



**Mingəçevir şəhərindən Anar Quliyev:** "Hörmətli cənab Prezident, əvvəlcə onu qeyd edim ki, mən bir Azərbaycan vətəndaşı kimi Sizinlə fəxr edirəm. Bu gün mənim doğum günümdür. Mənə ən böyük hədiyyəni Siz verdiniz - Cəbrayıl şəhərini azad etdiniz. Buna görə Sizə və Ordumuza minnətdaram. Biz Sizin uğurlu daxili və xarici siyasətinizi həmişə dəstəkləmişik. Azərbaycan xalqı hər zaman Sizinlədir. Tezliklə Sizdən növbəti şad xəbərləri gözləyirik. Yaşasın Azərbaycan, var olsun Azərbaycan Ordusu! Yaşasın Azərbaycan xalqı!".

**Gəncə şəhərindən Rövşən Abbasov:** "Hörmətli cənab Prezident, ordumuzun erməni faşistlərinə qarşı apardığı uğurlu əməliyyatlara, gözəl çıxışlarınıza görə Sizə minnətdaram. Biz deyəsən, uzun bir yolun sonuna gəlib çıxmışıq. Ötən illər ərzində ordu quruculuğu işlərinin mükəmməl təşkili və Sizin qətiyyətli mövqeyiniz bizə Qarabağı bəxş etməkdədir. İnşallah, gözəl üçrəngli bayrağımız Şuşada dalğalanacaqdır. Allah Sizi qorusun!".

**Sabirabad rayonunun Qaratəpə kəndindən Əlirza Hüseynov:** "Hörmətli cənab Prezident, möhtərəm Ali Baş Komandan, Sizi, Mehriban xanım Əliyevanı və dünya azərbaycanlılarını tarixi torpaqlarımızın - Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ və ətraf rayonların düşmən tapdağından azad olunması münasibətilə təbrik edirəm. Sizə bütün Azərbaycan xalqının vahid Lideri və Ali Baş Komandanı kimi bu müqəddəs və haqq işində bizlərə bəxş etdiyiniz qələbələr üçün sonsuz təşəkkürümü bildirirəm. Sizin siyasətiniz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev siyasətinin layiqli davamı və Azərbaycanı işıqlı gələcəyə aparacaq yeganə siyasətdir".

**Şirvan şəhərindən Rəşad Abdulla:** "Cənab Ali Baş Komandan, 27 sentyabr tarixindən Sizin komandanlığınızla əzəli torpaqlarımızın geri qaytarılması istiqamətində qazandığımız qələbələr bir vətəndaş olaraq hamımızı qürurlandırır və Sizin ətrafınızda daha sıx birləşməyə, çalışdığımız sahə üzrə fəaliyyətimizdə də daha diqqətli və dəqiq işləməyə ruhlandırmışdır. Sizə gecəli-gündüzlü çəkdiyiniz bu əziyyətlərdə uca Allahdan cansağlığı, səbir diləyirik. Sizin komandan kimi apardığınız taktiki gedişlərdə qüsursuz vətəndaş kimi hər zaman Sizin ətrafınızda sıx birləşmişik. Hər hansı bir əmrinizi yerinə yetirməyə sıravi əsgər kimi hazırıq. Ümummilli liderimiz Heydər Əliyevin Sizə etibar etdiyi Azərbaycanımızın ərazi bütövlüyü və iqtisadi inkişafı istiqamətində gördüyünüz bütün fəaliyyətinizi dəstəkləyirik və Sizinlə birlikdə bu fəaliyyətinizin bir damlası olmağımızla fəxr edirik. Əzəli torpaqlarımızın geri qayıtması sevincini, qələbəsini görmək bizə yaşamaq, yaratmaq şövqü verdi. Bundan sonra daha çox çalışmaq və Sizin ətrafınızda yumruq kimi birləşmək hamımızın vətəndaşlıq məsuliyyətimizi artırır. Fəaliyyətinizdə, Azərbaycanımızın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda apardığınız mübarizənizdə, dövlətçiliyimizin və iqtisadiyyatımızın inkişafında çəkdiyiniz zəhmətinizə görə Sizə, birinci xanım Mehriban Əliyevaya dərin təşəkkürümüzü bildirir, uca Allahdan cansağlığı, uzun ömür diləyirik. Sizə təşəkkür edirik. Əminik ki, Sizinlə birlikdə güclü olduğumuza inanırsınız. Çox Sağ olun".

**Bakı şəhərinin Nizami rayonunun sakini Sevda Abuzərli:** "Əziz Prezidentimiz İlham Əliyev, cəbhədə qazandığımız uğurlar bizi həddən artıq sevindirdiyindən övladlarım bir neçə gündür ki, israrla Sizə məktub yazmaq istəyirlər. Mən isə onlara qələbə günündə təbrik məktubu yazarıq söyləyirdim. Bu gün Gəncədə yaşayan valideynlərimlə danışdıqdan sonra onların Prezidentimizə Sizə olan etibarını, inamını çatdırmağı özümə borc bildim. Əziz Prezidentimiz, mən Sizə və Ordumuza güvəndiyimi bildirərək övladlarımın da ürək sözlərini Sizə çatdırmaq istərdim. Belə ki, qızım Dunay Sizin "Rossiya-1" televiziya kanalındakı çıxışınızı alqış və sevinclə qarşıladığını, daim Sizinlə olduğunu qeyd etməyimi xahiş etdi. Böyük oğlum, Atilla adlı sərkərdəm isə Xankəndidə - Xanın kəndində bayrağımızın dalğalanacağı günü səbirsizliklə gözləyir. On yaşlı Altay balam isə bu yaşda belə Sizin müsəlləh əsgəriniz olmaq arzusundadır.

*Sizi və Şanlı Ordumuzu dəstəkləyirik!*

*Ürəyim, canım, şöhrətim, şanım,*

*Eşqinlə yanım, Azərbaycanım!"*.

**Balakən rayonundan Xacay Qafarova:** "Möhtərəm cənab Prezident, Sizi bir gənc olaraq, bir vətəndaş olaraq səmimiyyətimlə və bütün qəlbimlə dəstəkləyirəm. Aldığınız düzgün qərarların nəticəsinin gətirdiyi xoş xəbərlərə bir azərbaycanlı kimi çox sevinirəm. Sizə inamımız və etibarımız tamdır. Bu gün Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi Sizin dərin strategiya və düzgün yeridilmiş siyasi qərarlarınızın nəticəsidir. Biz gənclərin daim Sizi dəstəklədiyimizi və Sizin yanınızda olduğumuzu bildirmək istəyirəm. Qarabağ bizimdir!" Qarabağ Azərbaycandır!".

**Biləsuvar rayonunun Amankənd kəndindən Mail Hüseynov:** "Çox hörmətli Prezidentimiz, cənab Ali Baş Komandanımız, işğalçı dövlətə qarşı apardığınız mübarizədə Azərbaycan xalqı həmişə Sizinlədir. Ordumuzun düşmənə tutarlı cavabı hər bir azərbaycanlı kimi, mənim də qəlbimi fəxr hissi ilə doldurur və qürurlandırır. Cənab Prezident, hazırda iki övladım cəbhədə döyüşür. Böyük övladım Aprel döyüşlərinin iştirakçısı olub, həmin döyüşlərdə yaralanıb, indi yenə torpaqlarımızın azadlığı uğrunda vuruşur. Sizin rəhbərliyinizlə xalqımızın savaşı haqq işidir. Haqq işi hər zaman qalib gələcək. Sizə və Azərbaycan xalqına Qələbə, yeni-yeni zəfərlər arzulayıram. Allah bu haqlı savaşda Ordumuzla və Sizinlə olsun. Xalq və Ordu həmişə bir yerdədir. Biz birlikdə güclüyük".

TÜRKİYƏLİ GENERAL-MAYOR PREZİDENTƏ YAZIR:

## Ermənistanın təcavüzünə qarşı başladığınız mübarizə bizi qürurlandırdı

Ermənistanın son vaxtlar həyata keçirdiyi təcavüzə qarşı başladığınız mübarizə bizi qürurlandırdı.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bu sözlər Türkiyə Ehtiyatda olan Zabitlər Dərnəyinin sədri, ehtiyatda olan general-mayor Namik Kamal Çalışkanın Azərbaycan Prezidenti İlham Əliyevin məktubunda yer alıb. Məktubda deyilir:

"Hörmətli cənab Prezident, bir kökə mənsub olmaqdan qürur duyduğumuz böyük türk birliyinin azad və müstəqil bir dövləti olan Azərbaycan Respublikası mərhum liderimiz Heydər Əliyevin "bir millət, iki dövlət" sözləri ilə ifadə edildiyi kimi həm də bizim Vətənimizdir. Bundan əlavə, ulu öndər Mustafa Kamal Atatürkün dediyi kimi "Azərbaycanın sevinci sevincimizdir, kədərimiz kədərimizdir". Dağlıq Qarabağ da daxil olmaqla torpaqlarınızın bir hissəsini işğal edən ermənilər Birləşmiş Millətlər Təşkilatı və ATƏT-in qərarlarına baxmayaraq bu işğalı davam etdirirlər. Onların mülki əhaliyə qarşı insanlığa sığmayan hərəkətləri qəbul edilə bilməz. Bu işğala və Ermənistanın son vaxtlar həyata keçirdiyi təcavüzə qarşı başladığınız mübarizə bizi qürurlandırdı. Bu qəti mübarizənizdə qələbə qazanacağınıza, illərdir davam edən haqsız işğala son qoyacağınıza, münaqişəni sülh yolu ilə həll etmək istəməyən Ermənistanı və onların havadarlarını sülhə məcbur edəcəyinizə əminəm. Türkiyə Respublikası və türk xalqı hər zaman Azərbaycana qardaşdır. Bu çərçivədə hökumətimizin elan etdiyi dəstək iradəsi xalqımızın da iradəsidir. Türkiyə Ehtiyatda olan Zabitlər Dərnəyi olaraq Azərbaycanı sona qədər dəstəkləyirik. Hər zaman və hər yerdə Azərbaycan Ordusuna hər cür töhfə verməyə hazır olduğumuzu bəyan edirik. Bu müqəddəs mübarizədə şəhid olan qardaşlarımıza mərhəmət və qazilərimizə təcili şəfa diləyirik. Bütün xalqınıza başsağlığı verir, ehtiramımızı bildiririk".

*Prezident İlham Əliyev:*

# Biz haqlıyıq, biz zəfər çalacağıq!

## Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!



**“Bilirsiniz, bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır. Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır”.**

Bu fikirləri oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa ünvanladığı müraciətində söyləyib.

Dövlət başçımız çıxışına qələbə xəbərlərini dilə gətirməklə başladı: **“Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm. Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!”**

Sentyabrın 27- də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hücuma keçib yeni ərazilərimizi işğal etmək məqsədilə hərbi obyektləri və mülki əhalini hədəfə alandan sonra Azərbaycan Ordusu beynəlxalq hüquqa və ədalətə əsaslanaraq, torpaqlarımızda düşmənə sarsıdıcı zərbələr endirməklə, ərazi bütövlüyümüz uğrunda əks-hücuma keçdi. İşğalçı Ermənistan bir neçə gündür Azərbaycan Silahlı Qüvvələrinin sarsıdıcı zərbələrinə davam gətirməyib böyük miqdarda canlı qüvvə və texnika itirir. Lakin təcavüzkar, əvvəllər olduğu kimi, yenə uğursuzluqlarını əhəmiyyətsiz dərəcədə kiçildir, Azərbaycan tərəfinin şəksiz qələbələrini gizlədir. Düşmən öz tərəfində yaranan təşviş və fərarilik barədə dezinformasiya yayır. Ermənistan rəhbərliyi tərəfindən məqsədyönlü şəkildə yayılan saxta məlumatlardan məqsəd qorxu və təşviş düşən erməni əhalisinin diqqətini yanlış informasiyalarla əsl həqiqətdən yayındırmaqdan ibarətdir. Şiddətli döyüşlər nəticəsində Azərbaycan Ordusunun bir sıra yaşayış məntəqələrini işğaldan azad etməsi, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutması faktı sübut edir ki, Azərbaycanın güclü ordusu var və bu, təkzibolunmaz faktdır. Ermənistan tərəfinin digər “feyknyus”u ondan ibarətdir ki, guya Azərbaycan ordusuna Suriyadan olan muzdlular cəlb olunub. Bunu birbaşa və qərəzli olaraq erməni təbliğatı ortaya atıb və müxtəlif saytlarda, müxtəlif kütləvi informasiya vasitələrində durmadan dövr etdirir. Azərbaycanın hazırlıqlı ordusu və çox böyük səfərbərlik ehtiyatı mövcuddur. Daha dəqiq ifadə etsək, 2 milyon əhalisi olan Ermənistana qarşı vuruşan 10 milyon əhalidən və onminlərlə ehtiyatda olanlardan ibarət gücə malik Azərbaycanın buna ehtiyacı belə yoxdur. Suriyadan və Livandan olan terrorçuları Dağlıq Qarabağda yerləşdirərək beynəlxalq hüquq normalarını, habelə Cenevrə Konvensiyasını kobud şəkildə pozan, məhz Ermənistanın özüdür ki, bu cür “feyknyus”lar yaymaqla öz əməllərini malalamağa cəhd edir.Ən önəmli məsələlərdən biri də iki xalq arasındakı uçurum qədər dərin olan fərqdir. Belə ki, bu gün Ermənistanda gənclər ordudan yayındığı və yaxud da postları qoyub qaçdığı halda, hər bir Azərbaycan gənci orduya könüllü yazılır, valideynlər övladları ilə qürur duyur, onları “Vətən sağ olsun” deyərək cəbhəyə yola salır, Azərbaycanda yaşayan və dünyaya səpələnən həmvətənlərimiz Ali Baş Komandana və Azərbaycan Silahlı Qüvvələrinə dəstək nümayiş etdirir, Qarabağ eşqi ilə yaşayır.Ermənistanın illərdən bəri özünün işğalçı siyasətini ört-basdır etmək məqsədilə beynəlxalq ictimaiyyətə sırımağa çalışdığı guya münaqişənin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin erməni əhalisinin öz müqəddəratını təyin etmə uğrunda mübarizəsi olduğu, Ermənistanın münaqişə tərəfi olmadığı, bu ölkənin Dağlıq Qarabağ əhalisini müdafiə etdiyi kimi qondarma tezislər tamamilə iflasa uğramışdır. Münaqişə zonasında son günlər baş verən hadisələr Ermənistan tərəfindən işğal edilmiş ərazilərimizdə yaratdığı qanunsuz rejimin irqçilik və etnik ayrı-seçkilik əsasında yaradılmış oyuncaq struktur olması əyani şəkildə sübut olunub. Özünün hərbi və informasiya müstəvisində ağır məğlubiyyətlərini kompensasiya etmək məqsədilə Ermənistan Azərbaycana qarşı böhtan xarakterli yeni iddiaları tirajlamağa uğursuz cəhd edir.

Azərbaycana qarşı təxribat hücumlarını yeniləyən Ermənistan bir daha sübut etdi ki, sülh və sabitliyin önündə ən böyük əngəldir. Havadarlarına güvənən bu bədnam ölkə işğalçılıq siyasətini davam etdirməklə, özünü necə rəzil duruma saldığını bir daha göstərdi. Ermənistanı dəstəkləyən ölkələr işğalçının, haqsızın yanındadırsa, Azərbaycanın tərəfində olanlar, işğala məruz qalanın, haqlı tərəfin yanındadır. Ermənistan bu ilin iyul ayından bir neçə dəfə təxribatlar törədib. İyulun 12-dən 16-dək Tovuz istiqamətində işğalçı ölkənin silahlı qüvvələrinin hücumu nəticəsində dinc sakinlər və hərbi qulluqçularımız qətlə yetirilib. Ardınca avqustun 23-də Goranboy istiqamətində diversiya-kəşfiyyat təxribatı və düşmənin Azərbaycana qarşı terror həyata keçirmək planları ifşa olunub. Daha sonra Azərbaycanın işğal altındakı ərazilərində Suriyadan gətirilən erməni ailələri yerləşdirilməklə qeyri-qanuni məskunlaşdırma siyasəti aparılıb. Bütün bu sadalananlar Ermənistan rəhbərliyinin planlı şəkildə təhrikçi bəyanatlarının və fəaliyyətinin davamıdır. Düşmənin növbəti təxribatı zamanı bu dəfə də mülki insanların sıx şəkildə yaşadığı məntəqələri və obyektləri intensiv şəkildə atəşə tutmasına daha dözmək mümkün olmadı. Ümumiyyətlə, işğalçı Ermənistan illərdir ki, mülki əhalini qəsdən hədəfə almaqla beynəlxalq hüquq normalarını açıq-aşkar kobudcasına pozur. Bu, həmçinin işğalçının 1949- cu il Cenevrə Konvensiyasının müvafiq müddəalarının və onların əlavə protokollarının ciddi şəkildə saymazlığı deməkdir. Belə təxribatlar bütövlükdə BMT-nin, Ümumdünya Səhiyyə Təşkilatının və digər nüfuzlu beynəlxalq qurumların mövcud pandemiya ilə əlaqədar qəbul etdiyi müraciətlərinə də hörmətsizlik kimi dəyərləndirilməlidir.

Bütün bəşəri mədəniyyət nümunələrinə, o cümlədən İslami dəyərlərə daim önəm verən Azərbaycan Prezidenti ermənilərin işğal etdikləri qədim türk torpaqlarında dini ibadət yerlərinin təhqir edilməsindən ciddi şəkildə narahat olaraq xalqa bildirib: **“Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq. Biz ermənilər tərəfindən bizim tarixi adlarımızı dəyişdirib tarixi saxtalaşdırmaq, eyni zamanda, Azərbaycan xalqının tarixi-mədəni irsini silmək cəhdlərinə son qoyduq. Bizim yaşayış məntəqələrinin tarixi adları bərpa edilir və bərpa ediləcəkdir”.**

Fikrimizcə, dövlət başçımızın xalqa müraciətinin əsas qayələrindən biri də odur ki, beynəlxalq aləm Ermənistanı məhz Ermənistan kimi - yeni terrorçu, təxribatçı, separatçı, işğalçı, İslam düşməni, insan düşməni, uşaq qatili, mədəniyyət düşməni kimi tanısın və hamı bilsin ki, Azərbaycana ərazi iddialarından əl çəkməyən bu vandallar regiondakı sülhün və inkişafın qatı düşməni olduqlarını gizlətmirlər. Ermənilər özgə torpaqlarına görə hər cür namərdlik etməkdən və qan tökməkdən əl çəkmirlər: **“Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır... BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz il ərzində danışıqlar gedə bilərmi?! Otuz il ərzində Azərbaycan xalqını belə vəziyyətdə saxlamaq olarmı?! Otuz il ərzində biz ümidlə yaşayırdıq ki, beynəlxalq birlik bu məsələni həll edəcək. Bu məsələnin həlli ilə məşğul olan ölkələr, beynəlxalq təşkilatlar öz sözünü deyəcək. Dünyanın ən ali beynəlxalq orqanı - BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin yerinə yetirilməsi üçün səy göstərəcək. Bu qətnamələr 27 ildir kağız üzərindədir”.**

Bu gün Qarabağ münaqişəsinin məhz bu duruma, bu həddə gəlib çatmasında birbaşa “rolu” olanlar - BMT, ATƏT və həmsədrlər, ancaq öz maraqlarını güdərək 30 ildir ki, pozulmayan sükut sərgiləyirlər. 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğalçılığını birmənalı pisləyən, onun işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxmasını tələb edən 4 qətnaməsinin qəbul edilməsinə baxmayaraq, onların heç biri icra edilməmiş, yerinə yetirilməmişdir. 1992-ci ildə ATƏT-in Minsk Konfransının (sonradan Minsk qrupuna çevrildi) yaradılmasına, ona münaqişənin sülh və danışıqlar yolu ilə həllində vasitəçilik missiyasının etibar edilməsinə, 1997-ci ildə Rusiya, Fransa və ABŞ-ın iştirakı ilə həmsədrlər institutunun təşkil edilməsinə baxmayaraq, bugünədək münaqişə həll olunmamışdur. Görəsən, bunları etməyə gücləri çatmamışdır, yoxsa seyrçi mövqedən çıxış etmək daha əlverişli idi. Aydındır ki, öz qərarlarına və missiyalarına obyektiv yanaşsaydılar, bir çox hallarda da işğalçını növbəti işğala stimullaşdıran, iştahlandıran davranışlara yol verməsəydilər, münaqişənin çoxdan ədalətli həlli tapılardı, sülh və əmin-amanlıq bərqərar olardı.

Yeri gəlmişkən, dövlət başçımız bilavasitə Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi məqsədilə yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyindən də ciddi narazı olduğunu Azərbaycan xalqının diqqətinə çatdırdı: **“Tapşırıq vermişəm bütün bizim xarici diplomatik orqanlara - məsələ qaldırın, BMT-də, ATƏT-də, Avropa İttifaqında, başqa təşkilatlara, deyin ki, bu, qanunsuzdur! Qanunsuz məskunlaşma cinayətdir! Buna reaksiya oldu?! Minsk qrupu bir açıqlama verdimi?! Vermədi! Avropa İttifaqı verdimi?! Vermədi! Dedi ki, bu bizi maraqlandırmır. Maraqlandırmırsa, indi də maraqlandırmasın. İndi nə hoqqalardan çıxırsınız? Azərbaycana qarşı iftiralar irəli sürülür, bəzi ölkələr, Avropa ölkələri bizi ittiham edirlər. Getsinlər güzgüyə baxsınlar. Bu ittihamların heç bir əsası yoxdur ki, kimsə imkan verməz Azərbaycan Dağlıq Qarabağı fəth etsin. Dağlıq Qarabağ bizimdir, bizim torpağımızdır, biz oraya qayıtmalıyıq, qayıdırıq və qayıdacağıq!”**

Dövlət başçısı həm daxili auditoriyada əminlik, inam və ümid yaratmaq üçün, həm də Ermənistana himayədarlıq edən ikili standart müəlliflərinə mesaj göndərmək məqsədilə müraciətini konkret və qətiyyətli notlarla başa vurur: **“Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”**

**Yaqut Ağaşahqızı,**
***“İki sahil”***

VƏTƏNDAŞLAR YAZIRLAR:

# Cənab Prezident, Sizin qətiyyətiniz hər bir Azərbaycan vətəndaşında qürur hissi doğurur

**Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinə qarşı həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatları vətəndaşlarımızda qələbə əzmini, ruh yüksəkliyini daha da artırıb. Bu, Azərbaycan vətəndaşlarının Prezident, Ali Baş Komandan İlham Əliyevə göndərdiyi təbrik və təşəkkür məktublarından da aydın görünür.**

Qeyd edək ki, Azərbaycan vətəndaşlarından əlavə bir sıra xarici ölkələrin vətəndaşları da dövlətimizin başçısına məktublar ünvanlayırlar.

**"İki sahil" Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.**

**Türkiyənin İstanbul şəhərindən Mümin Kıvanc yazır:** "Hörmətli cənab Prezident, uzun illərdir özümə Vətən bildiyim, burada ailə qurduğum Azərbaycanla və övladlığa götürdüyüm balamın qürurla daşıdığı Azərbaycan Respublikasının pasportu ilə qürur duyuram. Bu hisslər üçün Sizə minnətdarlıq edirəm. Bilmənizi istəyirəm ki, Sizin rəhbərliyinizlə bütün Azərbaycan xalqı bu günlərdə Vətənimiz Qarabağ uğrunda mücadilə aparır. Bizi özündən ayrı görməyən böyük Azərbaycan xalqının qonaqpərvərliyi və əbədi qardaşlığımız naminə əlimdən, ürəyimdən gələn hər bir köməyi Sizə və Azərbaycan xalqına verməyə hazırıq. Allah bu işdə Azərbaycan Ordusuna kömək olsun. Yaşasın Azərbaycan! Yaşasın Türkiyə!".

**Ankara şəhərindən Rövşən Bərduxanov yazır:** "Möhtərəm cənab Prezident, dünyanın bir neçə ölkəsində fəaliyyət göstərən və Yüksək Hərbi Texnologiyalara sahib olan "FDI GROUP" şirkəti olaraq, ilk növbədə, Sizə salamlarımızı çatdırır və ehtiramımızı bildiririk. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olaraq erməni faşistlərinə qarşı apardığınız mübarizəsini dəstəkləyir, Qarabağ uğrunda başladığınız uğurlu əməliyyatları davam etdirməyinizi arzulayır və Azərbaycanın işğal altında olan bütün torpaqlarının azad olunacağına inanırıq. Biz "FDI GROUP" şirkəti olaraq bütün potensialımız və texnoloji imkanlarımızla Şanlı Ordumuzun yanında olmaqdan və Azərbaycan xalqı ilə bərabər erməni qəsbkarlarından şəhid qardaşlarımızın intiqamını almaqdan şərəf duyardıq. Cənab Ali Baş Komandan, Sizin əmrinizdəyik və hər zaman Sizin yanınızda olmağa hazırıq. Allah Sizi və Azərbaycan xalqını qorusun. Xalq Sizinlədir və zəfər Sizinlədir. Biz, Türkiyədə yaşayan azərbaycanlılar və böyük Türk xalqı həmişə Sizin yanınızdayıq".

**Rusiyanın Sankt-Peterburq şəhərindən Eldar Əliyev, Natəvan Əliyeva, Səbinə Əliyeva və Toğrul Əliyev yazırlar:** "Cənab Ali Baş Komandan, Sizin rəhbərliyiniz altında Azərbaycan Ordusunun qələbələri, həmçinin Cəbrayıl şəhərinin və ətraf kəndlərin azad edilməsi münasibətilə Sizi və xalqımızı ürəkdən təbrik edirik. İnanırıq ki, Sizin komandanlığınız altında tezliklə Azərbaycan Ordusu tarixi ədaləti bərpa edəcək və Vətənimizin ərazi bütövlüyü təmin olunacaqdır. Yaşasın Azərbaycan! Var olsun Ali Baş Komandanımız və onun rəhbərliyi altında Azərbaycanın müzəffər ordusu! Qarabağ Azərbaycandır!".

**Sumqayıt şəhərindən Yekaterina Məmmədova:** "Çox hörmətli cənab Prezident, Sizin torpaqlarımız uğrunda apardığınız bu əzmkar mübarizəni uzun illərdir Azərbaycanda yaşayan rus xalqının bir nümayəndəsi kimi sonadək dəstəkləyəcəyəm. Otuz ildir yağı düşmənin əsarətində olan torpaqların tezliklə azad edilməsini səbirsizliklə gözləyirəm. Cənab Ali Baş Komandan, Sizin və Ordumuzun əməyi, davamlı səyləri nəticəsində hər gün yeni qələbə xəbərləri alırıq. Fəxr edirəm ki, belə əzmli Ali Baş Komandanımız və yenilməz ordumuz var. Bu tarixi günləri bizə yaşatdığınız üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Cənab Prezident, ürəyim bütün Azərbaycan Ordusu ilə bir döyünür. Bütün əsgər analarının ağrısı mənim də ağrımdır, sevinci mənim də sevincimdir. Əziz Prezidentim, mən Sizinlə fəxr edirəm. Qoy, Ulu Tanrı bu haqq yolunda Sizi və Azərbaycan xalqını qorusun!".

**Bakı şəhərindən Hədiyyə Balacayeva:** "Çox hörmətli cənab Prezident, bizim ailəmiz dəfələrlə doğma yurd-yuvasından köçkün düşüb. Keçən əsrin ortalarında Dərələyəz mahalından, 1993-cü ildə isə Kəlbəcər rayonundan məcburi köçkün həyatı yaşamaq məcburiyyətində qalıb. Sizin hazırkı mövqeyiniz bizim ailə tərəfindən rəğbətlə qarşılanıb. Sizin düzgün siyasətiniz həm dünya, həm də Azərbaycan ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Sizin tutduğunuz bu haqq yolunda Allah Sizə yar olsun. Öz adımdan və ailəmiz adından Sizin apardığınız bu haqq işini dəstəkləyirəm. Cənab Prezident, mən 2018-ci il Məkkə şəhərində Ümrə ziyarətində olarkən Sizin şəklinizi aparıb Allah evinin üzərinə qoyub dualar etmişdim. İnşallah ki, mənim dualarım qəbul olar. Allah Sizi qorusun. Allah ailənizi qorusun. Allah bu işdə Sizə yardımçı olsun. Azərbaycan bayrağı tezliklə işğaldan azad olunmuş torpaqlarda dalğalansın!".

**Biləsuvar rayonundan Rəşad Qasımov:** "Möhtərəm cənab Prezident, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqın təkidi ilə yenidən hakimiyyətə qayıtmış dünya şöhrətli siyasətçi, ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində atəşkəs rejiminə nail olmaqla, ölkə iqtisadiyyatının inkişafı istiqamətində həyata keçirilən demokratik islahatlar Azərbaycanın Cənubi Qafqazda lider dövlət olması ilə yanaşı, dünya siyasi arenasında da öz sözünü deyən ölkəyə çevrilməsinə zəmin



yaratdı. Beləliklə, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, milli təhlükəsizliyinin təmin olunmasına və sosial-iqtisadi tərəqqisinə nail olduq. Ulu öndər Heydər Əliyevin Azərbaycanın xarici siyasət kursunda ciddi dəyişikliklər etməsi, Azərbaycan-Türkiyə, Azərbaycan-Pakistan, Azərbaycan-Rusiya, Azərbaycan-ABŞ tərəfdaşlığı Azərbaycanın digər dünya dövlətləri ilə münasibətlərində keyfiyyətcə yeni bir mərhələnin başlamasına təkan verdi. Sağlam təməllər üzərində qurulmuş ikitərəfli əməkdaşlıq əlaqələri bu ölkələr arasında münasibətləri inkişaf etdirdi. Hazırda Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqidir. Azərbaycan-Türkiyə münasibətləri bölgədə və dünyada sülhün bərqərar olması, təhlükəsizliyin təmin edilməsi işinə öz töhfəsini verir. Möhtərəm cənab Prezident, yüksək beynəlxalq nüfuza malik, Cənubi Qafqazın lider dövləti olan Azərbaycan Sizin apardığınız rasional və balanslaşdırılmış xarici siyasət nəticəsində BMT Baş Məclisinin plenar iclasında gizli səsvermənin nəticələrinə əsasən, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Sizin Azərbaycan Respublikasına rəhbərlik etdiyiniz dövrdə ölkəmiz qlobal informasiya məkanında mövqeyini möhkəmləndirmiş, erməni diasporunun, lobbisinin, Ermənistan dövlətinin və onun havadarlarının ölkəmizə qarşı apardığı informasiya müharibəsinə fəal müqavimət göstərmiş, hətta son dövrlərdə tam üstünlüyü ələ almışdır. Ölkəmizin beynəlxalq nüfuzunun artması isə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına əlavə imkanlar yaradır. Möhtərəm cənab Prezident, bu il sentyabrın 27-dən erməni separatçılarının Azərbaycan Ordusunu və mülki şəxsləri hədəfə alması, danışıqlar prosesini yenidən pozması qarşılığında erməni vandallarına dərs verərək, torpaqlarımızı işğaldan azad etmək qərarınız tərəfindən ruh yüksəkliyi ilə qarşılandı. Xalqımızın övladları Vətən yolunda canlarından keçməyə hazırdırlar. Şəxsən mən özüm də erməni vandalları ilə vuruşmağa hazıram. Bu uğurlu yolda hər zaman, son damla qanımıza kimi Sizin yanınızdayıq. Siz çox gözəl qeyd etdiniz ki, geriyə yol yoxdur. 30 il biz onlara şans verdik, artıq bəsdir. Sizin "Rossiya-1" telekanalına verdiyiniz müsahibədə çox sərrast və düzgün mövqe tutmağınız bütün dünyanın gözü qarşısında erməni tərəfinin haqsız olduğunu açıq-aydın göstərdi. Cənab Prezident, ölkəmizin ərazi bütövlüyünün bərpası yolunda Sizə və Ali Baş Komandanı olduğunuz şanlı Ordumuza yeni uğurlar diləyirik. Şəhidlərin qanı yerdə qalmayacaq, Milli Ordumuz Sizin komandanlığınızla onların qisasını alacaq. Yaşasın Azərbaycan! Yaşasın İlham Heydər oğlu Əliyev!".

**Qəbələ rayonundan Ayvver Nasibov:** "Hörmətli cənab Prezident, Cəbrayıl şəhərinin erməni işğalçılardan azad olunması münasibətilə Sizi və bütün Azərbaycan xalqını Udi xalqı adından ürəkdən təbrik edirəm. Arzu edirik və inanırıq ki, bütün Qarabağı azad edəcəyik. Azərbaycanda yaşayan azsaylı xalqlar və milli azlıqlar bir ailə kimi, tolerantlıq şəraitində yaşayırlar. Necə deyərlər, bir-birlərinə can deyib, can eşidirlər. Bütün dünya da bunu görür və Azərbaycanı tolerant, multikultural dəyərlərə sahib olan bir ölkə kimi tanıyır. Bircə bu bədnam qonşularımız ermənilərlə yola gedə bilmirik. Çünki, onların niyyətləri məkrlidir. Həmişə kiminsə varına, mülkünə, torpağına göz dikiblər. Belələrini torpaqlarımızdan qovub çıxarsaq yaxşıdır. Cənab Prezident, Sizə Qarabağ Qələbəsi arzulayıram".

**Qazax rayonunun sakini Söylü Xəlilova:** "Hörmətli Prezidentimiz, cənab Ali Baş Komandan, bütün xalqımız kimi, biz - Qazax rayonu Araz Əmilov adına Daş Salahlı kənd 1 saylı tam orta məktəbin kollektivi də Sizin qətiyyətli rəhbərliyinizlə rəşadətli Azərbaycan əsgərlərinin qazandığı uğurlarla fəxr edirik. Sizə sonsuz minnətdarlığımızı bildiririk. İnanırıq ki, Sizin əzmkar komandanlığınız, Azərbaycan Ordusunun dönməz iradəsi, igidliyi və şücaəti sayəsində yaxın günlərdə ən böyük qələbəyə nail olacağıq. Tanrı Sizi qorusun".

**Ağcabədi rayonundan Çingiz Hüseynov:** "Hörmətli cənab Prezident, Siz dünyanın ən savadlı, ən vətənpərvər və uzaqgörən dövlət başçısısınız. Mən Sizə bütün ağcabədililər adından təşəkkür edirəm. Düşmənin son günlər ağır artilleriya hücumuna biz ağcabədililər də məruz qalmışıq. Lakin bu, bizi qorxutmur, çünki arxamızda Sizin kimi mərd, qürurlu sərkərdə, sərhədimizdə heç nədən çəkinməyən, mətin, qəlbi Vətən eşqi ilə döyünən cəsur igidlərimiz var. Sizə cansağlığı arzu edirəm. Allah Ordumuzu qorusun. Allah Sizi və bütün türk millətini qorusun. Türkün türkdən başqa dostu yoxdur".

**Bakı şəhərinin sakini Vidadi Xəlilov:** "Xalqının məğrur, igid və əvəzolunmaz Ali Baş Komandanı, Sizin bu şücaətiniz qarşısında bütün varlığımızla ehtiramımızı bildiririk. Siz bir qəhrəmanlıq tarixi yazırsınız. Ulu öndərimiz Heydər Əliyevin və şəhidlərimizin ruhunu şad eləyirsiniz. Qələbə sevinci əsrlərboyu Azərbaycan xalqının ürəyində yaşayacaq silinməz izlər qoydu. Azərbaycan xalqına Sizin kimi parlaq bir günəş bəxş etdiyi üçün Ulu Öndərimizin yeri cənnət olsun. Biz Sizinlə öyünməyə haqlıyıq. Bütün varlığımızla Sizə bağlıyıq. Var olun. Allah Sizi düşmən fitnəsindən, bədnəzərdən qorusun".

**Naxçıvandan Şölə Süleymanova:** "Xalqının məğrur, igid və əvəzolunmaz Ali Baş Komandanı, Sizin bu şücaətiniz qarşısında bütün varlığımızla ehtiramımızı bildiririk. Siz bir qəhrəmanlıq tarixi yazırsınız. Ulu öndərimiz Heydər Əliyevin və şəhidlərimizin ruhunu şad eləyirsiniz. Qələbə sevinci əsrlərboyu Azərbaycan xalqının ürəyində yaşayacaq silinməz izlər qoydu. Azərbaycan xalqına Sizin kimi parlaq bir günəş bəxş etdiyi üçün Ulu Öndərimizin yeri cənnət olsun. Biz Sizinlə öyünməyə haqlıyıq. Bütün varlığımızla Sizə bağlıyıq. Var olun. Allah Sizi düşmən fitnəsindən, bədnəzərdən qorusun".

⇨ Davamı 8-ci səhifədə

# Hikmət Hacıyev “Sky News Arabia” televiziya kanalına müsahibə verib




Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “Sky News Arabia” televiziya kanalına müsahibə verib.

“İki sahil” AZƏRTAC-a istinadən xəbər verir ki, Prezidentin köməkçisi müsahibəsində Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasətindən bəhs edib.

Aparıcının Ermənistanın dövlət başçısının Azərbaycanı ittiham etməsi ilə bağlı sualına cavabında Hikmət Hacıyev deyib ki, onun ittihamları əsassızdır. Ermənistanın rəhbəri ölkəsinin məsuliyyətindən, Azərbaycan torpaqlarının işğalından danışmır. Ermənistan Dağlıq Qarabağı işğal edib və 30 ildir bu regionu işğalı altında saxlayır, bir milyon azərbaycanlıya qarşı etnik təmizləmə həyata keçirib, Azərbaycanda İslam irsini dağıdıb. Onlar yaşayış məskənlərimizi bombalayıblar. Otuz il onlarla danışıqlar apardıq. Amma Ermənistanın təxribatları nəticəsində danışıqlar pozulub. Niyə Ermənistan qoşunları Azərbaycanın ərazisinə soxulub?! Bütün bunlara görə Ermənistan məsuliyyət daşıyır. Biz Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından çıxarılmasını tələb edirik. Bu işğal bitən kimi danışıqlar da olacaq.

Hikmət Hacıyev bildirib ki, Dağlıq Qarabağda vaxtilə azərbaycanlılar və ermənilər birgə yaşayıblar. Ermənilər azərbaycanlıları oradan qovub çıxarıblar. İndi isə müqəddərat təyin etməkdən danışırlar. Azərbaycanlılar öz hüquqlarından məhrum ediliblər. Biz erməni əsilli vətəndaşlarımızın bütün hüquqlarını tanıyırıq. İşğal bitəndən, azərbaycanlı məcburi köçkünlər geri qayıdandan sonra onlar yenə də bir yerdə yaşayacaqlar.

Türkiyə-Azərbaycan əlaqələri ilə bağlı suala cavabında Prezidentin köməkçisi bildirib ki, iki ölkənin sıx əlaqələri var. Türkiyənin münaqişədə iştirakı ilə bağlı sözlər erməni tərəfinin uydurmasıdır. Türkiyə Azərbaycanı siyasi, diplomatik tərəfdən dəstəkləyir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. Biz bunu yüksək qiymətləndiririk. Beynəlxalq hüquq Azərbaycanın tərəfindədir. Bizim əcnəbi qüvvələrə ehtiyacımız yoxdur. Muzdluların bizim tərəfdə iştirak etməsi iddialarını rədd edirik. Belə iddiaların heç bir əsası yoxdur. Əksinə, Ermənistan Suriyadan, Livandan muzdlular gətirib onlardan istifadə edir.

# Dinc əhaliyə qarşı istifadə olunan raketlər

Ermənistan silahlı qüvvələri sentyabrın 27-si səhər saatlarından genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutur. Dinc sakinlər hədəf alınır, onların evlərinə, əmlaklarına və infrastruktura ciddi ziyan vurulur. AZƏRTAC yaşayış məntəqələrini məqsədli şəkildə hədəf alan düşmənin atdığı raketlərin bəzilərinin fotolarını təqdim edir.



# *Hikmət Hacıyev:* Ermənistanın atdığı raket BTC-nin 10 metrliyinə düşüb







**“Ermənistan Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinə kasetli raket atıb. Raket Yevlax rayonunda BTC-nin 10 metrliyinə düşüb”.**

“Report” xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “Twitter”dəki hesabında paylaşım edib.

“Ərazidə 300-dən çox kasetli bomba var. Boru kəmərinə zərər dəyməyib. ANAMA fəaliyyətdədir. Çıxılmaz vəziyyətdə qalan Ermənistan enerji infrastrukturuna hücum edir”, - H.Hacıyevin paylaşımında qeyd edilir.



*Çingiz Hüseynzadə:*

## ÇOXLU SAYDA İDMANÇI BİZƏ MÜRACİƏT EDƏRƏK DÖYÜŞƏ GETMƏK İSTƏDİYİNİ BİLDİRİB



Ermənistan silahlı qüvvələrinin dinc əhalini hədəfə alaraq yaşayış məntəqələrinə raket zərbələri endirməsi düşmənin cəbhədəki məğlubiyyətindən daha da azğınlaşmasının göstəricisidir.

“İki sahil”in məlumatına görə, bunu Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə AZƏRTAC-a məxsusi müsahibəsində deyib.

Vitse-prezident qeyd edib ki, məğlubiyyətlə barışa bilməyən Ermənistan hakimiyyəti bu təxribatlarla xarici qüvvələri münaqişəyə cəlb etmək istəyir. Ermənistanın cinayətkar əməllərinə, xalqımızda qorxu hissi yaratmağa çalışmasına baxmayaraq, Azərbaycan gündən-günə qələbəyə yaxınlaşır.

“Beynəlxalq arenada Azərbaycanın idman şərəfini qoruyan atletlərimiz bu gün cəbhədə Vətəni qoruyurlar. Hər bir azərbaycanlının Prezidenti olan Ali Baş Komandan İlham Əliyev həm də Milli Olimpiya Komitəsinin Prezidentidir. Ona görə də idmançılar ikiqat məsuliyyət hiss edirlər. Çoxlu sayda idmançı bizə müraciət edərək döyüşə getmək istədiyini bildirib. İnanın, onları zorla saxlayırıq və bildiririk ki, vaxtı gələndə onlar da hamı kimi Vətən uğrunda mübarizəyə qoşulacaqlar”, - deyə Ç.Hüseynzadə əlavə edib.

MOK-un vitse-prezidenti Azərbaycan Ordusunun qalibiyyətini ədalətin bərpası kimi qiymətləndirərək deyib: “İdman yarışlarının hakimləri olur. Onlar yarışların ədalətli keçməsini təmin edirlər. Biz münaqişənin ədalətli həllini 30 il gözlədik. Bu gün görürük ki, bu ədalət döyüş meydanında əldə olunur. Bu ədaləti Ali Baş Komandan İlham Əliyev və şanlı Azərbaycan Ordusu təmin edəcək”.

## BAŞ PROKURORLUQ MƏQALƏ MÜSABİQƏSİ ELAN EDİB



Azərbaycan Respublikası Baş Prokurorluğunun “Qanun və Hüquq” jurnalına cəmiyyətimizdə aktuallığı ilə seçilən hüquqi-ictimai məsələlər sahəsində tədqiqatların təmin olunması məqsədilə beynəlxalq humanitar hüququn tətbiqinə dair aktual məsələlər ilə bağlı məqalələrin qəbulu barədə müsabiqə elan olunub.

Bu barədə “İki sahil”ə Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Məlum olduğu kimi, beynəlxalq humanitar hüquq, xüsusən də Cenevrə Konvensiyaları və 3 protokolu mülki əhalinin müdafiəsinə yönəlib. Azərbaycan Respublikası həmin Konvensiya və onun protokollarına qoşularaq onların norma və prinsiplərinə ciddi şəkildə riayət edir.

Döyüş bölgəsi və ondan kənarda yaşayan dinc əhalinin, insanların psixoloji vəziyyətinin və əmlakının müdafiəsinə dair hüquqi mexanizmlərin inkişaf etdirilməsi, beynəlxalq humanitar hüququn cinayət, mülki və digər hüquq sahələri ilə uzlaşdırılması, onun əsas institutlarının və anlayışlarının təcrübədə tətbiq olunması mühüm əhəmiyyət kəsb edir.

Beynəlxalq humanitar hüququn prinsip və normalarının pozulması hallarına Azərbaycan Respublikasının cinayət hüququna uyğun şəkildə hüquqi qiymətin verilməsi, cinayət əməllərinin istintaq zamanı düzgün tövsif olunması, həmçinin beynəlxalq hüquqi normaların pozulması nəticəsində dəymiş ziyanla əlaqədar mülki iddiaların qaldırılması və digər mühüm məsələlərin nəzəri-elmi əsaslarının tədqiqi insan hüquqlarının müdafiəsi üçün zəruridir.

Məqalə akademik hüquqi məqalələrin dərc edilməsi üçün qoyulan tələblərə cavab verməli, redaksiya heyəti tərəfindən qiymətləndirildikdən sonra nəşr ediləcək. Məqalələr noyabrın 10-dək elnur.musayev@prosecutor.gov.az elektron ünvanına göndərilməlidir.

*Əli Əkbər Vilayəti:*

## DAĞLIQ QARABAĞ AZƏRBAYCANA QAYTARILMALIDIR



Dağlıq Qarabağ Azərbaycana qaytarılmalıdır.

“İki sahil” AZƏRTAC-a istinadən xəbər verir ki, bu sözləri İran İslam Respublikasının Ali Rəhbəri Seyid Əli Xamneyinin Beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti deyib.

O bildirib ki, BMT-nin Dağlıq Qarabağın işğaldan azad edilməsi haqqında 4 qətnaməsi var. İran da BMT-nin üzvü kimi bu qərarların yerinə yetirilməsini istəyir.

Ə.Vilayəti diqqətə çatdırıb ki, münaqişə nəticəsində 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkün düşüb. Dağlıq Qarabağ azad edildikdən sonra onlar öz doğma yurdlarına qayıtmalıdırlar.

*Ukraynanın Sumı Vilayət Deputatlar Şurasının sədri Prezidentə məktubunda yazır:*

## Azərbaycan ərazi bütövlüyü uğrunda ədalətli mübarizə aparır

Bu gün Azərbaycan ərazi bütövlüyü uğrunda ədalətli mübarizə aparır.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bu fikir Ukraynanın Sumı Vilayət Deputatlar Şurasının sədri Vladimir Tokarın Prezident İlham Əliyevə məktubunda yer alıb.

Məktubda deyilir: "Hörmətli cənab Prezident, Ukrayna ilə Azərbaycan arasında daim dost və tərəfdaşlıq münasibətləri olub. Azərbaycan dost bir ölkə kimi Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü dəstəklədi və dəstəkləməyə davam edir. Odur ki, bu gün Azərbaycan ərazi bütövlüyü üçün ədalətli bir mübarizə apararkən, şəxsən mən uzun müddət Bakıda və ölkənin digər şəhərlərində yaşamış bir insan kimi Sizi və bütün Azərbaycan xalqını dəstəkləyirəm. Axı, Dağlıq Qarabağ beynəlxalq səviyyədə Azərbaycanın bir hissəsi kimi tanınıb. Sumı Vilayət Deputatlar Şurasının sədri, həmçinin bir siyasətçi kimi hesab edirəm ki, Azərbaycanla Ermənistan arasında münaqişə sülh yolu ilə həll olmalıdır. Ermənistanın beynəlxalq hüququ, sülh danışıqlarını açıq şəkildə pozan və insan tələfatı ilə nəticələnən hücumlarını qınayıram. Sülhsevər Azərbaycan və Ukrayna xalqlarına bu çətin lokal münaqişələrdən ən qısa zamanda xilas olmağı və ölkələrində sülhü və sabitliyi bərpa etməyi arzulayıram".

*Seneqal vətəndaşı Azərbaycan Prezidentinə yazır:*

## Biz Seneqaldan Sizinlə tam həmrəyliyimizi, yanınızda olduğumuzu bəyan edirik

Biz Seneqaldan Sizinlə tam həmrəyliyimizi, yanınızda olduğumuzu bəyan edirik.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bu fikir Seneqalın "Xalq uğrunda Birlik" partiyasının sədri, xüsusi işlər üzrə səfir, Seneqal Prezidentinin xüsusi işlər üzrə müşaviri, Əl-Mədinə təbliğat qrupunun sədri və baş müdiri Şeyx Məhəmməd Əl-Mənsur Ənyasın Azərbaycan Prezidenti İlham Əliyevə məktubunda yer alıb. Məktubda deyilir: "Zati-aliləri cənab İlham Əliyev, möhtərəm cənabınıza Allahın salamı olsun. Ermənistan tərəfindən Azərbaycan torpaqlarında törədilən açıq-aşkar cinayətlərlə müşayiət olunan son xəbərləri böyük təəssüf və ürək ağrısı ilə izlədik. Harada olmağımızdan asılı olmayaraq, var qüvvəmizlə Sizin - qardaşlarımızın yanında olmaq, ölkənizə qarşı müharibədə haqlarınızı və torpaqlarınızı qoruyarkən Sizə dəstək vermək bizim müsəlmanlıq borcumuzdur. "Əgər Allah sizə yardım edərsə, heç kəs sizə qalib gələ bilməz" (Quran, Al İmran, 160). Şükürlər olsun Allaha, bu gün Siz Vətəninizi müdafiə etməklə özünüzü iki xoş əməldən biri qarşısında qoymusunuz: zəfər və ya da şəhadət. Ağlı başında, bəsirətli insanlar Sizin mövqeyinizin ədalətli olduğunu, müdrik addımlarınızı, səbrinizi və sülh məramınızı görürlər. Biz Seneqaldan Sizinlə tam həmrəyliyimizi, yanınızda olduğumuzu bəyan edir, Allahın düşmənlərinizə qarşı Sizə kömək olması, gücünüzü artırması, bütün müsəlmanların izzəti və fəxri olaraq qalmağınız üçün dua edirik. Qələbəyə yaxın olduğunuzu bəyan edərək Sizə "Davam edin, Allah sizinlədir!" deyirəm. Bəyan edirik ki, Siz istədiyiniz vaxt yanınıza gələrək ölkənizi qorumaq, zəfərinizi yaxınlaşdırmaq üçün müharibəyə qatılmağa hazırıq. Allahın nəzərləri üzərinizdə olsun! Bir daha Sizinlə həmrəy olduğumuzu və Sizi dəstəklədiyimizi bəyan edərək, Allahdan Sizə zəfər, təhlükəsizlik və əmin-amanlıq bəxş etməsini diləyirik".

VƏTƏNDAŞLAR YAZIRLAR:

# Cənab Prezident, Sizin qətiyyətiniz hər bir Azərbaycan vətəndaşında qürur hissi doğurur



⇨ Əvvəli 6-cı səhifədə

**Sumqayıt şəhərindən Əvəz Həsənov:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə ordumuzun apardığı uğurlu əməliyyatlar nəticəsində torpaqlarımızın müəyyən bir hissəsi işğaldan azad olunub. Bu münasibətlə Sizi və xalqımızı təbrik edirik. Hörmətli cənab Prezident, biz Sizinlə fəxr edirik. İnanırıq ki, rəşadətli ordumuz Sizin rəhbərliyinizlə tezliklə bütün torpaqlarımızı işğaldan azad edəcək. Hörmətli cənab Prezident, Qubadlı rayonundan olan məcburi köçkünlər Sizin xarici və daxili siyasətinizi dəstəkləyir, ətrafınızda sıx birləşir. Xalqımızın rifahı naminə gördüyünüz bütün işlərdə Sizə yeni uğurlar arzulayırıq. Ulu Tanrı Sizi və ailənizi qorusun".

**Oğuz rayonundan İlqar Çələbiyev:** "Möhtərəm cənab Prezident, bütün Azərbaycan xalqı kimi, mən də Sizinlə fəxr edirəm. Allah Sizə uzun ömür, cansağlığı versin. Sizin apardığınız uğurlu daxili və xarici siyasəti bəyənir və dəstəkləyirik. Siz bizim qürur mənbəyimizsiniz. Azərbaycan Ordusunun nail olduğu qələbələri bizlərə çatdıran zaman, gözlərinizdəki o sevinci görmək bizin üçün əvəzolunmaz bir duyğudur. Allah Sizin gözlərinizdən o sevinci heç zaman əksik etməsin. Mən və ailəm Sizə bu haqq yolunda yeni böyük uğurlar arzu edirik".

**Bakı sakini Sevda Həşimova:** "Hörmətli cənab Prezident, Sizin rəhbərliyinizlə qüdrətli ordumuzun qəhrəmanlığı ilə son günlər işğal altında olan doğma torpaqlarımızın bir hissəsinin mənfur düşməndən azad edilməsi xəbərləri bizdə qürur hissi yaradır. Buna görə Sizə minnətdarıq və bu haqq yolunda bütün Azərbaycan xalqı Sizin arxanızdadır. İnanırıq ki, çox tezliklə Sizdən Şuşanın azad olunması xəbərini eşidəcəyik. Sizə və bütün xalqımıza Qələbə əzmi yaşamağı arzu edirəm. Allah Sizi və ailənizi qorusun. Var olun, cənab Ali Baş Komandan!".

**Şəmkirdən İlkin Musayev:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin Rusiya Federasiyasının Soçi şəhərində keçirilən Valday forumunda səsləndirdiyiniz "Qarabağ Azərbaycandır!" kəlməsi bu gün bir daha müzəffər Ordumuz tərəfindən öz təsdiqini tapmaqdadır. İşğal olunmuş ərazilərimizin erməni quldurlarından ard-arda təmizlənməsi Sizin məqsədyönlü və uzaqgörən siyasətinizin nəticəsidir. Cənab Ali Baş Komandan, Sizi əmin etmək istəyirəm ki, biz şəmkirli gənclər Ordumuzun qələbələrindən ruhlanaraq, hər an döyüşə hazırıq. Yaşasın Müstəqil Azərbaycan! Yaşasın cənab Ali Baş Komandan!".

**Füzulidən Məhərrəm Orucovun məktubunda deyilir:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan, uzun illərdir ki, erməni qəsbkarlarının torpaqlarımızı işğal altında saxlaması xalqımızın, eləcə də Azərbaycan hökumətinin səbir kasasını doldurmuşdur. Son günlər işğal altında olan ərazilərimizin geri qaytarılması və beləliklə, ərazi bütövlüyümüzün bərpa olunması istiqamətində apardığınız daxili və xarici siyasəti dəstəkləyir və alqışlayıram. Hər an qələbə müjdəsi gözləyirəm. Bu gün, demək olar ki, siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir kəs Sizin ətrafınızda sıx birləşib. Seçdiyiniz yol haqq yoludur. Ən qısa zamanda Qarabağın azad olunması xəbərini gözləyirik. Siz xalqımızın qürur mənbəyisiniz. Allah Sizi qorusun".

Gəncə şəhərindən Səbinə Əlizadə: "Əziz Prezidentim cənab İlham Əliyev, Sizi və müzəffər ordumuzu zəfərlər münasibətilə təbrik edir, bununla bağlı çox böyük minnətdarlığımı çatdırıram. Eşitdiyim hər zəfər xəbəri, inanın ki, məni sanki, göylərə qaldırır. Suqovuşanın qayıdışı, Cəbrayılın 27 illik həsrətinin sonu gələcək uğurlarımızın müjdəçisidir. Tarix hər zaman igidlər və ərənlər yetişdirir. Hansı igidlər ki, onlar, sözün əsl mənasında, tarix yazırlar. Siz, əziz Prezidentim, bu gün Türkün şanlı tarixini yazırsınız. Qoy, Tanrı Sizi və səngərdə olan igidlərimizi qorusun. Qafqazın incisi Qarabağımıza qayıdışa doğru, İnşallah. Biz Sizə və aslan ürəkli igidlərimizə güvənirik və inanırıq. Tanrı Sizləri qorusun".

**Zaqataladan Səfər Ramazanov:** "Hörmətli cənab Prezident, Azərbaycan xalqı qəhrəman xalqdır. Xalqımız Sizin kimi vətənpərvər övladlar yetişdirib. Sizin qətiyyətiniz hər bir Azərbaycan vətəndaşında qürur hissi doğurur. Bu gün hər birimiz torpağımızın bütövlüyü uğrunda canımızdan belə keçməyə hazırıq. İnanırıq ki, qəhrəman Azərbaycan Ordusu zəfər çalacaq, üçrəngli bayrağımızı doğma Qarabağımızda dalğalandıracaq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

**Göyçaydan Orxan Aslanov:** "Möhtərəm cənab Prezident, torpaqlarımızın geri qaytarılması üçün apardığınız uğurlu siyasətə görə Sizə Göyçay gəncləri adından böyük minnətdarlığımı bildirirəm. Cənab Prezident, bir neçə gündür ki, işğal altında olan torpaqlarımızın azad edilməsi xəbərini alır və qürur hissi keçiririk. Ümid edirik ki, şanlı ordumuz mənfur düşmən üzərində qələbə çalacaq və işğal olunmuş torpaqlarımız geri qaytarılacaq. Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan Ordusu!".

**Cəbrayıl sakini Səbuhi Hüseynov:** "Hörmətli cənab Prezident, Sizə Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin çoxsaylı üzvləri və Cəbrayıl rayon sakinləri adından dərin minnətdarlığımızı bildirir və təbriklərimizi çatdırırıq. Sizin rəhbərliyinizlə Azərbaycanın ərazi bütövlüyü, sözün əsl mənasında, qorunur və torpaqlarımız düşmən tapdağından azad olunur. Məhz bu münasibətlə Siz başda olmaqla, bütün əsgər və zabitlərimizə cansağlığı, möhkəm iradə və xalqımıza qələbə sevinci bəxş edəcək bir yürüş, qalibiyyət arzulayırıq. Fəxr edirik ki, Sizin kimi dövlət başçımız var və gələcəyimiz etibarlı əllərdədir. Bir daha Sizi Vətən uğrunda canını və sağlamlığını qurban verən müharibə əlilləri adından təbrik edirik. İnşallah, Sizinlə Cəbrayılda görüşüb, ayağınız altında qurban kəsərik. Tanrı Sizi qorusun".

**Şamaxıdan Əlixan Babayev:** "Möhtərəm cənab Prezident, ordumuzun Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını uğurla alması, düşmənə sarsıdıcı zərbələr endirməklə qazandığı qələbələr xalqımız tərəfindən böyük sevinc və ruh yüksəkliyi ilə qarşılanır. Azərbaycan Ordusuna torpaqlarımızın azad olunması barədə əmr verdiyinizə görə Sizə təşəkkür edirəm. İnanırıq ki, Sizin rəhbərliyiniz altında tezliklə Azərbaycan Ordusu üçrəngli bayrağımızı doğma Qarabağımızın hər bir guşəsində dalğalandıracaq. Allah Sizi və xalqımızı qorusun!".

# "Prezidentimizin Cəbrayıl şəhərinin və kəndlərinin işğaldan azad olunduğunu elan etməsi bizi sevinc göz yaşlarına bürüdü"

*AZƏRTAC Cocuq Mərcanlıdan xəbər verir*





Cocuq mərcanlılılar şanlı Azərbaycan Ordusunun zəfər xəbərlərini 4 il əvvəl qayıtdıqları doğma torpaqlarında böyük sevinclə qarşılayırlar. Cəbrayıl şəhərinin və rayonun kəndlərinin azad olunması bu sevinci daha da artırıb.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, rəşadətli Azərbaycan Ordusu qarşısında aciz qalan erməni faşistləri Cocuq Mərcanlını da ağır artilleriyadan atəşə tutub. Lakin kənd sakinləri düşmənin bu təxribatından qorxmurlar və kənddə hər kəs öz gündəlik işi ilə məşğuldur. Hazırda düşmənin dinc sakinləri hədəf alması nəticəsində mülki obyektlərə dəyən zərər hesablanır, infrastruktur bərpa olunur.

Erməni təxribatı nəticəsində sentyabrın 27-dən başlayan döyüşlər zamanı Cocuq Mərcanlının da hədəf alındığını bildirən kənd sakini Mətləb Həziyev deyib ki, bu təxribat nəticəsində evlərə və infrastruktura ciddi ziyan dəyib: "Düşmənin təxribatının məqsədi aydındır. Onlar dinc sakinləri qorxudaraq, bizi buradan çıxarmaq istəyirdilər. Lakin bu niyyətləri qursaqlarında qaldı. Heç kim öz evini tərk etmədi. Şanlı Azərbaycan Ordusu onlara elə zərbə vurur ki, bir də çətin özlərinə gələ bilələr. Prezidentimizin Cəbrayıl şəhərinin və kəndlərinin işğaldan azad olunduğunu elan etməsi bizi sevinc göz yaşlarına bürüdü".

Söhbət etdiyimiz kənd sakini Vasif Quliyev də hər kəsin əhval-ruhiyyəsinin yüksək olduğunu deyib. "Torpaqlarımızın işğaldan azad edilməsi bizim üçün ən böyük hədiyyədir. İnanırıq ki, lap yaxın vaxtlarda bayrağımız Şuşada, Laçında, Kəlbəcərdə dalğalanacaq", - deyə o ələvə edib.

"Müharibə başlayandan biz öz kəndimizdəyik, erməni faşistləri bizim kəndi də hədəf aldı, amma niyyətləri həyata keçmədi", - deyən kənd sakini Zamin Həziyevin sözlərinə görə, Aprel döyüşlərində Lələtəpə azad edildikdən sonra Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə yenidən qurulan Cocuq Mərcanlı düşmənə göz dağı idi: "Ona görə də, onlar bu kəndi hədəf almışdılar. Raket atsalar da, torpağımızdan çıxmadıq. Əsgərlərimiz onların payını artıqlaması ilə verdilər. Hər bir Cocuq Mərcanlı sakini əsgərlərimizin bu uğurlarına sevinir və ordumuzla bərabərdir".

Kəndin tarix müəllimi İsmət Həziyev isə Cəbrayıl şəhərinin və kəndlərin azad edilməsinin sakinlərdə yaratdığı ruh yüksəkliyindən danışıb. "Biz öz doğma torpaqlarımızdayıq. Bu gün Cocuq Mərcanlının hər bir sakinində qələbə əzmi, döyüş ovqatı və böyük ruh yüksəkliyi var. Düşmən bizə qarşı bir çox təxribatlar törətsə də, niyyətləri gəçəkləşmədi. Ordumuz onların cavabını layiqincə verdi. O gün olsun ki, ən qısa vaxtda Böyük Qələbəmizi qeyd edək, - deyə o bildirib.

# Prezidentin köməkçisi Pakistanın "GEO TV" kanalına müsahibəsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən danışıb

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Pakistanın "GEO TV" kanalına müsahibə verib.**




"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Prezidentin köməkçisi müsahibəsində Ermənistanın Azərbaycana qarşı son hərbi təxribatları, mülki insanlarımızın, obyektlərimizin artilleriya və raket atəşinə məruz qalması, Azərbaycan dövlətinin özünün suveren ərazisini müdafiə etməsi barədə danışıb.

Qardaş Pakistan xalqına ən xoş arzularını çatdıran Hikmət Hacıyev 1990-cı illərin əvvəllərində Ermənistan-Azərbaycan münaqişəsinin başladığı vaxtda Pakistan İslam Respublikasının Azərbaycanı dəstəklədiyini bildirib. Qeyd edib ki, Ermənistan Azərbaycana qarşı təcavüz siyasəti və günahsız Azərbaycan vətəndaşlarına qarşı soyqırımı, etnik təmizləmə siyasəti həyata keçirdiyi üçün Pakistanın bu dövlətlə heç bir diplomatik əlaqəsi yoxdur. Sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı növbəti təxribatı baş verdikdə, Pakistan Azərbaycan xalqının öz ərazi bütövlüyünü və vətəndaşlarının təhlükəsizliyini təmin etməklə bağlı haqq işini dəstəkləyən ilk dövlətlərdən biri oldu.

Hikmət Hacıyev Ermənistanın Azərbaycanın mülki əhalisini qətlə yetirmək və mülki infrastruktura maksimum ziyan vurmaq məqsədilə qəsdən genişmiqyaslı hücuma başladığını və buna görə də Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın hərbi təcavüzünü dəf etmək və işğal altındakı torpaqlarımızı azad etmək, eləcə də vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək məqsədilə əks-hücum tədbirləri görməyə məcbur olduğunu deyib. Silahlı Qüvvələrimiz bir sıra irəliləyişlər əldə edərək Ermənistan ordusunun müəyyən ərazilərdən geri çəkilməsinə nail oldu. Ancaq çətin vəziyyətə düşən Ermənistanın siyasi-hərbi rəhbərliyi Azərbaycanın böyük şəhərlərinə və sivil infrastrukturlarına qarşı raket hücumları həyata keçirməyə başladı. Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə "Smerç" raketlərindən atəşə tutuldu. Bu, qəsdən törədilmiş bir hücumdur. Bundan başqa, ermənilər Ermənistan ərazisindən Azərbaycanın digər böyük şəhəri olan Mingəçevirə raket zərbəsi endirməklə növbəti təxribata əl atdılar. Ermənilər təmas xətti boyunca da Azərbaycanın kəndlərini və şəhərlərini atəşə tuturlar.

Prezidentin köməkçisi Azərbaycanın Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək məqsədilə artıq 30 ildir ki, danışıqlar apardığını bildirib. O qeyd edib ki, Ermənistanın yürütdüyü təcavüzkarlıq və işğala əsaslanan status-kvonu qoruyub saxlamaq siyasəti ucbatından danışıqlar prosesində heç bir irəliləyiş əldə olunmayıb. Ermənilər hər vasitə ilə danışıqlar prosesini pozmağa çalışırlar. Xüsusilə də Ermənistanın baş nazirinin qeyri-konstruktiv, populist və demaqoq yanaşması danışıqlar prosesinə ciddi xələl gətirir. Bunun nəticəsində isə vəziyyətin kəskinləşdiyini görürük. Bu arada, biz beynəlxalq vasitəçilik missiyasının yetərli olmadığını və danışıqların imitasiyası ilə məşğul olunduğunu, danışıqların, sadəcə olaraq, danışıqlar aparılması naminə uzadılmasının şahidi olduq.

Prezidentin köməkçisi Hikmət Hacıyev müsahibəsində, həmçinin Pakistan İslam Respublikasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyinə göstərdiyi dəstəyə görə minnətdarlığını bildirib.

# Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi dünyanın bütün Konstitusiya məhkəmələrinə bəyanatla müraciət edib

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransı, Avropa Konstitusiya Məhkəmələrinin Konfransı, habelə Asiya Konstitusiya Məhkəmələri və Ekvivalent İnstitutlar Assosiasiyası təşkilatları çərçivəsində dünyanın bütün Konstitusiya məhkəmələrinə bəyanatla müraciət edib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən "İki sahil"ə bildiriblər ki, bəyanatda son zamanlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarının mütəmadi xarakter aldığı vurğulanıb. Qeyd edilib ki, bu təxribatlar nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən uzaqda yerləşən şəhərlərinin ağır artilleriya atəşinə məruz qalması həm hərbi, həm də mülki əhali arasında itkilərə səbəb olub. Bu hərəkətlər təcavüzkar Ermənistan hakimiyyətinin 1988-ci ildə başlayan, Azərbaycan ərazisinin işğal edilməsinə yönələn və azərbaycanlıların etnik təmizlənməsi ilə müşayiət olunan siyasətinin davamıdır.

Bəyanatda, həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ətraf yeddi rayonunun Ermənistan ordusu tərəfindən işğal olunması, bu işğal nəticəsində bir çox şəhər və kəndlərin tamamilə dağıdılması, yerli əhalinin isə etnik təmizləməyə məruz qalması diqqətə çatdırılıb. Qeyd olunub ki, Ermənistanın təcavüzü nəticəsində bir milyona yaxın azərbaycanlı öz yaşayış yerlərindən məcburi çıxarılıb. Təkcə Xocalıda baş verən və yalnız Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş dəhşətli cinayət əməli nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib. Onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. Bundan başqa, 1275 nəfər girov götürülüb, onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi naməlumdur.




Konstitusiya məhkəmələrinin diqqətinə çatdırılıb ki, BMT, Avropa Şurası, ATƏT, Avropa İttifaqı və digər beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələrdə Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu açıq şəkildə təsdiq edilir. Azərbaycanın işğal olunmuş ərazilərindən erməni qoşunlarının dərhal çıxarılmasına dair BMT Təhlükəsizlik Şurası 1993-cü ildə 4 qətnamə (882, 853, 874, 884) qəbul edib. Lakin həmin qətnamələr Ermənistan tərəfindən hələ də icra olunmayıb.

Həmçinin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Çıraqov və başqaları Ermənistana qarşı 2015-ci il 16 iyun tarixli qərarında Dağlıq Qarabağdakı proseslərin Ermənistanın nəzarəti altında həyata keçirildiyi Strasburq Məhkəməsi tərəfindən qeyd edilib.

Bəyanatda, həmçinin vurğulanıb ki, sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək dövlətimizin hərbi mövqelərini, eyni zamanda, yaşayış məntəqələrini atəşə tutub. Ermənistan hökumətinin ATƏT-in Minsk qrupu çərçivəsində konstruktiv danışıqlardan hər şəkildə boyun qaçırmasını nəzərə alaraq, Azərbaycan hökuməti beynəlxalq səviyyədə tanınmış dövlət sərhədləri daxilində ölkənin ərazi bütövlüyünü bərpa etmək, habelə vətəndaşlarının təhlükəsizliyini, sülh və sabitliyi təmin etmək üçün beynəlxalq hüquqa əsaslanaraq Ermənistanın silahlı qüvvələrinə qarşı hərbi əməliyyata başlamağa məcbur olub.

Xüsusilə qeyd edilib ki, Azərbaycan Silahlı Qüvvələrinin hərbi əməliyyatları mülki əhali və mülki infrastruktura qarşı yönəlməyib. Həyata keçirilən əməliyyatlarda beynəlxalq humanitar hüququn prinsiplərinə və Cenevrə Konvensiyasından irəli gələn öhdəliklərə əməl olunur.

Bəyanatın sonunda Azərbaycan hökumətinin qanuni və məcburi hərəkətlərinin ölkəmizin işğal olunmuş ərazilərində dövlətimizin yurisdiksiyasının bərpası, qaçqınların öz evlərinə qayıtması və beynəlxalq hüququn bərqərar olunması ilə nəticələnəcəyi əminliklə qeyd edilib.

# Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan xalqı qəhrəmanlıq tarixinin yeni parlaq səhifələrini yazır



Zaman hadisələrin düzgün dəyərləndirilməsi, atılan addımların mahiyyətinin təhlili, perspektivlərin müəyyənləşdirilməsi baxımından hakimlik rolu ilə dəstək missiyasını yerinə yetirir. Otuz ilə yaxındır beynəlxalq problemə çevrildiyi üçün nizamlanma prosesi uzanan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində sülh danışıqları səmərə vermədiyi təqdirdə hərb yolunu seçəcəyini dəfələrlə bəyan edən Azərbaycan bugünkü addımları ilə səbrinin tükəndiyini, artıq kağız üzərində qalan bəyanatlara inanmaq zamanının çoxdan bitdiyini yəqinləşdirərək sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin müxtəlif istiqamətlərdə hücumlarının qarşısını əks-həmlə əməliyyatlarına keçməklə almağa çalışdı. Düşmən belə zərbələrlə rastlaşacağını düşünmürdü. Hər dəfə törədilən təxribatların qarşısı qətiyyətlə alınsa da ermənilər bundan dərs almayaraq, növbəti dəfə hücuma keçirdilər. Amma bu dəfə fərqli oldu.

**Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadə bildirib.**

Azərbaycan Ordusu böyük şücaət göstərərək hərbi əməliyyatların davam etdiyi qısa müddətdə bir sıra yaşayış məntəqələrimizi, strateji yüksəklikləri, o cümlədən Cəbrayıl şəhərini və rayonun xeyli sayda kəndlərini işğaldan azad etdi. Bu qələbələrimizin davamlı olacağı, bütün torpaqlarımızın azad ediləcəyi artıq heç kəsdə şübhə doğurmur. Azərbaycan əsgərinin döyüş ruhu, Vətən sevgisi, torpaq həsrəti onun inamla irəliləməsini, üçrəngli bayrağımızın azad olunacaq torpaqlarımıza sancmaq istəyini şərtləndirir.

Ordumuzda bu rəşadət, şücaət, qələbə əzmi son 17 ildə və möhtərəm Prezidentimizin həyata keçirdiyi uğurlu siyasətin məntiqi nəticəsidir. Azərbaycan Silahlı Qüvvələri hər zaman cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin qərarını gözləyirdilər. 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda keçirilən təntənəli hərbi paradda ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev bildirmişdir: "2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi uğura aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!"

Azərbaycan bu gün Prezident İlham Əliyevin qətiyyəti, yenilməz siyasi iradəsi, ordumuzun şücaəti sayəsində qəhrəmanlıq tariximizin yeni şanlı səhifələrini yazır. Cəbhə bölgələrindən biri-birinin ardınca gələn xoş xəbərlər, əldə olunan qələbələr harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlıları ruhlandırır, Prezident-xalq-ordu birliyini, həmrəyliyini daha da möhkəmləndirir. Azərbaycan Ordusunun bugünkü uğurlarının, qüdrətinin, rəşadətinin bünövrəsi məhz müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı bütün sahələrdə, o cümlədən ordu quruculuğu istiqamətində mövcud pərakəndəliyin, özbaşınalığın aradan qaldırılmasına geniş imkanlar açdı. Ulu Öndərin gördüyü məqsədyönlü tədbirlər nizami ordunun formalaşmasını təmin etməklə yanaşı, ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə də gətirib çıxardı. 1994-cü il mayın 12-də cəbhə xəttində atəşkəsin əldə olunması Azərbaycanın sülh siyasətinə önəm verdiyini dünyaya sübut etməklə yanaşı, bütün sahələrdə uğurlu addımlara yol açdı. Ordumuzun maddi-texniki bazası möhkəmləndi, Azərbaycan gəncliyinin böyük ruh yüksəkliyi ilə orduya çağırışı və bunun yüksək səviyyədə cavablandırılması təmin olundu, fərarilik hallarının qarşısı alındı, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik tərbiyəsi gündəlik işimizə çevrildi. Bir sözlə, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dövlət-ordu birliyinin, həmrəyliyinin yaradılması istiqamətində mühüm uğurlara imza atıldı. Müharibə şəraitində yaşayan ölkə üçün güclü ordunun mövcudluğunun əsas şərt olduğunu önə çəkən ulu öndər Heydər Əliyev mütəmadi şəkildə səngərlərdə olaraq əsgər və zabitlərlə şəxsən görüşür, ölkənin müdafiə qüdrəti və hərbi potensialı ilə yaxından tanış olurdu. Məhz bu birlik fonunda, eyni zamanda, ulu öndər Heydər Əliyevin qətiyyətinin nəticəsində 1994-cü il yanvarın 5-dən 6-na keçən gecə Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan Horadiz əməliyyatı baş tutdu.

Məhz həmin gün Azərbaycan Silahlı Qüvvələrinin güclü əks-hücumu nəticəsində Füzuli rayonunun 22 yaşayış məntəqəsi, cümlədən Horadiz şəhəri erməni silahlı qüvvələrindən azad edildi.

Bütün bunlar onu deməyə əsas verir ki, bu gün Azərbaycan Ordusunun möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, yenilməz iradəsi əsasında qəhrəmanlıq tarixini yazması möhkəm təmələ əsaslanır. 30 ilə yaxın müddətdə münaqişənin sülh yolu ilə həlli istiqamətində məqsədyönlü addımlar atan, tarixi faktlar, real həqiqətlər əsasında Dağlıq Qarabağ probleminin əsl mahiyyətini dünya ictimaiyyətinə çatdıran möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycan Ordusunun Cəbrayıl şəhərini və Cəbrayıl rayonunun doqquz kəndini işğaldan azad etməsi münasibətilə xalqa müraciətində bəyan etmişdir: "Biz istəyirdik ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun, səbir göstərirdik. Danışıqlarda həmişə ədalətli mövqedə olmuşuq, bizə mənsub olanı istəmişik. Başqasının torpağında heç vaxt gözümüz olmayıb. Amma demişik ki, bu bizimdir, xalqımızındır, millətimizindir, bizə qayıtmalıdır, danışıqlar yolu ilə qayıtmalıdır. Amma bu danışıqlar faktiki olaraq münaqişənin dondurulmasına gətirib çıxarmışdır. Yəni, buna hesablanmışdır. Otuz il ərzində danışıqlar gedə bilərmi?! Otuz il ərzində Azərbaycan xalqını belə vəziyyətdə saxlamaq olarmı?! Otuz il ərzində biz ümidlə yaşayırdıq ki, beynəlxalq birlik bu məsələni həll edəcək. Bu məsələnin həlli ilə məşğul olan ölkələr, beynəlxalq təşkilatlar öz sözünü deyəcək. Dünyanın ən ali beynəlxalq orqanı - BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin yerinə yetirilməsi üçün səy göstərəcək. Bu qətnamələr 27 ildir kağız üzərindədir".

Ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, münaqişənin həlli üçün möhkəm hüquqi baza mövcuddur. Amma qəbul olunan qərar və qətnamələr icra edilmir, işğalçı dövlət beynəlxalq hüququn norma və prinsiplərinə məhəl qoymur. Belə olan təqdirdə münaqişənin danışıqlar yolu ilə həllini gözləməyə ehtiyac varmı? Ermənistan açıq-aşkar danışıqların uzanmasında, yeni müharibə planlarının həyata keçirilməsində maraqlı olduğunu nümayiş etdirir. Amma dünya yenə də əvvəlki ənənəsinə uyğun olaraq seyrçi mövqedə dayanır. Əgər 30 ilə yaxın müddətdə, necə deyərlər, evin ərköyün uşağına çevrilən Ermənistan hələ 30 il bundan sonra da bu diqqət və qayğı ilə əhatə olunacaqsa, imitasiya naminə danışıqların aparılmasına ehtiyac varmı? Münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədrləri vəzifələrini regiona nəticəsiz səfərlərdə görür, əsas məsuliyyəti tərəflərin özlərinin üzərinə qoyur.

Yazının əvvəlində də qeyd etdiyimiz kimi, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq problemə çevrilməsi onun həlli prosesinin uzanmasına səbəb oldu. Ümummilli lider Heydər Əliyev bildirirdi ki, münaqişə tərəflərin özünə qalsaydı, öz aralarında daha asan, ədalət prinsipi əsasında çözülməsi mümkün idi. Amma beynəlxalq problemə çevrilməsi, hər bir dövlətin münaqişənin həlli prosesinə öz maraqlarından yanaşması nizamlanma prosesinə mənfi təsir göstərir. Bu gün diqqət yetirsək həmsədr dövlətlərin neytrallığı qorumadığını, birtərəfliliyə meyil göstərərək işğalçı Ermənistanı dəstəklədiklərini görərik. Dövlətimizin başçısı İlham Əliyev "Əl-Ərəbiyə" televiziya kanalına müsahibəsində bildirmişdir ki, ATƏT-in Minsk qrupunun nümayəndələri ilə son illər ərzində təmaslarımda bizim fikir mübadiləsi aparmaq imkanımız oldu və nə mən, nə də onlar danışıqların irəli aparılması üçün heyin edilməsinin mümkün olduğunu bilmirdik: "Çünki bildiyiniz kimi, danışıqlar prinsipləri və danışıqlar formatı müəyyən olunmuşdur. Bu, Azərbaycan tərəfindən birtərəfli qaydada müəyyən olunmamışdır. Bu, vasitəçilər tərəfindən təklif olunmuşdur və iki ölkə - Azərbaycan və Ermənistan tərəfindən qəbul olunmuşdur. Danışıqların formatı Azərbaycan və Ermənistandır, bu, iki ölkə arasında münaqişədir. Ermənistanın baş naziri bu formatın qəbuledilməz olduğunu və Azərbaycanın Ermənistanın özü də daxil olmaqla heç bir dünya ölkəsinin tanımadığı qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparılmalı olduğunu dedi. Bu, danışıqları pozmaq üçün qəsdən edilmiş bir hərəkət idi, çünki o, bilirdi ki, nə biz, nə də vasitəçilər bunu qəbul etməyəcək. Vasitəçilər - Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa bunu rədd etdilər. Sonra o dedi ki, "Qarabağ Ermənistandır". Bunu onun sələflərindən heç biri əvvəllər deməmişdi. Onların heç biri. Çünki bu, danışıqların sonu deməkdir".

Ermənistanın son təxribatları açıq-aşkar müharibədə maraqlı olduğunu təsdiqlədi. Amma dünya susmaqla hadisələrin daha da dərinləşməsinə rəvac verdi. "Biz nə etməli idik" sualına cavab olaraq dövlətimizin başçısı cənab İlham Əliyev bildirir ki, biz özümüzü müdafiə etməli idik. Biz məhz bunu etdik və ərazi bütövlüyümüz bərpa olunanadək biz bunu edəcəyik. Təcavüzkar daha da azğınlaşıb. Onun tamahı daha da böyüyüb, bizim dədə-baba torpağımıza göz dikib. Nəticədə işğal edilmiş bütün torpaqları qondarma "Dağlıq Qarabağ respublikası"na aid edib, yeni xəritələr dərc edib və bu xəritələrdə işğal edilmiş bütün ərazilər Dağlıq Qarabağ kimi təqdim edilir.

Rəsmi Bakı ən yüksək tribunalardan bəyan edir ki, bir qarış torpağımızı belə düşmənə verməyəcəyik. Bu gün cəbhə bölgəsində Azərbaycan Ordusunun şücaəti bunu bir daha təsdiqləyir. Neçə-neçə yaşayış məntəqələrimizin, strateji yüksəkliklərimizin işğaldan azad edilməsi, eyni zamanda, 27 ildir işğaldan azad olunması üçün ədalətli mövqe gözləyən Cəbrayıl şəhərinin və rayonun xeyli sayda kəndinin azad edilməsi Azərbaycan dövlətinin, Prezidentimiz İlham Əliyevin qətiyyətini, yenilməz siyasi iradəsini, Dağlıq Qarabağ probleminin həllində dəyişməz mövqeyini bir daha təsdiqlədi.

Yazının əvvəlində Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə hərbi paradda dövlətimizin başçısı İlham Əliyevin böyük əminliklə söylədiyi fikirləri səbəbsiz yerə xatırlamadıq. Bu gün həmin istəklər, arzular reallaşır, xalqımızın torpaq həsrətinə son qoyulur.

Yaxın günlərdə Azərbaycan dövlət müstəqilliyinin yenidən bərpa olunmasının 29-cu ildönümünü qeyd edəcək. Bu tarixi günü torpaqlarımızın tamamilə işğaldan azad olunacağı sevinci ilə qeyd edəcəyimiz artıq heç kəsdə şübhə doğurmur. Azərbaycan möhkəm nizam-intizamı, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan ordusu ilə fəxr edir.

Prezident İlham Əliyev dəfələrlə çıxışlarında bəyan edib ki, erməni işğalının və müharibə vəziyyətinin davam etdiyini nəzərə alaraq bizim qarşımızda duran əsas vəzifə hərbi kadrların peşəkarlıq səviyyəsini artırmaq, ölkənin müdafiə potensialını möhkəmləndirmək, ordumuzun gücünü və hərbi qüdrətini daim yüksəltməkdir. Bu isə Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsi üçün başlıca şərtdir. Ali Baş Komandan İlham Əliyevin apardığı ardıcıl siyasətin, ordu quruculuğuna daimi diqqət və qayğısının məntiqi nəticəsidir ki, Azərbaycan Ordusu müasir silah-sursat, döyüş texnikası, onların keyfiyyəti, şəxsi heyətin sayı və döyüş əzmi baxımından düşmən ordusunu dəfələrlə qabaqlayır, dünyanın aparıcı 50 ordusu sırasındadır. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil edilən rəsmi qəbuldakı nitqində ölkəmizin rəhbəri İlham Əliyevin söylədiyi bu fikirləri də yada salmaq istərdik: "1918-ci ildə Azərbaycan Ordusunun yaradılması haqqında qərar veriləndə, yəqin ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq. Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik. Azərbaycan Ordusu işğal altında olan torpaqların bir hissəsini iki il bundan əvvəl işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Azad edilmiş o torpaqlara Azərbaycan vətəndaşları qayıtmışlar. O torpaqlara həyat qayıtmışdır və bunu Azərbaycan dövləti etdi, Azərbaycan Ordusu etdi. Güclü ordu müstəqilliyimizin əsasıdır, təhlükəsizliyimizin qarantıdır".

Bu gün müstəqil dövlətimiz hər bir Azərbaycan vətəndaşının qürur mənbəyidir. Bu uğurlar ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir. Yaxın günlərdə işğalçı dövlətə və onun havadarlarına sübut edəcəyik ki, qüdrətli ordusu, qətiyyətli Prezidenti, Onun ətrafında sıx birləşən xalqı olan ölkə heç zaman məğlubiyyətlə barışmayacaq. Tezliklə qələbələrimizi bir-birinin ardınca sıralayacaq, Azərbaycan Ordusunun malik olduğu imkanların təqdimatında əhəmiyyətli rol oynayan növbəti hərbi paradın işğaldan azad edilmiş Qarabağda keçirilməsinə nail olacağıq! Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndinin işğaldan azad edilməsi münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edən Prezidentimiz İlham Əliyev bildirib ki, dörd il bundan əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlamışdır. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar. Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı təcrübəsi onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır. Dövlətimizin başçısı İlham Əliyev, eyni zamanda, bildirib ki, biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır: "Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğruldaruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

*Ceyhun Bayramov:*

# Hazırda problemin kökündə Qarabağ münaqişəsinin 30 ilə yaxındır ki, həll edilməməsi dayanır

Sentyabrın 27-dən başlayaraq Dağlıq Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinin növbəti hərbi təcavüzü və təxribatı nəticəsində Azərbaycan hərbçilərinə və mülki şəxslərinə qarşı hücum edilib. İlk gündən etibarən bizim həm mülki, həm də hərbçilərimiz arasında itkilərimiz olub. Bu məqamda Azərbaycan Ordusu, Azərbaycan dövləti öz beynəlxalq hüququna, vətəndaşlarını müdafiə etmək hüququna və BMT-nin Nizamnaməsinə uyğun olaraq müvafiq addımlar atıb və əks-həmlə tədbirlərinə başlanılıb.

"İki sahil" Trend-ə istinadən xəbər verir ki, bunu Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov oktyabrın 6-da türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə keçirdiyi brifinqdə söyləyib.

C.Bayramov deyib: "Biz bu tarixdən və bundan əvvəl baş verən bir sıra erməni təxribatları zamanı qardaş Türkiyənin bütün səviyyələrdə, o cümlədən ölkə başçısı, millət vəkilləri, siyasi partiyalar, ictimai birliklər, nazirlər və türk xalqı səviyyəsində tam, hərtərəfli, birmənalı dəstəyini gördük və hiss etdik. Fürsətdən istifadə edərək Sizin simanızda Türkiyə dövlətinə və Türkiyə xalqına Azərbaycan dövləti və xalqı adından bir daha minnətdarlığımı bildirirəm".



Bu problemin kökündə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin 30 ilə yaxındır ki, həll edilməməsinin dayandığını vurğulayan nazir bildirib ki, 1993-cü ildən bəri BMT-nin məsələnin həllinə dair 4 qətnaməsi başda olmaqla, çoxsaylı beynəlxalq təşkilatların qətnamələri və qərarları olub, lakin bu uzun illər ərzində onların heç birinin icrasında irəliləyiş baş verməyib. 2018-ci ildən sonra isə Ermənistanda formalaşmış hərbi-siyasi rəhbərlik danışıqları tamamilə məhv etmək, prosesə çoxsaylı və ağır zərbələr vurub. Bu isə danışıqlar prosesini müəyyən mənada mənasız formaya gətirib çıxarıb.

*Çavuşoğlu:*

## İŞĞALÇI İLƏ İŞĞALA MƏRUZ QALAN EYNİ DEYİL, BUNU ANLAMAQ LAZIMDIR



Atəşkəsə baxmayaraq Ermənistan Tovuza hücum etdi. Bu atəşkəsin nəticəsi olmadı.

Bunu Türkiyə Xarici İşlər naziri Mövlud Çavuşoğlu Azərbaycan Xarici İşlər naziri Ceyhun Bayramovla görüşdən sonra keçirilən mətbuat konfransında deyib.

M.Çavuşoğlu bildirib: "30 ildir ki, Minsk qrupu ilə bu məsələləri müzakirə etmişik. Konkret olaraq bu münaqişənin həlləri varmı?- deyə soruşmuşuq. Yox, deyiblər. İşğalçı ilə işğala məruz qalan eyni deyil, bunu anlamaq lazımdır və bu işlər belə davam edə bilməz. Biz problemin sülh yolu ilə həlli üçün bütün addımları atmışıq. Lakin bu vaxta qədər Ermənistana Azərbaycan torpaqlarından çıx deyən olmayıb".

Nazir deyib ki, Ermənistan Yaxın Şərqdən gətirdiyi erməniləri bu bölgəyə yerləşdirir və bununla da güclənmək istəyir: "Biz Azərbaycanın haqlı mübarizəsini dəstəkləyirik, bütün dünyanı Azərbaycanı dəstəkləməyə çağırırıq".

*Türkiyəli ekspert:*

## ATƏT-İN MİNSK QRUPU ƏVƏZİNƏ YENİ DİPLOMATİK MEXANİZM QURULMALIDIR



Azərbaycan Prezidenti İlham Əliyevin "Sülh prosesində Türkiyə mütləq olmalıdır" sözləri çox vacib açıqlamadır.

"İki sahil"in məlumatına görə, bunu Trend-ə türkiyəli ekspert, professor Naciye Selin Şenocak deyib.

O bildirib ki, 30 il ərzində Qarabağ məsələsi həll olunmayıb, ATƏT-in Minsk qrupu artıq etimadını itirib: "ATƏT-in Minsk qrupu, xüsusilə də Fransanın Azərbaycan torpaqlarını işğal edən, beynəlxalq hüquq normalarını pozan və regionda dinc sakinləri qətlə yetirməklə beynəlxalq insan hüquqlarını tapdalayan Ermənistanı həm siyasi, həm də hərbi baxımdan dəstəkləməsi, bu qrupun tərəfsiz olmadığını göstərir".

Ekspert əlavə edib ki, BMT başda olmaqla, Avropa İttifaqı və ATƏT hərbi əməliyyatları dayandırmaq çağırışları əvəzinə, Ermənistanın dərhal Azərbaycan torpaqlarından çıxmasını tələb etməlidir: "Qarabağ Azərbaycandır! Beynəlxalq hüquq çərçivəsində də Qarabağın Azərbaycan ərazisi kimi tanınmasına baxmayaraq, bu məsələdə Ermənistana sanksiyalar tətbiq olunmaması və bu ərazilərdən çıxması ilə bağlı Yerevana təzyiq edilməməsi qəbuledilməzdir. Tərəfsiz olmayan və münaqişəni qızışdıran ATƏT-in Minsk qrupu ləğv edilib, əvəzinə yeni diplomatik mexanizm qurulmalıdır və bu diplomatik qrupda Türkiyə də yer almalıdır. Türkiyə və Azərbaycan iki ölkə, amma tək millətdir".

# *Həyat yoldaşı hərbçi olan həkim:* Ona bir sözüm var, yerində möhkəm ol, sənə orada ehtiyac var

Mən uşaq olanda qonşuluğumuza yurdlarından didərgin salınmış soydaşlarımız yerləşmişdi. Tarix müəllimim Füzulidən məcburi köçkün düşmüşdü. Sinif yoldaşımgil Laçından çıxarkən xəstə anasını gətirə bilməmişdilər... İllər ötsə də bu problem öz həllini tapmadı. Əminəm ki, Azərbaycan Ordusunun əks-hücum əməliyyatı buna son qoyacaq, yaralarımıza məlhəm olacaq.

**"İki sahil"in məlumatına görə, bu sözləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində Naxçıvan şəhəri sakini, həkim Mətanət Səfərova deyib.**

"O vaxtlar atam könüllü Qarabağa getməmişdi. Bizim uşaqlığımız hərbi mahnılar öyrənməklə keçdi. Atam müharibədən gələndə Fəxri xiyabanda dəfn olunan dostlarını yad edirdik və bu günədək mən Qarabağ ilə əlaqəli görüntülərə baxa bilmirdim, ürəyim parçalanırdı. Axı bu vəhşiliyə necə susmaq olar?" - deyən Mətanət Səfərova vurğulayıb ki, indi fərəhlənir: "Əlimdə olsa o səngərdə əsgərlərimizlə birlikdə döyüşərəm! Bu gün xalqımızla daha çox fəxr edirəm, necə böyük xalq olduğumuzu bütün dünya bir daha gördü".



Mətanət Səfərova deyib: "Həyat yoldaşım hərbçidir. O, evə gəlməsə də mən narahat deyiləm, var gücümlə uşaqlara onun yoxluğunu hiss etdirməməyə çalışıram. Ona bir sözüm var, yerində möhkəm ol, sənə orada ehtiyac var. Biz ordumuza da Prezidentimizə də inanırıq, yetər ki, qanımız yerdə qalmasın!"

# Qazaxıstan KİV-ləri Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti barədə məlumatlandırılıb

**Azərbaycanın Qazaxıstandakı səfirliyində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın işğalçılıq siyasəti, cəbhədə baş verən son hadisələr, ölkəmizin mülki vətəndaşlarının qətlə yetirilməsi, ərazilərimizin Ermənistan tərəfindən raketlərlə vurulmasına dair yerli KİV nümayəndələri üçün brifinq keçirilib.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, brifinqdə ölkənin 40-dan çox müxtəlif televiziya kanalı və informasiya agentliyinin rəhbər şəxsləri və ya nümayəndələri, politoloq və ekspertlər iştirak ediblər.

Brifinqin əsas məqsədi Qazaxıstanın informasiya məkanında digər dövlətlərin təsiri altında yayılan təhrif olunmuş, dezinformasiya xarakterli məlumatların qarşısını almaq, yerli medianın, ictimai fikrin formalaşmasına istiqamət verə biləcək nüfuzlu şəxslərin, politoloq və mütəxəssislərin diqqətini bu məsələyə yönəltmək, onları mövzu ilə bağlı həssas davranmağa, Azərbaycan tərəfinin haqlı mübarizəsini dəstəkləməyə dəvət etmək olub.

Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov son günlər Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş verənlər haqqında ətraflı məlumat verib, Ermənistan silahlı qüvvələrinin ölkəmizdəki mülki obyektlərə hücumlar etdiyini, cəbhə xəttindən kilometrlərlə uzaqda yerləşən Gəncə, Mingəçevir, Tərtər, Bərdə, Göygöl, Xızı və Abşeron kimi şəhər və rayonların təcavüzkar ölkənin ərazisindən raket hücumlarına məruz qaldığını bildirib.

Diplomat qeyd edib ki, Azərbaycan Ordusu öz vətəndaşlarını qorumaq üçün Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alıb və əks-hücuma keçərək işğal olunmuş torpaqlarını azad etməyə başlayıb.

Səfir Qazaxıstan da daxil olmaqla, Azərbaycan tərəfinin heç bir xarici ölkənin hərbi köməyinə ehtiyacının olmadığını, bütün dövlətlərin, o cümlədən qardaş Qazaxıstanın beynəlxalq hüququn normalarından irəli gələn siyasi və mənəvi dəstəyini gözlədiyini diqqətə çatdırıb.




Diplomatın sözlərinə görə, təəssüf ki, bir çox hallarda yerli mətbuat, agentliklər fərqinə belə varmadan münaqişədə maraqlı olan üçüncü ölkənin informasiya resurslarına, hətta heç bir ölkə tərəfindən tanınmayan separatçı rejimin qondarma qurumlarına istinadla yalan, təhrif olunmuş və dezinformasiya xarakterli xəbərlər yaymaqdadır. Bu da Qazaxıstan dövlətinin rəsmi mövqeyinə uyğun gəlmir və beynəlxalq hüquq normalarının pozulmasıdır. Digər narahatedici məqam isə ondan ibarətdir ki, yerli medianın saxta informasiyalar yayması qardaş qazax xalqının fikirlərinin yanlış istiqamətləndirilməsinə və Azərbaycanla bağlı arzuolunmaz imicin formalaşmasına rəvac verə bilər. Bunların qarşısının alınması məqsədilə səfirlik tərəfindən xüsusi bəyanat hazırlanaraq bütün media qurumlarına göndərilib, eyni zamanda, Qazaxıstanın yerli mediasının baş verənlərlə bağlı dəqiq və dolğun informasiya əldə etməsi üçün ölkəmizin müvafiq dövlət qurumlarının və əsas KİV-lərinin saytları təqdim edilib.

Tədbir zamanı videoproyektor vasitəsilə son günlərdə Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılan ərazilərimizdən beynəlxalq humanitar hüququn normaları pozulmaqla Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında, həmçinin münaqişə bölgəsindən uzaqda yerləşən Gəncə, Mingəçevir şəhərlərində və Xızı rayonunda yaşayan mülki şəxslərin və obyektlərin atəşə tutulması nəticəsində vətəndaşlarımızın həlak olması, xəsarət alması, habelə yaşayış evlərinin və mülki infrastrukturunun dağıdılması faktlarını özündə əks etdirən video və fotomateriallar tədbir iştirakçılarına nümayiş etdirilib. Bundan başqa, Azərbaycan tarixinin müxtəlif dövrlərini əks etdirən, ermənilərin Qafqaza köçürülməsi faktlarını göstərən xəritələr, Ermənistandan azərbaycanlıların deportasiya ilə bağlı statistik məlumatlar vizual şəkildə təqdim olunub. Tədbir zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə aid ayrı-ayrı jurnal, broşürlər və digər sənədlər iştirakçılara paylanılıb.

Brifinqdə səfir yerli jurnalistlərin, politoloqların suallarını cavablandırıb.

## BAŞ PROKURORLUĞUN MƏTBUAT XİDMƏTİ VİDEOÇARX HAZIRLAYIB



Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbuat xidməti qüdrətli Azərbaycan Ordusuna dəstək məqsədilə videoçarx hazırlayıb.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, videoçarxda Baş Prokurorluğun sosial şəbəkə səhifələrində və rəsmi veb-saytında izləmək mümkündür.

Videoçarxda xalqımızın ümummilli lideri Heydər Əliyevin qurucusu olduğu qüdrətli Azərbaycan Ordusunun Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında düşmənə sarsıdıcı zərbələr vurması əks olunub. Həmçinin videoçarxda Azərbaycan Prezidenti İlham Əliyevin xalqımıza müraciətində ifadə etdiyi "Biz öz torpağımızda vuruşuruq. Ermənistan işğalçı dövlətdir və bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" sözləri xüsusi vurğulanıb.

## NEFTİN QİYMƏTİ MAYDAN BƏRİ ƏN BÖYÜK GÜNDƏLİK ARTIM TEMPİ GÖSTƏRİB



Birjalarda neft qiymətləri may ayından indiyədək ən böyük gündəlik artım tempini nümayiş etdirib.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, neftin qiyməti ABŞ-da maliyyə təşviqinə dair nikbinlik, Prezident Donald Trampın COVID-19 müalicəsindən sonra xəstəxanadan ayrılması xəbərləri fonunda may ayından bəri ən böyük gündəlik artımını göstərib.

Neft bazarı, həmçinin Norveçdəki tətillər səbəbindən bəzi neft yataqlarının bağlanması nəticəsində hasilatdakı artımın bir qisminin kompensasiya edilməsi fonunda "OPEC+" koalisiyası və Liviyada tədarük artımı ilə mübarizə aparır.

Qeyd edək ki, "Brent" markalı neftin bir barreli Londonun ICE birjasında 41,39 dollara, "Light" neftinin bir barreli isə Nyu-Yorkun NYMEX birjasında 39,29 dollara satılır.

## KORONAVİRUSUN XARİCDƏN İDXALOLUNMA HALI 1 FAİZDİR



Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına bölgələr üzrə yoluxma göstəriciləri açıqlanıb.

AZƏRTAC koronavirusinfo.az saytına istinadən xəbər verir ki, ölkəmizdə koronavirusa yoluxma hallarının 56 faizi paytaxtın payına düşür.

Bundan əlavə, həmin göstərici Abşeron rayonunda 15,2, Aran rayonlarında 10,5, Gəncə-Qazax bölgəsində 6,3, Lənkəranda 4,2, Quba-Xaçmazda 2,2, Şəki-Zaqatalada 2, Dağlıq Şirvanda 1,5, Yuxarı Qarabağda 1, Naxçıvan Muxtar Respublikasında 0,10 faiz təşkil edir. Ölkə xaricindən idxalolunma halı 1 faizdir.

## *"Azəriqaz"*: HAZIRDA BƏRDƏ RAYONU TAM OLARAQ TƏBİİ QAZLA TƏMİN EDİLİR

azəriqaz

"Azəriqaz" İstehsalat Birliyində yaradılan qərargah Bərdə rayonunun qaz təchizatı ilə bağlı yeni məlumat yayıb.

Birlikdən "İki sahil"ə bildirilib ki, oktyabrın 5-də saat 15:15-də Bərdə rayonu üzrə qaz təsərrüfatına baxış keçirilərək Bərdə şəhəri və 16 yaşayış məntəqəsinin təbii qaz təchizatı bərpa olunub. Beləliklə, hazırda Bərdə rayonu tam olaraq təbii qazla təmin edilir.

## MOLDOVA İCTİMAİYYƏTİ ERMƏNİSTANA TƏSİR GÖSTƏRMƏYƏ ÇAĞIRILIB



Moldova Azərbaycanlıları Konqresi Ermənistanın təxribatları ilə əlaqədar ölkənin ali dövlət strukturlarına və beynəlxalq qurumlara ünvanlanan bəyanat yayıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda Ermənistanın Azərbaycanın işğal edilmiş torpaqlarında ordumuza və dinc sakinlərə qarşı həyata keçirdiyi təcavüz barədə məlumat verilir. Bildirilir ki, Ermənistanın təxribatları nəticəsində bölgədə vəziyyət gərginləşib, aralarında uşaq, qadın və yaşlı insanların da olduğu xeyli sayda mülki şəxs həlak olub, yaralanıb, yaşayış məntəqələrinə ciddi ziyan dəyib.

Moldovada yaşayan soydaşlarımız bu ölkənin ictimaiyyətini Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar olması üçün Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməsi, təcili şəkildə atəşi dayandırması məqsədilə rəsmi Yerevana təsir və təzyiqlər göstərməyə çağırır.

# Sahibə Qafarova ilə Teberrüken Uluçay arasında telefon danışığı olub




Oktyabrın 5-də Milli Məclisin Sədri Sahibə Qafarova ilə Şimali Kipr Türk Cümhuriyyətinin Cümhuriyyət Məclisinin sədri Teberrüken Uluçay arasında telefon danışığı olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "İki sahil"ə bildirilib ki, telefon danışığı zamanı Ermənistanın cəbhə xəttində törətdiyi təxribatlar müzakirə olunub.

Teberrüken Uluçay bildirib ki, Şimali Kipr Türk Cümhuriyyəti Azərbaycanın öz torpaqlarını azad etmək üçün başladığı əks-hücum əməliyyatlarında ölkəmizi dəstəkləyir və tezliklə Azərbaycan torpaqlarının işğalçılardan təmizlənəcəyinə inanır. Şimali Kipr Türk Cümhuriyyəti bu haqq işində daim Azərbaycanın yanındadır.

Telefon zənginə görə təşəkkürünü bildirən Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, sentyabrın 27-də səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini iriçaplı silahlar, minaatanlar və artilleriya qurğularından intensiv atəşə tutub. Ötən günlərdə isə işğalçı ölkənin silahlı qüvvələri Ermənistan ərazisindən Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə, sənaye şəhəri Mingəçevirə və münaqişə zonasına aidiyyəti olmayan digər şəhərlərə raket hücumları həyata keçirib. Nəticədə mülki əhali arasında həlak olanlar, yaralananlar və çoxlu sayda dağıntılar var. Ermənistan silahlı qüvvələrinin mülki insanları və obyektləri atəşə tutması beynəlxalq cinayətdir və bunun məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Milli Məclisin Sədri Azərbaycana verdiyi dəstəyə görə bir daha Şimali Kipr Türk Cümhuriyyətinə təşəkkürünü bildirib. Telefon söhbəti zamanı tezliklə Azərbaycan torpaqlarının işğaldan azad ediləcəyinə və münaqişənin həll olunacağına əminlik bildirilib.

*Hikmət Hacıyev:*

# "Amnesty International" bir daha nə qədər birtərəfli, qərəzli, ikili standartlardan çıxış edən bir təşkilat olduğunu göstərdi



"Amnesty International" bir daha nə qədər birtərəfli, qərəzli, ikili standartlardan çıxış edən, yalnız kağız üzərində müstəqil və ermənipərəst bir təşkilat olduğunu göstərdi.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Amnesty International"un Ermənistanın Azərbaycana qarşı sentyabrın 27-də törətdiyi hərbi təcavüzlə əlaqədar tamamilə həqiqətdən uzaq açıqlaması ilə bağlı Trend-ə şərhində deyib.

H.Hacıyev bildirib ki, özünü yalandan qeyri-hökumət təşkilatı adlandıran "Amnesty International", əslində, siyasi sifarişlər yerinə yetirməklə QHT fəlsəfəsinə böyük zərbə vurur: "Biz "Amnesty International"ın bu açıqlamasını rədd edirik. Azərbaycan Silahlı Qüvvələri ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün öz ərazimizdə vuruşur və yalnız legitim hərbi hədəflərə yüksək dəqiqliklə zərbələr endirir. Ordumuz mülki əhalini və obyektləri hədəfə almır və kasetli sursatlardan istifadə etmir.

Əgər Ermənistan kasetli sursatların istifadəsindən narahatdırsa, o zaman Kasetli hərbi sursatlar haqqında konvensiyaya, ilk növbədə, özü qoşulsun. Lakin bunu etməyən Ermənistan Azərbaycanın mülki əhalisinə qarşı kasetli sursatlardan istifadə edir.

Sual olunur. "Amnesty International" nəyə görə cəbhə zonasından uzaqda yerləşən Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncənin, böyük su anbarı və elektrik stansiyasının, eləcə də digər strateji obyektlərin yerləşdiyi Mingəçevirin mülki əhalisinə qarşı Ermənistanın raket hücumlarını görməzdən gəlir. Sentyabrın 27-dən bu günə kimə Ermənistanın hücumları nəticəsində 27 mülki şəxs həlak olmuş, 141 mülki şəxs isə yaralanmışdır. Bundan əlavə, 63 mülki obyekt və 376 yaşayış evi yararsız hala düşmüşdür.

Ermənistanın bu raket hücumları beynəlxalq mülki aviasiya üçün də böyük təhlükə törədir.

Bundan başqa, Azərbaycanı Kasetli hərbi sursatlar haqqında konvensiyaya qoşulmağa çağırmaqla özünü "ədalət carçısı" kimi qələmə verən "Amnesty International" nədən Ermənistanı BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının işğal edilmiş Azərbaycan ərazilərindən geri çəkilməsini tələb edən qətnamələrini icra etməyə çağırmır.

Bu saxtakar təşkilat Azərbaycan cəmiyyətində ikrah doğurur. "Amnesty International" və bu qəbildən olan "qeyri-hökumət təşkilatları"nın fəaliyyətinə ən düzgün qiyməti sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi müzakirələrində çıxışı zamanı Prezident İlham Əliyev vermişdir".

# Əfqanıstanın Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə verdiyi dəstək yüksək qiymətləndirilib




Oktyabrın 5-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ilə Əfqanıstan İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Hənif Atmar arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "İki sahil"ə bildiriblər ki, nazir Məhəmməd Hənif Atmar bölgədə yaşanan gərginlikdən narahatlığını ifadə edib və Əfqanıstanın Azərbaycana dəstəyini bir daha qeyd edib.

Nazir Ceyhun Bayramov qardaş Əfqanıstan tərəfindən Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə verilən dəstəyi yüksək qiymətləndirib və bu xüsusda, Əfqanıstan İslam Respublikasının Milli Şurasının bəyanatlarına istinad edib.

Ceyhun Bayramov həmkarına bölgədəki son gərginlik, xüsusilə Ermənistan tərəfindən Azərbaycanın mülki şəxslərinin və infrastrukturunun məqsədli şəkildə hədəfə alınması barədə məlumat verib. Ermənistan silahlı qüvvələri tərəfindən təmas xəttindən uzaqda yerləşən Azərbaycan şəhərlərinin məqsədyönlü şəkildə atəşə tutulması nəticəsində mülki əhali arasında itkilər olduğu və mülki infrastruktura ziyan dəydiyi vurğulanıb.

Azərbaycanın Xarici İşlər naziri bildirib ki, regionda sülhün və təhlükəsizliyin təmin edilməsi üçün beynəlxalq hüququn norma və prinsiplərinə ciddi riayət olunması, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi zəruridir.

# Ərdoğan ilə Merkel Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin yaratdığı vəziyyəti müzakirə ediblər

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Almaniya Kansleri Angela Merkel arasında videoformatla görüş keçirilib.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, məlumatı Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr İdarəsi yayıb.

Bildirilib ki, görüşdə Türkiyə-Almaniya, Türkiyə-Avropa İttifaqı əlaqələri, Şərqi Aralıq dənizi mövzusu, Liviyadakı vəziyyət və Ermənistan-Azərbaycan münaqişəsi başda olmaqla regional məsələlər müzakirə olunub.



Dövlət başçısı qeyd edib ki, Azərbaycanın Ermənistanın işğalı altında olan torpaqları ilə bağlı problemin uzunmüddətli həlli üçün BMT-nin qərarlarının yerinə yetirilməsi və beynəlxalq hüququn tələblərinə əməl edilməsi mütləqdir. Eyni zamanda, Liviyadakı atəşkəsin yaratdığı fürsətlərin əldən verilməməsinin vacibliyi də Kansler Angela Merkelin diqqətinə çatdırıb.

Prezident Rəcəb Tayyib Ərdoğan vurğulayıb ki, Avropa İttifaqı Liderlər Zirvəsinin qəbul etdiyi məlum açıqlama münasibətlərdəki problemləri həll etmək, dialoq və əməkdaşlığa əsaslar yaradacaq elementlərdən kasaddır.

Türkiyənin xoşniyyətli mövqeyinə qarşı Avropa İttifaqı Yunanıstanın və Cənubi Kipr yunan rəhbərliyinin reaksiya və şantajlarına boyun əydiyini ifadə edən Prezident Rəcəb Tayyib Ərdoğan Avropanın böyük maraqlarının İttifaqın bir sıra üzvlərinin şəxsi maraqlarına qurban verməməsinin əhəmiyyətini vurğulayıb.

# *Dövlət Baxçalı:* İşğal altındakı ərazilər azad edilməli, Dağlıq Qarabağda Azərbaycan bayrağı yüksəlməlidir



Ermənistan-Azərbaycan münaqişəsinin atəşkəs, dialoq, danışıqlar, diplomatiya və sair üsullarla həllinə dair təkliflər hiyləgərcəsində fikirləşilən tələ və məğlubiyyətin təsdiqidir. Təcavüzkar düşmənin beli qırılmayana və hərbi zəfər siyasəti təsdiq edilməyənə qədər danışıqlar masasına oturmaq işğalçıya güzəşt olar. Ermənistanın silahlı dəstələri ya Dağlıq Qarabağdan çəkiləcək, ya da əziləcək.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bu fikirləri Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı rəhbərlik etdiyi partiyanın Türkiyə Böyük Millət Məclisində təmsil olunan deputatlarının qrup toplantısındakı çıxışında ifadə edib.

Ermənistanı Azərbaycana qarşı işğalçılıq siyasətində qalmaqda, bəşəri cinayət olan Xocalı soyqırımını törətməkdə, əsassız iddialar, onilliklər boyu xalqlarımıza qarşı edilən xəyanət, düşmənçilik və hiyləgərlik əməlləri törətməkdə sərt ittiham edən Dövlət Baxçalı deyib: "Cənubi Qafqaza sülhün gətirilməsinin yeganə yolu Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından bəhanəsiz çəkilməsi, Dağlıq Qarabağda Azərbaycan bayrağının yüksəldilərək suverenliyin bərpa edilməsidir. Başqa çarə, seçim və həll yolu yoxdur".

Dağlıq Qarabağdan xeyli aralıda yerləşən Tovuz rayonuna beynəlxalq ictimaiyyətin gözü qarşısında edilən hücumları, hazırda Azərbaycanın Gəncə, Mingəçevir, Bərdə, Tərtər və digər şəhərlərinə raketlərin atması, mülki əhalinin hədəf alınmasını, otuza yaxın dinc sakinin qətlə yetirilməsini vandalizm aktı kimi dəyərləndirən Dövlət Baxçalı deyib: "Terror dövləti olan Ermənistan sentyabrın 27-si səhər saatlarında növbəti dəfə təkcə Azərbaycana deyil, Türkiyəyə qarşı da hücuma keçdi. İşğal alındakı Dağlıq Qarabağ və ətrafındakı yeddi rayonu düşmən tapdağından azad etmək Can Azərbaycanın halal haqqıdır.

Azərbaycan Silahlı Qüvvələrinin Cəbrayıl rayonu daxil olmaqla, işğal altındakı bir sıra yaşayış yerlərini düşməndən azad etdiyini və sürətlə irəlilədiyini xatırladan partiya sədri əminliklə deyib ki, şanlı qələbə günü yaxındadır. Türkiyə bu haqqı işində Azərbaycanın yanındadır".

## DTX QARABAĞDA DÖYÜŞƏN KÜRD TERRORÇULARININ SƏSİNİ YAYDI




Ermənistan Azərbaycan Respublikasına qarşı hərbi təcavüzündə xarici muzdlulardan, o cümlədən İraq və Suriya ərazisindən gətirilmiş kürd terrorçu qruplaşma üzvlərindən fəal istifadə edir.

"Report"un xəbərinə görə, bu barədə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İctimai əlaqələr şöbəsinin yaydığı məlumatda bildirilib.

DTX tərəfindən ölkəmiz əleyhinə hərbi əməliyyatlarda iştirak edən PKK ilə əlaqəli terrorçuların radio danışıqları ələ keçirilib. Həmin səs yazılarında terrorçular erməni tərəfində vəziyyətin ağır və itkilərin çox olması, azərbaycanlılar tərəfindən dronların effektli tətbiqi barədə müzakirələr aparır, ermənilərin məlumatlarına aldanaraq münaqişə bölgəsinə gəldiklərindən peşmanlıq keçirdiklərini bildirirlər.

## Silahlı Qüvvələrə Yardım Fonduna köçürmələr Müdafiə Nazirliyinin rəsmi hesab nömrələrinə edilməlidir

Sosial şəbəkələrdə Silahlı Qüvvələrimiz üçün yardım toplayan şəxslərin sayının çoxaldığını nəzərə alaraq, vətəndaşlardan ayrı-ayrı şəxslərin hesablarına deyil, yalnız Müdafiə Nazirliyinin paylaşdığı rəsmi hesab nömrələrinə köçürmələr etmələri xahiş olunur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən "İki sahil"ə bildiriblər ki, Silahlı Qüvvələrə Yardım Fonduna aşağıdakı linklər vasitəsilə keçid etmək olar:

https://ibar.az/az/donate

https://gpp.az/WebPortal/Infosite/Sc/989100/Category/8

https://asanpay.az/intro/home

https://hesab.az/unregistered/#/direct-pay/charity/merchants.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi ordumuza maddi və mənəvi dəstək olan hər bir vətəndaşımıza minnətdarlığını bildirir.

*Sahibə Qafarova:*

# İşğal altında olan bütün torpaqlarımızda Azərbaycan bayrağı dalğalanacaq



Azərbaycan Prezidentinin, Ali Baş Komandanın rəhbərliyi altında şanlı Ordumuzun zəfər yürüşü davam edir. Ordumuz Ermənistanın işğal etdiyi torpaqları bir-birinin ardınca azad edir. Prezident İlham Əliyev dediyi kimi, dövlətimiz heç vaxt Azərbaycan torpağında ikinci dövlətin yaranmasına imkan verməyəcək.

Bu fikirləri Milli Məclisin Sədri Sahibə Qafarova parlamentin dünən keçirilən iclasında bildirib.

Hazırda döyüş meydanında xalqımızın taleyi ilə bağlı məsələnin həll olunduğunu bildirən Milli Məclisin Sədri qeyd edib: "Xalqımızın taleyi həll olunur. Cəbrayıl da daxil olmaqla, işğal altındakı kəndlərimiz, şəhərlərimiz işğaldan azad edilir. Şanlı Ordumuzun qələbələrindən təşvişə düşən Ermənistan məğlubiyyəti qəbul etməyərək mülki əhalini, təmas xəttindən tamamilə kənarda olan ərazilərimizi hədəfə alırlar".

Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan Prezidentinin, Ali Baş Komandanın ətrafında sıx birləşməklə və bu qüvvə sayəsində bütün torpaqlarımızda Azərbaycan bayrağı dalğalanacaq.

# Biz - Azərbaycan yəhudiləri azərbaycanlı qardaşlarımızla birlikdə Vətənimizi müdafiə edəcəyik!



Artıq 30 ilə yaxındır ki, Ermənistan silahlı münaqişə törədib və suveren Azərbaycan Respublikasının ərazisinin 20 faizini işğal edib. İşğal dövründə ələ keçirilmiş ərazilərdə azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə aparılıb, 1992-ci ildə törədilmiş Xocalı soyqırımı belə etnik təmizləmələrdən biridir. 1994-cü ildə Azərbaycan ilə Ermənistan arasında atəşkəs haqqında müqavilə bağlanıb və danışıqlar prosesi başlanıb. Danışıqlar 26 il davam edib! Bu illər ərzində Ermənistan Azərbaycana qarşı bir neçə dəfə ciddi hərbi təxribatlar törədib, hətta Azərbaycanın yeni ərazilərini ələ keçirməklə hədələyib.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bu barədə Azərbaycanın Yəhudi İcmasının müraciətində deyilir: "2020-ci il sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı yenidən təxribat törədib, bu təxribat tərəflər arasında növbəti münaqişəyə çevrilib. Azərbaycanın yəhudi icması Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüz aktlarını qətiyyətlə pisləyir, dünya birliyini və beynəlxalq təşkilatları qətiyyət nümayiş etdirməyə, Ermənistandan öz qoşunlarını işğal altında olan ərazilərdən çıxarmağı və BMT Təhlükəsizlik Şurasının Azərbaycan ərazilərinin işğaldan azad olunması haqqında qətnamələrinin yerinə yetirilməsini tələb etməyə çağırır. Bu cür təcavüzlər beynəlxalq hüququ pozur və iki dövlət arasında silahlı münaqişəni daha da kəskinləşdirir.

Cəzasızlıq nəticəsində Ermənistan qısa müddətdə artıq ikinci dəfə Azərbaycana hücum edir, dinc əhalini hədəf seçir, şəhərləri və kəndləri dağıdır. Sonuncu münaqişənin qurbanları arasında dinc sakinlər, o cümlədən uşaqlar da var.

Bu gün Azərbaycanın hər bir vətəndaşı, dini etiqadından və milliyyətindən asılı olmayaraq Ali Baş Komandan, möhtərəm Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşməlidir.

Bu müharibələrin gedişində müxtəlif xalqların və etnik qrupların çoxsaylı nümayəndələri zərər çəkib. Onların arasında Vətən uğrunda canlarından keçmiş yəhudilər, o cümlədən Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov da var.

Biz, Azərbaycanın çoxminlik yəhudi icması qətiyyətlə Azərbaycanın işğal altında olan ərazilərinin azad edilməsinə, habelə Ermənistanın Azərbaycana qarşı təxribata və yeni müharibə başlamağa görə cavab verməsinə çağırırıq.

Bizim icma bütün beynəlxalq təşkilatlara, ATƏT-in Minsk qrupuna müraciətlə tələb edir ki, aparıcı beynəlxalq təşkilatlar Ermənistanı beynəlxalq hüquqa riayət etməyə - erməni silahlı qüvvələrini Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmağa çağırsınlar!

Ermənistan çoxdan başa düşməlidir ki, işğal altında olan Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon Azərbaycanın tarixi torpaqlarıdır və heç vaxt Ermənistana məxsus olmayacaq. Azərbaycanın bütün torpaqları işğaldan azad edilməli, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

Biz bütün dünya birliyinə müraciətlə Ermənistanın məsuliyyətə cəlb olunmasını xahiş edirik!

Biz həm də dünya yəhudi ictimaiyyətini Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməyə, beynəlxalq hüququ dəstəkləməyə çağırırıq!

Azərbaycanın çoxminlik yəhudi icması Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması siyasətini bütünlüklə və tamamilə dəstəkləyir.

Biz - Azərbaycan yəhudiləri həmişə Azərbaycan xalqının yanında olmuşuq və olacağıq, azərbaycanlı qardaşlarımızla birlikdə Vətənimizi müdafiə edəcəyik!

## MÜDAFİƏ NAZİRLİYİNİN XÜSUSİ XİDMƏTİ MÜŞAVİRƏSİ KEÇİRİLİB



Oktyabrın 6-da Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xüsusi xidməti müşavirə keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən "İki sahil"ə bildiriblər ki, müşavirədə aparılan əks-hücum əməliyyatında mövcud vəziyyətin təhlili aparılıb. Düşmən qüvvələrinin planlı, məqsədyönlü və ardıcıl şəkildə darmadağın olunmasının davam etdirilməsi tapşırılıb.

General-polkovnik Zakir Həsənov qoşunlara azad olunmuş ərazilərdə həyati əhəmiyyətli və ilkin zəruri tədbirlərin görülməsinə dair göstəriş verib.

Müdafiə naziri düşmən tərəfindən "İsgəndər" əməliyyat-taktiki raket komplekslərinin tətbiq olunacağı halda adekvat tədbir görüləcəyini bildirib. Nazir Azərbaycan Ordusuna arsenalındakı yüksək dəqiqlikli və böyük dağıdıcı qüvvəyə malik silah növlərini tətbiq etməklə düşmən tərəfinin hərbi-strateji infrastrukturuna böyük zərbələr endirməyi planlaşdırmağı əmr edib.

## NEFT QİYMƏTLƏRİ BAHALAŞIR



Dünya birjalarında neft qiymətləri bahalaşıb.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barrelinin qiyməti 0,13 dollar artaraq 41,42 dollar, Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barrelinin qiyməti isə 0,12 dollar bahalaşaraq 39,34 dollar olub.

## AZƏRTAC-ın KOLLEKTİVİ AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN YARDIM FONDUNA İANƏ EDİB



AZƏRTAC-ın idarə heyətinin üzvləri və struktur rəhbərləri Azərbaycan Silahlı Qüvvələrinin Yardım Fonduna əməkhaqlarından 15 min manat vəsait köçürüblər.

Rəşadətli Ordumuzun Azərbaycan torpaqlarını erməni işğalından azad etmək üçün uğurlu əks-hücum əməliyyatı apardığı bir vaxtda agentliyin kollektivi də Böyük Qələbəni yaxınlaşdırmaq üçün informasiya müharibəsində fəal şəkildə iştirak edir. Cəbhə bölgəsində işləyən çəkiliş qruplarımız erməni təxribatlarını lentə alır, Ermənistanın faşist simasını ifşa edən foto və videolar, reportaj və xəbərlər hazırlayırlar. Bu materiallar 8 dildə AZƏRTAC-ın kanalları ilə fasiləsiz olaraq dünyanın hər yerinə yayılır.

AZƏRTAC-ın jurnalistləri Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman Ordumuzdan yeni qələbə müjdələri gözləyirlər. Qarabağ Azərbaycandır!

## KORONAVİRUS İNFEKSİYASINDAN DAHA 126 NƏFƏR SAĞALIB

*143 yoluxma faktı qeydə alınıb*




Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 126 nəfər sağalıb, 143 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "İki sahil"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 40 min 931 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 38 min 713 nəfər müalicə olunaraq sağalıb, 600 nəfər vəfat edib. Aktiv xəstə sayı 1618 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 145 min 397 test aparılıb. Dünənki test sayı isə 5203-dür.

# Əli Hüseynli: Türkiyənin münaqişənin həllində beynəlxalq mandat əsasında fəaliyyət göstərməsi ideyası problemin ədalətli həllinə öz töhfəsini verə bilər

**Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini Əli Hüseynli AZƏRTAC-a müsahibə verib. "İki sahil" həmin müsahibəni təqdim edirik.**

*- Əli müəllim, Prezident İlham Əliyevin "TRT Haber" kanalına müsahibəsində ATƏT-in Minsk qrupunun fəaliyyəti və həmsədrlərlə bağlı söylədiyi fikirlərə münasibətinizi bilmək istərdik.*

- Möhtərəm Prezident İlham Əliyev dəfələrlə ATƏT-in Minsk qrupunun yarıtmaz fəaliyyəti ilə bağlı fikirlərini söyləyib. Bu dəfə isə cənab Prezident Minsk qrupunun həmsədri kimi Fransanın mandatına uyğun olaraq tərəfsiz deyil, Ermənistanın havadarı kimi çıxış etməsini sərt tənqid etdi. Amma dövlətimizin başçısının budəfəki açıqlamasında əsas diqqət Türkiyənin bu münaqişənin həllində oynadığı və gələcəkdə oynaya biləcəyi rola yönəldildi. Bildirildi ki, müəyyən şərtlər çərçivəsində, o cümlədən erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması tarixləri verilərsə, o zaman atəşkəs üzərində çalışmaq olar. Bu zaman Minsk qrupunun həmsədrləri və mümkün olan ölkələr buna qoşularsa, döyüşlərə son qoyula bilər. Digər ölkələr dedikdə, cənab Prezident məhz Türkiyəni nəzərdə tutduğunu söylədi ki, bu da çox böyük əhəmiyyət kəsb edir. Türkiyə həm Azərbaycanın, həm də Ermənistanın qonşusudur, Cənubi Qafqazın qonşusudur, güclü bir dövlətdir və böyük potensiala malikdir. Sözsüz ki, Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq mandat əsasında fəaliyyət göstərməsi ideyası münaqişənin ədalətli həllinə öz töhfəsini verə bilər.



*- Eyni zamanda, Rusiyanın da həm ATƏT-in Minsk qrupunun həmsədri kimi, həm də qonşuluqda olan böyük dövlət kimi bu məsələdə mövqeyi tərəflər üçün əhəmiyyət kəsb edir. Rusiyanın mövqeyinə həm də bir sıra hallarda Azərbaycan ictimaiyyəti həssaslıqla yanaşır.*

- Cənab Prezident müsahibəsində bu məsələlərə də tam aydınlıq gətirdi. O dedi: "Rusiya bizim qonşumuzdur, Rusiya ilə münasibətlərimiz uğurla inkişaf edir, bu gün bir çox sahələrdə Rusiya ilə Azərbaycan arasındakı münasibətlər çox yüksək səviyyədədir. Hər iki ölkə bu münasibətləri strateji tərəfdaşlıq münasibətləri kimi yanaşır və bu, birgə imzalanmış müqavilələrdə də öz təsdiqini tapır. Bu məsələ ilə bağlı Rusiya çox məsuliyyətli və böyük ölkə kimi davranır. Rusiyadan müsbət mesajlar gəlir... Onlar Rusiyanı bu münaqişəyə cəlb etmək istəyiblər". Cənab Prezident ermənilərin buna müvəffəq olmayacaqlarına əminliyini də bildirdi. Bu da təsadüfi deyil, həqiqətən də son illər Azərbaycan və Rusiya arasında hərtərəfli ələqələr öz müsbət nəticəsini verməkdədir. Baxmayaraq ki, bir sıra mətbuat orqanları erməni lobbisinin dəstəyi ilə təcavüzkar Ermənistana dəstək verir. Amma buna baxmayaraq Yuri Korotçenko, Maksim Şevçenko və digər obyektiv ekspertlər ədalətli mövqedən çıxış edirlər.

*- Cənab Prezident öz müsahibəsində həm də Azərbaycanın ordu quruculuğunun nailiyyətlərinə də toxundu. Siz bu sahədə görülən işlərlə bağlı nə deyə bilərsiniz?*

- Bəli, bu, çox vacib məsələdir. Bilirsiniz ki, hələ zamanında cənab Prezident Azərbaycan Ordusunun büdcəsinin Ermənistanın bir dövlət kimi büdcəsindən üstün olacağı məqsədini qarşıya qoymuşdur. Milyardlarla vəsaitlər ayrılmış və Azərbaycan Ordusu ən müasir silahlarla təchiz olunmuşdur. Təsadüfi deyil ki, cənab Prezident müsahibəsində açıqladı ki, Azərbaycan dünyanın ən güclü ordularından olan Türk Ordusunun kiçik modelini qurur. Sözsüz ki, bu, bizim uğurlarımızın əsas səbəbidir. Cənab Prezident Azərbaycan-Türkiyə münasibətlərini bir daha yüksək qiymətləndirdi və dedi ki, biz çox xoşbəxt ölkəyik ki, bizim Türkiyə kimi müttəfiqimiz, qardaşımız var.

*- Bu gün Milli Məclisdə Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması ilə bağlı qanun qəbul edildi.*

- Bəli, erməni işğalçılarının Qarabağda yaşayış məskənlərinin tarixi adlarının dəyişdirilməsi kimi qanunsuz əməllərindən birinə bu gün son qoyuldu. Heç şübhə yoxdur ki, bundan sonra da torpaqlarımız işğaldan azad olunduqca cənab Prezident tərəfindən bu cür qanunlar parlamentə təqdim olunacaq və yekdilliklə qəbul ediləcək.

## Adil Əliyev:

# Ermənistan həm diplomatiyada, həm də döyüşlərdə məğlub olmağa məhkumdur



Ermənistanın növbəti hücumunun qarşısı Milli Ordumuz tərəfindən qətiyyətlə alındı və həyata keçirilən əks-hücum əməliyyatları zamanı düşmən xeyli sayda itkilər verərək, geri çəkilməyə məcbur oldu. Hazırda Cəbrayıl şəhəri və ətrafındakı kəndlər, habelə Füzuli rayonunun böyük hissəsi və Tərtər rayonunun işğal altındakı ərazisi azad edilib, düşmənə məxsus xeyli sayda texnika və döyüş sursatı ələ keçirilib.

Cəbhə boyu döyüş əməliyyatlarının tam sürətlə davam etdiyi bir vaxtda Ermənistan tərəfi uduzduğunu görərək, öz xislətinə uyğun tərzdə faşizm mahiyyətini ortaya qoyur, yenidən təxribatlara əl atır, mülki əhalini hədəfə alır. Ağır artilleriyadan sivil insanlara və mülki obyektlərə qarşı istifadə edir. Bu, barbarlıqdır və Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozmaqdır.

**Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib.**

Adil Əliyev diqqətə çatdırıb ki, Ermənistan hakimiyyəti və Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaradılmış qondarma xunta rejimi son iki il ərzində müxtəlif təxribatlara əl atıb. "Heç bir siyasi savadı və idarəetmə qabiliyyəti olmayan Nikol Paşinyan baş nazir kimi Ermənistanda hakimiyyətə gəldikdən sonra sülh danışıqlarını pozmaq, işğalçılıq siyasətini genişləndirmək üçün hər cür təxribata əl atdı. Davam edən sülh danışıqlarının fonunda "Soros" fondunun dəstəyi ilə Ermənistan hakimiyyətini ələ keçirən Nikol Paşinyanın 7 absurd şərt irəli sürməsi və cəbhəboyu təxribatlara başlaması isə müharibənin başlanmasını qaçılmaz etdi. O, faktiki olaraq sülh danışıqlarının davam etməsindən imtina etdi.

Vəziyyət o yerə çatdı ki, hətta ATƏT-in Minsk qrupunun həmsədrləri belə Paşinyanın irəli sürdüyü sərsəm bəyanatların sülh danışıqlarının bütün prinsiplərinə zidd olduğunu açıq şəkildə etiraf etdilər. Lakin ayrı-ayrı qrupların maraqlarına xidmət edən Ermənistan rəhbərliyi nəinki öz mövqeyini dəyişdirmədi, əksinə, verdiyi boş bəyanatlarla Azərbaycan tərəfini qıcıqlandırmağa cəhd göstərdi. Qondarma rejimin rəhbərinin Şuşada inauqurasiya mərasimi keçirməsi və separatçı rejimin qondarma "parlament"inin Xankəndidən Şuşaya köçürüləcəyini bəyan etməsi İrəvanın cinayətkar rejiminin növbəti təxribatı oldu. Nəhayət, iyul ayında Tovuz rayonunda hərbi təxribatların törədilməsi, daha sonra isə Azərbaycana diversiya qrupu göndərərək təxribatlar törətmək niyyətinə düşməsi Paşinyanın məqsədyönlü addımları və onun rəhbərlik etdiyi ölkənin işğalçı mahiyyətinin daha bir təsdiqi oldu", - deyə A.Əliyev bildirib.

Milli Məclisin Sədrinin müavini bildirib ki, danışıqlar prosesinin Ermənistan tərəfinin ciddi səyi nəticəsində dayanmasına beynəlxalq ictimaiyyətin heç bir ciddi reaksiya verməməsi düşməni daha da şirnikləndirdi. Azərbaycan Prezidenti İlham Əliyev BMT Təhlükəsizlik Şurasının 75 illiyi bağlı çıxışında bildirdiyi kimi, BMT-nin qətnamələri bəzən saatlar ərzində icra olunmasına baxmayaraq, Ermənistan tərəfi 27 ildir ki, bu qətnamələri icra etməkdən imtina edir. Qətnamələrin tələblərinə riayət etməmək bir yana dursun, davamlı olaraq sərhəd boyu erməni silahlı qüvvələri tərəfindən təxribatlar törədilir.

"Təbii ki, danışıqlar masasında uduzduğunu görən Nikol Paşinyan növbəti dəfə təxribata əl atdı. Təxribatın qarşısı da rəşadətli ordumuz tərəfindən alındı. Hazırda işğal altında olan torpaqlarımızın azad edilməsi istiqamətində əməliyyatlar uğurla davam edir. Bu gün bütün Azərbaycan xalqı bir yumruq kimi öz Prezidentinin ətrafında birləşib, Ali Baş Komandanın əmr və göstərişlərini dərhal icra edir.

Sevincimizin həddi-hüdudu yoxdur. Azərbaycan torpağının incilərindən, vacib strateji ərazilərindən sayılan Cəbrayıl rayonu və ətrafındakı bir neçə kənd 27 ildən sonra düşmən tapdağından azad edildi. Azərbaycan Ordusu böyük qələbə qazanmaqla düşməni cəbhəboyu geri çəkilməyə məcbur edir. Düz 1 il bundan əvvəl Azərbaycan Prezidenti Ermənistanın baş nazirinə "Qarabağ Azərbaycandır və nida işarəsi!" deyərək qürurla cavab vermişdi. Bu gün onun rəhbərlik etdiyi Ordu bu həqiqəti dünyaya sübut edir - "Qarabağ Azərbaycandır!". Beləliklə, Ermənistan həm diplomatiyada, həm də döyüşlərdə məğlub olmağa məhkumdur", - deyə Adil Əliyev fikirlərini yekunlaşdırıb.

# İşğalçılıq, etnik təmizləmə və etnik nifrət XXI əsrin ideologiyası ola bilməz və olmamalıdır

## YAP BEYNƏLXALQ SİYASİ PARTİYA TƏŞKİLATLARINA, DÜNYA ÖLKƏLƏRİNİN HAKİM VƏ ELƏCƏ DƏ APARICI SİYASİ PARTİYALARINA NÖVBƏTİ MÜRACİƏT ÜNVANLAYIB



**Yeni Azərbaycan Partiyası (YAP) sentyabr ayının 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı törətdiyi hərbi təxribat nəticəsində başlayan döyüşlər və Azərbaycan Ordusunun Qarabağın azadlığı uğrunda mübarizəsi ilə əlaqədar, əməkdaşlıq etdiyi siyasi partiya birliklərinə və siyasi partiyalara növbəti müraciət ünvanlayıb. Bu barədə "İki sahil"ə YAP-ın mətbuat xidmətindən məlumat verilib.**

Müraciətdə bildirilir ki, 30 ildir Azərbaycan ərazilərinin 20 faizi erməni silahlı qüvvələri tərəfindən işğal edilib, bir milyon azərbaycanlı etnik təmizləmənin qurbanı olub. Bu illər ərzində ATƏT-in Minsk qrupu tərəfindən aparılan vasitəçilik missiyası Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından müsbət nəticəyə nail olmayıb. Erməni tərəfinin mövqeyi çox müxtəlif üsullarla status-kvonu saxlamaqdan ibarətdir: "Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məskənlərini və mülki obyektlərini iriçaplı silahlardan və ağır artilleriyadan atəşə tutması nəticəsində 30 il davam edən Dağlıq Qarabağ münaqişəsi zonasında hərbi qarşıdurma kəskin şəkildə gərginləşib. Ermənistan tərəfi intensiv şəkildə dinc şəhərləri hədəfə aldığından mülki əhali arasında çoxlu ölən və yaralananlar var, mülki infrastruktur ciddi dağıntılara məruz qalıb. Ermənistanın silahlı qüvvələri heç cür haqq qazandırıla bilməyən açıq təxribat törədərək oktyabrın 4-də münaqişə zonasından uzaqda yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncəni, sənaye mərkəzi olan Mingəçevir şəhərini raket atəşinə tutub. Dinc əhali arasında yaralanan və ölənlər var, infrastruktura ciddi ziyan vurulub.

Hazırda Azərbaycan Ordusu işğal olunmuş torpaqlarımızın azad olunması uğrunda döyüş əməliyyatlarını həyata keçirir. Döyüşlərin dayandırılmasının və münaqişənin nizama salınmasının yeganə ədalətli şərti Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ərazilərindən çıxarılmasıdır. Bütün Azərbaycan cəmiyyəti, ölkənin siyasi partiyaları və vətəndaş cəmiyyəti təsisatları 30 il davam edən işğala qarşı ədalətli mübarizə ideyası ətrafında sıx birləşərək, vahid mövqe nümayiş etdirir.

Erməni işğalı və hazırkı şəraitdə dinc əhalinin atəşə tutulması Cənubi Qafqazda, bütövlükdə regionda sülh və təhlükəsizliyə ciddi təhdid olaraq qalmaqdadır. Beynəlxalq ictimaiyyət erməni işğalına son qoyulmasına, bir milyon məcburi köçkün azərbaycanlı əhalinin öz yurd-yuvalarına qayıtmasına lazımi dəstək göstərməlidir. Ermənistanın müharibə partiyasının əməlləri, qonşu ölkələrin torpaqlarını işğal etmək niyyətləri qətiyyətlə pislənməlidir.

"İşğalçılıq, etnik təmizləmə və etnik nifrət XXI əsrin ideologiyası ola bilməz və olmamalıdır. İşğalçılıq və etnik təmizləmə ideologiyasına qarşı yalnız beynəlxalq birlik və həmrəylik dura bilər və durmalıdır. Buna görə də biz sizi Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək, ərazi bütövlüyünü və əhalisinin təhlükəsizliyini təmin etmək istiqamətində ədalətli mübarizəsini dəstəkləməyə çağırırıq", - deyə müraciətdə qeyd edilir.

Müraciət Yeni Azərbaycan Partiyasının əməkdaşlıq etdiyi Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransına (İCAPP), Mərkəzçi Demokrat İnternasionalına, Avropa Xalqları Partiyasına, Türkiyənin Ədalət və İnkişaf Partiyasına, Rusiyanın "Vahid Rusiya" ("Единая Россия") Partiyasına, Ukraynanın "Sluqa naroda" Partiyasına, "İsrail bizim evimizdir" Partiyasına, Çin Kommunist Partiyasına, Cənubi Koreyanın Demokrat Partiyasına, Yaponiya Liberal-Demokrat Partiyasına, Vyetnam Kommunist Partiyasına, Qazaxıstanın "Nur Otan" Partiyasına, Macarıstanın "FİDESZ" Partiyasına, eləcə də Pakistanın, Malayziyanın, Banqladeşin, Laosun, İndoneziyanın, Rumıniyanın, Bolqarıstanın, Serbiyanın və digər ölkələrin, bütövlükdə Avropa və Asiyanın 34 ölkədən 54 siyasi partiyalarına, eləcə də bir sıra beynəlxalq təşkilatlara ünvanlanıb.

## Düşmən ötən gün Tərtərə 400-ə yaxın mərmi atıb, 8 ev tamamilə dağılıb



Sentyabrın 27-dən oktyabrın 5-dək Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Tərtər şəhərinin artilleriya atəşinə tutulması nəticəsində mülki vətəndaşlara məxsus neçə evə və inzibati binaya ziyan dəydiyi məlum olub.

"İki sahil"in məlumatına görə, bu barədə "Report"un cəbhə bölgəsinə ezam olunan əməkdaşı xəbər verir.

Oktyabrın 5-də düşmən Tərtər şəhərinə 400-ə yaxın top mərmisi atıb, nəticədə 8 ev tamamilə dağılıb, 48 evə isə ziyan dəyib.

Döyüşlərin başladığı gündən indiyədək Tərtərdə ümumilikdə 17 sosial obyektə və 298 evə ziyan dəyib, 68 ev isə tamamilə dağılıb. Rayonun 8 mülki sakini həlak olub, 33 nəfər isə yaralanıb.

Qeyd edək ki, düşmən oktyabrın 2-si gün ərzində Tərtərə 2 mindən çox mərmi atıb. Ermənistan silahlı qüvvələrinin bölmələri ötən gün və bu gün də Tərtər şəhərini artilleriya atəşinə tutmaqda davam edir. Hazırda döyüşlər davam edir.

## 27 İLLİK HƏSRƏTƏ SON
# Cəbrayıllılar evlərinə qayıdırlar



Ermənistanın təcavüzü nəticəsində Azərbaycan əraziləri 30 ilə yaxındır işğal altında idi. Bu müddət ərzində Azərbaycanın igid oğulları bu yolda şəhid oldular və millətə torpaqlarının nə vaxtsa qaytarılacağı ümidini verdilər.

Belə ki, Azərbaycan Ordusunun iradəsi, gücü və əzmkarlığı sayəsində son on gün ərzində ölkəmizin tarixi əraziləri, ermənilər tərəfindən işğal edilmiş torpaqlar azad edilir. Bu gün Azərbaycan Ordusu tarix yazır, ölkənin ərazi bütövlüyünü təmin etmək üçün öz ərazisində antiterror əməliyyatı keçirir.

Bu günlərdə torpaqları azad edilənlər üçün toydur, bayramdır. Oktyabrın 4-ü cəbrayıllılar üçün xüsusi əhəmiyyət kəsb edir. Çünki Azərbaycan Ordusu onların 27 illik həsrətinə son qoyub. Cəbrayıl şəhəri və rayonun kəndləri işğaldan azad edilib. Bu isə Cəbrayıl sakinlərinin öz elinə, obasına, tarixi ata-baba yurduna qovuşması deməkdir. Bu həm də torpaqlar üçün canlarından keçən şəhidlərin, Azərbaycanın igid oğullarının ruhlarının şad olması deməkdir.

## MİLLİ MƏCLİS SUQOVUŞANIN TARİXİ ADININ BƏRPA EDİLMƏSİNİ TƏSDİQLƏDİ



"Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan adlandırılması haqqında" qanun layihəsi Milli Məclisin dünən keçirilən plenar iclasında müzakirəyə çıxarılıb.

"İki sahil" "Report"a istinadən xəbər verir ki, qanun layihəsi barədə Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov məlumat verib.

Layihə Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə göndərilib.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq qəbul edilib.

## ERMƏNİSTAN TƏRƏFİNDƏN SAXTA "TWİTTER" HESABI AÇILIB




Ermənistan tərəfindən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin adına saxta "Twitter" hesabı açılıb.

Bununla əlaqədar Müdafiə Nazirliyinin mətbuat xidmətindən "İki sahil"ə bildiriblər: "Vətəndaşları, sosial şəbəkə istifadəçilərini və KİV nümayəndələrini həmin profilə istinad etməməyə və https://twitter.com/ModAzerbaijan saxta hesabının bağlanılması üçün şikayət etməyə çağırırıq.

Bildiririk ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi "Twitter" hesabı aşağıdakı linkdədir: https://twitter.com/wwwmodgovaz ".

## "TƏMİZ QAZ" QSC SİLAHLI QÜVVƏLƏRƏ YARDIM FONDUNA 100 MİN MANAT İANƏ EDİB

İşğalda olan torpaqlarımızın azad olunması və Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda döyüşən şanlı Ordumuza dəstək hər bir vətəndaşın borcudur. Bu baxımdan "Təmiz Qaz" QSC Azərbaycan Ordusuna dəstək üçün Silahlı Qüvvələrə Yardım Fonduna 100 min manat ianə edib.

Biz daim Ordumuzun yanındayıq. Əsgərlərimizlə qürur duyuruq. Qarabağ Azərbaycandır!

## CƏBRAYIL RAYONUNUN TƏHSİL STATİSTİKASI




Bu gün Azərbaycan Ordusu ərazi bütövlüyümüzün bərpası uğrunda uğurlu hərbi əməliyyatlar həyata keçirir. Bu əməliyyatlar nəticəsində Cəbrayıl şəhəri və rayonun bir sıra kəndləri də işğaldan azad olunub. AZƏRTAC-a xəbər verir ki, Təhsil Nazirliyi Cəbrayıl rayonunun təhsil statistikasını təqdim edir.

1992-1993-cü tədris ilində Cəbrayıl rayonunda 72 məktəb fəaliyyət göstərib. Bu məktəblərdə 11 min 20 şagird təhsil alıb, 1582 müəllim dərs deyib.

2020-2021-ci tədris ilində isə rayonda 41 məktəb fəaliyyət göstərir, 9 min 45 şagird var, 1055 müəllim işləyir.

## ZAKİR HƏSƏNOV DÜŞMƏN QÜVVƏLƏRİNİN DARMADAĞIN EDİLMƏSİNİN DAVAM ETDİRİLMƏSİNİ TAPŞIRDI



Oktyabrın 6-da Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xüsusi xidməti müşavirə keçirilib.

"Report"un xəbərinə görə, müşavirədə aparılan əks-hücum əməliyyatında hazırda mövcud olan vəziyyət təhlil olunaraq düşmən qüvvələrinin planlı, məqsədyönlü və ardıcıl darmadağın edilməsinin davam etdirilməsi tapşırılıb.

Müdafiə naziri qoşunlara azad olunmuş ərazilərdə həyati əhəmiyyətli və ilkin zəruri tədbirlərin görülməsinə göstəriş verib.

*Meral Akşener:*

## BİZİM ƏN BÖYÜK GÜCÜMÜZ AZƏRBAYCANIN HAQLI OLMASIDIR



"Türkiyə hökuməti Azərbaycana dəstək verməklə doğru mövqe sərgiləyir. Biz bu mövqeni dəstəkləyirik. Ümid edirəm ki, bu vəsilə ilə gözlərini, ürəklərini ixvan coğrafiyasından alıb türk dünyasına yönəldərlər. Ümid edirəm ki, keçmişimizin və gələcəyimizin bu müqəddəs coğrafiyasının nə anlama gəldiyini başa düşərlər. Ümid edirəm ki, keçmişdə olduğu kimi, bu dəfə qardaşlığımızın ruhuna zidd addımları bir daha atmazlar".

"İki sahil" "Report"a istinadən xəbər verir ki, bunu Türkiyənin İYİ Partiyasının sədri Meral Akşener söyləyib.

"Bizim ən böyük gücümüz Azərbaycanın haqlı olmasıdır. Bu gerçəyi doğru zaman və zəmində ortaya qoya bilsək, nəticə ala biləcəyik. Ermənistanın işğalçı olması, Azərbaycan ərazilərinin 20%-nin işğal altında olması əlimizdəki güclü kartdır. Bu kartı doğru istifadə etməliyik", - partiya sədri vurğulayıb.

## PAŞİNYANIN PARTİYASINDAN DAHA BİR DEPUTAT İSTEFA VERDİ



Ermənistanın baş naziri Nikol Paşinyanın lideri olduğu hakim "Mənim addımım" parlament fraksiyasının üzvü Tiqran Ulixanyan deputat mandatından imtina edib.

"İki sahil" "Report"a istinadən xəbər verir ki, məlumatı "Novosti Armenii - news.am" yayıb.

Ermənistan parlamentinin sədri Ararat Mirzoyan onun deputat səlahiyyətlərinin dayandırılması haqqında protokolu imzalayıb.

T.Ulixanyan istefasının səbəbini açıqlamayıb.

Qeyd edək ki, bir müddət əvvəl Nikol Paşinyanın partiyasından daha bir neçə deputatın istefa verdiyinə dair xəbər yayılmışdı.

## GƏNCƏDƏ EVƏ MƏRMİ DÜŞDÜ, 10 AYLIQ KÖRPƏ YARALANDI



Ötən gün Ermənistan terrorçularının Gəncəni ağır artilleriyadan atəşə tutması nəticəsində 10 aylıq körpə yaralanıb.

Bu barədə "Report"un Qərb Mərkəzinə körpənin atası Xəyyam Eyyubov məlumat verib.

X.Eyyubovun sözlərinə görə, hadisə baş verən zaman evdə olmayıb: "Hadisə baş verəndə evdə deyildim. Evə gəldim gördüm ki, övladım yaralanıb. Uşağı xəstəxanaya çatdırdıq və əməliyyat olundu. Hazırda səhhəti yaxşıdır".

Hadisə zamanı evdən yaralı körpəsini çıxaran Xəyyam dağımntılar arasında qalan bayrağı da götürməyi unutmayıb.

Qucağında yaralı vəziyyətdə 10 aylıq körpəsi, başının üzərində isə Azərbaycan Bayrağı olan X.Eyyubovun hadisə yerindən çıxıb xəstəxanaya qaçarkən çəkilən fotosu dünyanın gündəminə çevrilib.

*Ceyhun Bayramov:*

# Ermənistanın təxribatları zamanı Türkiyənin bütün səviyyələrdə dəstəyini gördük və hiss etdik

**Sentyabrın 27-dən başlayaraq Dağlıq Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinin növbəti hərbi təcavüzü və təxribatı nəticəsində Azərbaycan hərbçilərinə və mülki şəxslərinə qarşı hücum edilib. İlk gündən etibarən bizim həm mülki, həm də hərbçilərimiz arasında itkilərimiz olub. Bu məqamda Azərbaycan Ordusu, Azərbaycan dövləti öz beynəlxalq hüququna, vətəndaşlarını müdafiə etmək hüququna və BMT-nin Nizamnaməsinə uyğun olaraq müvafiq addımlar atıb və əks-həmlə tədbirlərinə başlanılıb.**




"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bu sözləri Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov oktyabrın 6-da türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə keçirdiyi brifinqdə söyləyib.

Ceyhun Bayramov deyib: "Biz bu tarixdən və bundan əvvəl baş verən bir sıra erməni təxribatları zamanı qardaş Türkiyənin bütün səviyyələrdə, o cümlədən ölkə başçısı, millət vəkilləri, siyasi partiyalar, ictimai birliklər, nazirlər və türk xalqı səviyyəsində tam, hərtərəfli, birmənalı dəstəyini gördük və hiss etdik. Fürsətdən istifadə edərək Sizin simanızda Türkiyə dövlətinə və Türkiyə xalqına Azərbaycan dövləti və xalqı adından bir daha minnətdarlığımı bildirirəm".

Bu problemin köçkündə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin 30 ilə yaxındır ki, həll edilməməsinin dayandığını vurğulayan nazir bildirib ki, 1993-cü ildən bəri BMT-nin məsələnin həllinə dair 4 qətnaməsi başda olmaqla, çoxsaylı beynəlxalq təşkilatların qətnamələri və qərarları olub, lakin bu uzun illər ərzində onların heç birinin icrasında irəliləyiş baş verməyib. 2018-ci ildən sonra isə Ermənistanda formalaşmış hərbi-siyasi rəhbərlik danışıqları tamamilə məhv etmək, prosesə çoxsaylı və ağır zərbələr vurub. Bu isə danışıqlar prosesini müəyyən mənada mənasız formaya gətirib çıxarıb.

# Düşmənin artilleriya atəşinə tutduğu Goranboyun Qızılhacılı kəndindən REPORTAJ

**Ermənistan silahlı birləşmələri döyüş bölgəsindən xeyli uzaqda yerləşən mülki əhalinin sıx yaşadığı əraziləri və məntəqələri ağır artilleriyadan atəşə tutmaqda davam edir.**

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş xüsusi müxbiri xəbər verir ki, düşmənin Goranboy rayonunun Qızılhacılı kəndini artilleriya atəşinə tutması nəticəsində bir neçə evə ciddi ziyan dəyib.

Çəkiliş qrupumuz ziyan dəymiş evlərdə olub, dağıntıları lentə alıb, sakinlərlə, zərərçəkmişlərlə söhbət edib.

Düşmənin atdığı raket zərbəsi nəticəsində evinə ciddi ziyan dəyən Gülnarə Hüseynova bildirib ki, hadisə baş verən vaxt evdə olmayıblar. Xoşbəxtlikdən xəsarət alan da olmayıb. "Ermənilərin atəşi nəticəsində evim dağılıb, yanğın baş verib. Qonşular, kənd sakinləri sağ olsunlar. Yanğının qarşısını dərhal alıblar. Düşmən xislətinə uyğun olaraq dinc sakinləri hədəf alır. Amma bu, bizi qorxutmur. Biz əsgərlərimizə, Prezidentimizə güvənirik. Allah onları qorusun. İnşallah, tezliklə Azərbaycan Ordusunun qələbə xəbərini eşidək".

Qarabağ veteranı, kənd sakini Xəlil Allahverdiyev deyib ki, ermənilər kəndlərimizi artilleriya atəşinə tutması ilə məqsədlərinə nail ola bilməyəcəklər: "Biz heç hara gedən deyilik. Bu torpaqlar bizimdir. Ordumuzun qabağında dura bilmirlər, qaçırlar. Ona görə də kəndlərimizi hədəf alırlar. Düşmən bilsin ki, Azərbaycan Ordusu torpaqlarımızı düşməndən təmizləyənə kimi onları məhv edəcək. Onlar Qarabağdan çıxmalıdırlar".



Erməni əsgərlərinin döyüş zamanı texnikalarını, silah-sursatlarını, sənədlərini qoyub qaçdıqlarını söyləyən kənd sakini bildirib ki, düşmənin Azərbaycan əsgərinin qabağında dayanmaq hünəri yoxdur. "Biz ordumuza, Ali Baş Komandanımıza güvənirik. Bilirik ki, Ali Baş Komandanımızın rəhbərliyi ilə torpaqlarımız tezliklə alınacaq. Kəndlərin, strateji yüksəkliklərin alınması ilə bağlı gələn xoş xəbərlər hər kəsdə olduğu kimi, bizdə də böyük ruh yüksəkliyi yaradıb. Heç kimi heç yana getməyib. Hamı öz evindədir. Onu bilirik ki, tezliklə torpaqlarımız erməni işğalından azad olunacaq", - deyə X.Allahverdiyev qeyd edib.



Qızılhacılı kənd sakini Aslan Əliyevin qızının evi də düşmənin ağır artilleriya atəşinin hədəfi olub. "Qızımın qonaqları var idi evdə. Uşaqlar da çöldə oynayırdılar. Birdən güclü partlayış səsi eşitdik. Tez uşaqları evə gətirdik. Amma körpə uşaq maşında qaldı. Həmin uşaq küreyindən xəsarət alıb, evə ziyan dəyib. Budur erməni faşizmi. Biz onları Xocalıda törətdikləri soyqırımından tanıyırıq. Buna baxmayaraq, biz düşməndən qorxmuruq. Onların mənfur niyyəti həyata keçməyəcək. Qarabağ Azərbaycanındır, Azərbaycanın da olacaq. Rəşadətli ordumuz düşmənin cavabını layiqincə verir".

Yetmiş iki yaşlı Cəmil Eminov isə qeyd edib ki, düşən kəndə düşən raketlər sakinlərin əmlaklarına zərər vursa da, insanlar ordumuza güvənərək öz gündəlik işləri ilə məşğuldurlar: "Ordumuz bizi qoruyur. Bizim yanımızda güclü Prezidentimiz, Ali Baş Komandanımız, ordumuz var. Erməni bu müharibədə artıq məğlub duruma düşüb. Bunu onlar da dərk edirlər. Düşmən Azərbaycan əsgəri ilə bacarmadığı üçün, sakinləri hədəf alır. Amma bu da işə yaramıyacaq, çünki Qələbə bizimdir".

Qeyd edək ki, Ermənistan ordusunun bölmələrinin atdığı bir neçə raket isə boş sahələrə düşüb və partlamayıb.

Xatırladaq ki, oktyabrın 5-də düşmənin Goranboy rayonunun yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutması səbəbindən yaşadığı evə top mərmisinin düşməsi nəticəsində Qızılhacılı kənd sakinləri 1955-ci il təvəllüdlü Abbasova Raziyə Bayraməli qızı həlak olub, eyni zamanda, top mərmisinin düşdüyü başqa bir yaşayış evinin sakinləri 1958-ci il təvəllüdlü Həsənov Məşdi İbrahim oğlu, sonuncunun qızı 1984-cü il təvəllüdlü Sevinc Həsənova və azyaşlı nəvəsi 2011-ci il təvəllüdlü Həsənov Elcan Elgün oğlu, boş sahəyə düşmüş top mərmisinin qəlpələrindən 1969-cu il təvəllüdlü Ələkbərov Rasim Nadir oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər.

# Ermənistan ağlını başına yığmalıdır

## Azərbaycan Ağsaqqallar Şurası Ermənistanın son hərbi təxribatları ilə bağlı bəyanat yayıb



**Azərbaycan Ağsaqqallar Şurası Ermənistanın son hərbi təxribatları ilə bağlı bəyanat yayıb.**

"İki sahil"in məlumatına görə, Azərbaycan Ağsaqqallar Şurasının sədri, deputat Eldar Quliyev AZƏRTAC-a bildirib ki, bəyanatda deyilir:

"Sentyabrın 27-də səhər saatlarında Ermənistan silahlı qüvvələrinin hərbi mövqelərimizlə yanaşı, yaşayış məntəqələrimizi müxtəlif növ silahlardan və artilleriya qurğularından atəşə tutaraq törətdiyi təxribatlara cavab olaraq Azərbaycan Ordusu cəbhəboyu genişmiqyaslı əks-hücum əməliyyatları aparmağa başlayıb. İşğal altındakı torpaqlarımızı azad etmək və ölkəmizin ərazi bütövlüyünü bərpa etmək kimi müqəddəs vəzifəni yerinə yetirmək üçün əməliyyatlara başlayan Silahlı Qüvvələrimiz qısa müddətdə düşmənə sarsıdıcı zərbələr endirib, böyük miqdarda döyüş texnikasını sıradan çıxarıb, çoxsaylı canlı qüvvəsini məhv edib və yaralayıb. Rəşadətli Ordumuz Cəbrayıl ilə yanaşı, rayonun 10-a yaxın kəndini, Tərtər, Ağdərə və Füzuli rayonlarının bir neçə yaşayış məntəqəsini mənfur düşmənlərdən təmizləyib, Suqovuşan, Murovdağ və bir sıra çox vacib strateji yüksəklikləri ələ keçirib.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Ordumuzun hərbi qüdrətinin artırılması, döyüş qabiliyyətinin yüksəldilməsi, maddi-texniki təchizatının möhkəmləndirilməsi istiqamətində apardığı məqsədyönlü siyasət nəticəsində dünyanın ən güclü orduları sırasında yer alan Silahlı Qüvvələrimiz əldə etdiyi uğurlarla Azərbaycan tarixinin şanlı səhifələrini yazır, xalqımıza qürur dolu anlar yaşadır.

2016-cı ilin aprel və 2020-ci ilin iyul döyüşlərində üzləşdiyi sarsıdıcı zərbələrdən nəticə çıxarmayaraq təxribatlar törətməkdə davam edən və Azərbaycan Ordusu qarşısında aciz duruma düşən, müqavimət göstərmək iqtidarında olmayan erməni hərbçiləri öz həmişəki xain xislətlərinə sadiq qalaraq yenə müharibə cinayətlərinə əl atır, itkilərinin əvəzini cəbhə xəttindən kənardakı yaşayış məntəqələrini artilleriya qurğularından və digər ağır silahlardan istifadə etməklə çıxmağa çalışır, dinc əhalini atəşə tutur, yaşayış binalarını və mülki obyektləri dağıdırlar. Hərbi münaqişəyə digər dövlətləri cəlb etməyə çalışaraq döyüş bölgəsindən kifayət qədər kənarda yerləşən Gəncə və Mingəçevir şəhərlərinə, Abşeron rayonu ərazisinə raket zərbələri endirən Ermənistan silahlı qüvvələri dinc əhaliyə qarşı qanlı cinayətlər törədərək beynəlxalq konvensiyaların tələblərini kobud şəkildə pozmaqdan çəkinmirlər.

Müharibənin qan-qadasız, itkisiz başa gəlmədiyini anlayışla qarşılasaq da, düşmənin təxribatları nəticəsində hərbçilərimiz və mülki əhalimiz arasında həyatını itirənlərin və yaralılarımızın olması bütün xalqımız kimi, ağsaqqalları da son dərəcə üzür. Biz qəhrəman şəhidlərimizə Allahdan rəhmət diləyirik, onların yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralılarımızın tezliklə sağalmasını arzulayırıq.

Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll olunması üçün Azərbaycan Respublikası rəhbərliyinin verdiyi şansdan istifadə etməyən, təxribatçı bəyanatları ilə sülh danışıqlarından yayınaraq status-kvonu saxlamağa cəhd göstərən Ermənistanı "ağlını başına yığmağa" məcbur etmək missiyası Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun üzərinə düşüb. Əminik ki, onlar bu missiyanı şərəflə yerinə yetirməklə xalqımızı 30 illik arzusuna qovuşduracaq, münaqişənin ədalətli həllinə nail olaraq ölkəmizin ərazi bütövlüyünü bərpa edəcək, məcburi köçkün soydaşlarımızın öz ata-baba yurdlarına qayıtmasını təmin edəcəkdir.

Bu şərəfli və məsuliyyətli günlərdə hamımız işğal altındakı torpaqlarımızın azad olunması, müstəqil dövlətçiliyimizin qorunması və daha da inkişaf etdirilməsi naminə Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında daha sıx birləşməliyik. Bu çətin dönəmdə biz ağsaqqallar gənclik enerjisi ilə fəaliyyət göstərməli, Vətənimiz uğrunda hazırki ölümdirim mübarizəsində hərəmiz öz mövqeyimizdə daha əzmlə çalışmalıyıq. Azərbaycanın şanlı tarixi boyu ən məsuliyyətli məqamlarda hər zaman xalqın önündə olmuş respublika ağsaqqalları torpaqlarımızın azadlığı uğrunda başlanmış bu müharibədə də yüksək döyüş ruhu ilə dövlətimizin, Silahlı Qüvvələrimizin və onun Ali Baş Komandanının yanındadırlar. Biz bu məsul günlərdə bütün xalqımızı milli həmrəylik göstərməyə, hər bir sahədə düşmənə layiqli cavab verməyə çağırırıq.

Bu gün Azərbaycan əsgərinin rəşadəti bizi o qədər ruhlandırıb ki, Respublika Ağsaqqallar Şurasının hər bir üzvü yaşından asılı olmayaraq, gənclərlə yanaşı döyüşə atılmağa, üzərinə düşən vəzifələri şərəflə yerinə yetirməyə hazırdır. Bu günlərdə hamımızın qəlbi dövlətimizin başçısının irəli sürdüyü "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" şüarı ilə döyünür. Qələbə bizimlədir, çünki bizim işimiz haqq işidir, biz Vətənimiz uğrunda, torpaqlarımızı işğaldan azad etmək üçün vuruşuruq! Biz əminik ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin başçılığı altında qüdrətli ordumuz işğal altındakı bütün torpaqlarımızı tezliklə azad edərək Vətənimizin ərazi bütövlüyünü təmin edəcək və şanlı bayrağımızı Şuşada, Xankəndidə dalğalandıracaqdır!

Allah şanlı Ordumuzu və Ali Baş Komandanımız İlham Əliyevi qorusun!".

*Tural Gəncəliyev:*

# ABŞ-da yaşayan soydaşlarımız 1165 saylı qətnamənin qəbuluna mane olmalıdırlar

Təmas xətti boyunca gedən döyüşlərdə Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatları, 30 ilə yaxındır düşmən tapdağı altında qalan torpaqlarımızın işğaldan azad edilməsi bütün ermənilərin və onlara havadarlıq edən dairələrin yuxusunu ərşə çəkib. Azərbaycan Ordusunu dayandırmaq məqsədilə başda Ermənistanın baş naziri Nikol Paşinyan olmaqla bütün rəhbər şəxslər öz səviyyələrində müxtəlif ölkələrin prezidentlərinə və beynəlxalq təşkilatlara çoxsaylı müraciətlər edirlər. Bu işdə xaricdə yaşayan erməni lobbisi xüsusi fəallıq nümayiş etdirir. Əldə etdiyimiz məlumata görə, ABŞ-da yaşayan erməni lobbisi Konqresdə Nümayəndələr Palatasının müzakirəsinə 1165 saylı qətnamə təqdim etməyi planlaşdırır. Qətnamənin həmmüəlliflərindən olan Jackie Speier məsələni Nümayəndələr Palatasının müzakirəsinə çıxarmaq üçün 46 Palata üzvünün dəstək imzasını alıb.



Tural Gəncəliyev söyləyib.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bu sözləri Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri, deputat Tural Gəncəliyev bildirib ki, torpaqlarımızın işğaldan azad edildiyi bir dönəmdə düşmənin bütün hərəkətlərinə hazır olmalıyıq. O deyib: "Erməni lobbisinin təşəbbüsü ilə Konqresdə Nümayəndələr Palatasının müzakirəsinə çıxarmağı planlaşdırdığı 1165 saylı qətnamənin müəllifləri erməni qrupunun həmsədrləri Jackie Speier və Frank Pallonedir. Bu şəxslər uzun illərdir ki, ABŞ-da hakimiyyət dairələrində Ermənistanın maraqlarını qoruyurlar. Onların hər ikisi həm də erməni soyqırımı ilə bağlı aktın sponsorlarıdır. Bildiyimiz kimi, ABŞ-da seçkilər dövrü yaxınlaşır. Belə bir məqamda qətnamə müəllifləri erməni seçicilərin səslərini qazanmaq üçün fəallıq göstərirlər".

T.Gəncəliyev diqqətə çatdırıb ki, sözügedən qətnamənin qəbulunun dayandırılması üçün ABŞ-da yaşayan soydaşlarımız bütün imkanlardan istifadə etməlidirlər. "Təxmini hesablamalara görə, ABŞ-da 40 min nəfər soydaşımız yaşayır. Hesab edirəm ki, soydaşlarımız yaşadıqları ərazidə yerli ştat və federal səviyyələrdə onları təmsil edən Nümayəndələr Palatasının üzvlərinə hazırkı durumla bağlı məlumatlar çatdırmalı, onlara məktublar ünvanlamalı, onlarla müxtəlif vasitələrlə əlaqə yaradıb 1165 saylı qətnamənin qəbulunun dayandırılmasına çalışmalıdırlar. Soydaşlarımız "Twitter" sosial şəbəkəsində də fəallıq nümayiş etdirməlidirlər. Bu gün ermənilərin bizə qarşı mübarizə apardığı hər bir sahə cəbhə xəttidir və biz bütün sahələrdə düşmənə zərbələr vurmalıyıq", - deyə T.Gəncəliyev qeyd edib.

## CEYHUN BAYRAMOV TÜRKİYƏYƏ TƏŞƏKKÜR EDİB

"Hörmətli dostum, qardaşım Mövlud Çavuşoğlunu Azərbaycanda salamlamaqdan məmnun oldum".

"İki sahil" "Report"a istinadən xəbər verir ki, bunu "Twitter"də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov yazıb.

"Ölkələrimiz hər zaman, sevincdə və kədərdə həmrəydir! Azərbaycanın beynəlxalq hüquq çərçivəsində haqlı mövqeyini dəstəklədiyi üçün qardaş Türkiyəyə təşəkkür edirik!", - o qeyd edib.

*İran XİN:*

## AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNƏ HÖRMƏTLƏ YANAŞIRIQ



Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyır və suverenliyinə hörmətlə yanaşırıq.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bu sözləri İran Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Səid Xətibzadə Tehranda keçirdiyi həftəlik mətbuat konfransında deyib. O bildirib ki, İran hərbi əməliyyatları diqqətlə izləyir və tərəflərlə əlaqə saxlayır.

## HİNDİSTAN ABŞ-da NEFT BAZASI YARATMAQ İSTƏYİR



Dünyanın üçüncü ən böyük neft idxal edən ölkəsi Hindistan digər mümkün ölkələrdə, xüsusilə ABŞ-da neft saxlama mənbələrini artırmağı planlaşdırır. Məlumatı ölkənin neft naziri Dharmendra Pradhan "Economic Times"a müsahibəsində açıqlayıb.

Qeyd edək ki, son illər Hindistan hökuməti ABŞ, Rusiya, Anqola kimi iri neft ixrac edən ölkələrlə neft təminatı ilə bağlı uzunmüddətli müqavilələr imzalayır. "Karbohidrogen mənbələrimizi diversifikasiyalaşdırmaqla hazırda 30 ölkədən neft idxal edirik",-deyə nazir bildirib.

İyul ayında isə Hindistan ABŞ-la ABŞ-ın neft anbarlarında neft saxlamaqla bağlı müqavilə də imzalayıb.

## NORVEÇDƏ HASİLAT AZALMAQDA DAVAM EDİR



Norveç kontinental şelfində neft kəşfiyyatı əməliyyatları ciddi şəkildə azalıb. Bu, əsasən neftin qiymətlərinin aşağı düşməsi ilə əlaqəlidir. Məlumatı "Westwood" neft və qaz bazarlarının tədqiqatı şirkəti açıqlayıb.

Əslində hazırkı çətin dövrdə bu heç də təəccübləndirici bir xəbər deyil. Son vaxtlar hətta dünyanın ən nəhəng neft-qaz şirkətləri belə yeni kəşfiyyat layihələrini təxirə salır, maliyyə xərclərini azaldırlar.

Norveç üçün kəşfiyyat xüsusi əhəmiyyət kəsb edir, çünki orada hasilatın başlıca hissəsi köhnə, işlək yataqlarda kiçik kəşflərdən əldə olunur.

Kəşfiyyatın azalması neftçilərin də vəziyyətini pisləşdirib. Ötən həftə 43 nəfərdən ibarət neftçi qrupu "Johan Sverdup" yatağı yaxınlığında tətilə başlayıblar.

Xatırladaq ki, Norveçin "Equinor" dövlət neft şirkəti ötən həftə dörd yatağı bağlamağa məcbur olub. Bununla Norveçin neft hasilatı 8 %, gündəlik hasilat 330 min barel aşağı düşüb. Gələn həftə "Neptune Energy" və "Wintershall Dea" şirkətləri tərəfindən işlənən daha iki yatağın bağlanması nəzərdə tutulub.

**Nubar Süleymanova, *"İki sahil"***

*Cəbrayıldan olan köçkün:*

## ORAYA BU SAAT AYAQYALIN GEDƏRƏM



“Dövlətimizdən də, Prezidentimizdən də çox razıyam. Cəbrayıl rayonunun bir çox kəndləri və Cəbrayıl şəhəri işğaldan azad edildikdən sonra sevinc göz yaşlarından gecə səhərə qədər yatmamışam”.

“İki sahil” Trend-ə istinadən xəbər verir ki, bunu Cəbrayıldan olan məcburi köçkün Musa Ağakişiyev doğulub boya-başa çatdığı Cəbrayıl rayonunun bir çox kəndləri və Cəbrayıl şəhəri işğaldan azad edildikdən sonra öz təəssüratlarını “PREZİDENT. Müstəqillik. Təhlükəsizlik. Rifah” adlı video layihəyə bildirərkən söyləyib.

O, işğal altında olan torpaqların geri alınmasına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür edib: “Bu xəbərdən sonra nə qədər dost-tanış var, hamısı zəng edib, telefonlarımız susmayıb. Rusiyadakı qardaşım neçə dəfə zəng edib, soruşur ki, Cəbrayıla gedirsən? Deyirəm ki, bu saat ayaqyalın gedərəm. O torpaqda biz doğulub boya-başa çatmışıq. Yaxşı təsərrüfatımız, şəraitimiz var idi”.

Cəbrayıldan olan digər məcburi köçkün Suğra Ağakişiyeva 1993-cü ildə rayondan çıxarıldıqlarını söyləyib:

“Ermənilər bizi mühasirəyə aldığı üçün Araz çayından keçmək məcburiyyətində qalmışdıq. Gərək o zaman da belə bir çəkiliş olardı və bunun tarix olduğunu görərdilər. Bu mənfur, faşist ermənilər böyüyə, kiçiyə baxmadılar, hər şeyimizi, evlərimizi yandırdılar. Çox çətin günlər yaşadıq. Amma bu gün mən Cəbrayıl rayonunun alınmasına görə sevinc göz yaşları axıtmışam, çox təsirlənmişəm. Mən Prezident İlham Əliyevə çox minnətdaram. Azərbaycan xalqı olaraq, çox xoşbəxtik ki, bizim belə bir Prezidentimiz var. O, bizə düşmən olan ölkələri də öz yerində oturtmaqla bu işi gördü. Əsgərlərimizə, Ordumuza minnətdaram. Şəhid olan oğullarımıza Allah rəhmət eləsin, yaralılara Allah cansağlığı versin”.

# Qürurlu ol, əsgər anası!





Məlum olduğu kimi, hazırda Bakı Slavyan Universitetində (BSU) “Qürurlu ol, əsgər anası!” layihəsi həyata keçirilir. Qeyd edək ki, bu layihənin məqsədi BSU-nun hazırda ön cəbhədə hərbi xidmətdə olan və erməni işğalçıları ilə döyüşən məzun əsgərlərinin ailələrinə mənəvi dəstək vermək, onlarla həmrəylik nümayiş etdirməkdir. Layihə çərçivəsində BSU-nun Beynəlxalq münasibətlər, regionşünaslıq və jurnalistika fakültəsinin rəhbərliyi fakültənin məzunları Murad Sadiqovun, Elvin Kazımlının və Rövşən Müslümzadənin valideynlərini ziyarət ediblər.

Görüş zamanı Beynəlxalq münasibətlər, regionşünaslıq və jurnalistika fakültəsinin dekanı, dosent Şirinbəy Əliyev, Tədris işləri üzrə dekan müavini, dosent Sevil Bağırova, Tərbiyə işləri üzrə dekan müavini Kəmalə Nəsirova və tyutor Leyla Həyatova məzun əsgərlərin valideynləri ilə həmrəy olduqlarını bildirərək məzunlarla qürur duyduqlarını xüsusi vurğulayıblar. Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı, rəşadətli Azərbaycan Ordusu erməni təcavüzkarlarının yeni hərbi təxribatına cavab olaraq genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatlarını davam etdirir. Azərbaycan Ordusu bir sıra yaşayış yerlərini, strateji postları və yüksəklikləri düşməndən azad edib. Azərbaycan xalqı mühüm tarixi günlər yaşayır. Xalqımızın ürəyi ön cəbhədə mənfur düşmənə sarsıdıcı zərbələr endirən igid əsgər və zabitlərimizlə birgə döyünür. Bütün xalqımız kimi, BSU-nun professor-müəllim heyəti və tələbə-gəncləri də başda Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, partiyanın Qadınlar Şurasının sədri, professor Nurlana Əliyeva olmaqla, dövlət və ordu ilə birlik nümayiş etdirir. Hər birimiz düşmən üzərində tam və qəti qələbəni əminliklə gözləyirik. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dediyi kimi, “Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun!” Qarabağ Azərbaycandır! Yaşasın öz şərəfli və müqəddəs missiyasını uğurla həyata keçirən Azərbaycan Ordusu!

Görüş zamanı məzun əsgərlərin ailələrinə sovqat verilib, eləcə də onların universiteti bitirmələri haqqında diplomları valideynlərinə təqdim edilib. Görüş hamıda xoş təəssürat, yüksək əhvali-ruhiyyə yaradıb.

## *Çavuşoğlu:* Bir milyondan artıq azərbaycanlı qardaşımız öz evlərinə dönmək üçün gözləyir



Azərbaycanın öz torpaqlarını azad etdiyi bir dönəmdə bir daha təkrar edirəm ki, Bakıya Azərbaycana dəstək üçün gəldim, hər zaman Azərbaycanın yanında olacağıq.

Bunu Türkiyə Xarici İşlər naziri Mövlud Çavuşoğlu Azərbaycan Xarici İşlər naziri Ceyhun Bayramovla görüşdən sonra keçirilən mətbuat konfransında deyib.

Nazir bildirib: “Bir daha bütün dünyaya demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycanındır. İşğal olunmuş ərazilər azad edilməyib və bu günə qədər qəbul edilmiş qətnamələr yerinə yetirilməyib. Bir milyondan artıq azərbaycanlı qardaşımız öz evlərinə dönmək üçün gözləyirlər. Ermənistan bir sıra yaşayış məntəqələrinə hücum edib. Küncəsıxılan Ermənistan yaşayış yerlərinə atəş açır, hətta Abşerona belə atəş açıb. Bu hərbi cinayətdir, Ermənistanın çarəsizliyinin göstəricisidir. Azərbaycan isə heç bir zaman mülki vətəndaşları hədəf almayıb. Bu da Ermənistanla Azərbaycanın əsas fərqidir”.

## *Polkovnik:* Ermənilər məğlubiyyətlərini ört-basdır etmək üçün sərsəmləyir



Ermənistanın hazırkı acınacaqlı vəziyyətinə baxanda adam dəhşətə gəlir. “İki sahil”in məlumatına görə, bunu Trend-ə açıqlamasında ehtiyatda olan polkovnik, hərbi ekspert Üzeyir Cəfərov deyib.

O bildirib ki, Ermənistan hakimiyyəti bu vəziyyətdə də xalqını, ordusunu fəlakətə sürükləyir: “Hətta iş o yerə çatıb ki, onların dinə qulluq edən adamları da əllərinə silah götürüblər. Hazırda Ermənistanda elə bir acınacaqlı vəziyyət, xaos hökm sürür ki, bunu sözlə ifadə etmək çox çətindir. Hətta qondarma rejimin bir mətbuat katibi var, Vaqram Poqosyan deyir ki, guya onlar Dağlıq Qarabağda terrorizmə qarşı mübarizə aparırlar. Bütün dünya bunları terrorçu kimi tanıyır, hələ utanmadan Azərbaycan və Türkiyəni “cəzalandıracaqlarını” deyirlər. Olmayan məsələləri uydururlar”.

Hərbi ekspert deyir ki, Ermənistan dünən ilk dəfə geri çəkildiklərini etiraf etdikdən sonra özlərini sığortalamaq üçün axmaq bir bəyanatla çıxış ediblər: “Geri çəkiliblər, uğursuzluqlarını bilmirlər necə ört-basdır etsinlər, bəyanat yayırlar ki, guya bunlar taktiki gediş edib geri çəkilib, Azərbaycan Ordusunu pusquya salırlar. Guya 200 nəfər hərbçimizi tələyə salıblar. Elə sərsəmləyirlər ki, guya Azərbaycan əsgəri dayanıb, bunlar da vurublar. Bu artıq erməni tərəfin son çırpıntılarıdır. Gecə saatlarında Paşinyan yenə harasa zəng vurub kömək istəyib. Onlar istəyirlər ki, atəşkəs olsun. Çünki artıq onların yaydıqları köhnə və keyfiyyətsiz videolar, yalan məlumatlar da onları xilas etmir. Bu gün bəzi qüvvələr Ermənistan tərəfdən aktiv hərəkətə keçəcəklər ki, vəziyyəti durdursun. Amma cənab Prezident açıq şəkildə dedi ki, biz 30 il idi ki, ermənilərə şans verdik ki, beynəlxalq hüququn Azərbaycanın tərəfində olduğunu başa düşsün. İndi artıq bizim gözləmə limitimiz bitib, Azərbaycan əsgəri üzərinə düşəni edir”.

Polkovnik bildirir ki, Prezident İlham Əliyev müsahibəsində qaranlıq qalan bütün məsələlərə aydınlıq gətirdi: “Ermənilərin bundan sonra nə edəcəyindən asılı olmayaraq Azərbaycan əsgəri yaxın günlərdə zəfər anlarını Azərbaycan xalqına yaşadacaq”.

## YEREVANDA DÖVLƏT ÇEVRİLİŞİ HAZIRLANIR



Ermənistan qoşunlarının işğal olunmuş Qarabağ ərazisində məğlubiyyəti, eləcə də Bakının sentyabrın 27-dən başlayaraq endirdiyi zərbələr Nikol Paşinyan rejimini süqutla üz-üzə qoyub. Çoxsaylı insan və ərazi itkiləri barədə həqiqətləri gizlətməsinə baxmayaraq, “Qarabağ miatsumu” ideyasının çökməsi barədə məlumat ictimaiyyətə məlum oldu və məyusluq yaratdı.

Ötən gün baş nazir Paşinyan çağırışa düşməyən şəxsləri könüllü şəkildə orduya yazılmağa çağırıb. O deyib ki, “münaqişə zonasında bəzi sahələrdə ağır vəziyyət yaranıb”. Hökumətdən kütləvi narazılığı qızışdıran amillərdən biri də Azərbaycanın işğal olunmuş ərazilərini tərk edərək Yerevana yollanan və bununla şəhərdə gərginliyi artıran Qarabağ ermənilərinin axınıdır. Bu şəraitdə Qarabağ məğlubiyyətinin günahkarı olan baş nazir Paşinyanın ünvanına tənqidlər artmaqdadır.

Bu məsələdə Paşinyanı onun əsas rəqibi, “Qarabağ klanı”nın lideri, Ermənistanın sabiq prezidenti Robert Koçaryan açıq-aşkar tənqid edir. O, Azərbaycan Silahlı Qüvvələrinin antiterror əməliyyatına başlamasından dərhal sonra keçmiş müdafiə naziri Seyran Ohanyan və Baş qərargahın keçmiş rəisi Yuri Xaçaturovla birgə Xankəndiyə gəldi və burada öz tərəfdarları ilə, xüsusilə də separatçıların keçmiş rəhbərləri Arkadi Qukasyan və Bako Saakyanla görüşlər keçirdi. Bu şəxslər də Paşinyan rejiminin dəyişməsində maraqlıdır. Belə ki, Paşinyan hakimiyyətə gəldikdən sonra başlayan cinayət işi çərçivəsində Koçaryan, Xaçaturov, Ohanyan və “Qarabağ klanı”nın digər üzvləri 1 mart 2008-ci il hadisələrində ittiham olunub.

Məlumdur ki, Koçaryanın Yerevan həbsxanasından təminat qarşılığında azad edilməsində Rusiya amili rol oynayıb. Bu baxımdan, Koçaryanın Qarabağdan Yerevana qayıtması və Rusiya səfiri il görüşü düşünməyə əsas verir ki, ölkədə hakimiyyət uğrunda mübarizə özünün gərgin mərhələsinə qədəm qoyur. Diplomatik mənbələr məlumat verir ki, Rusiyanın baş naziri Mixail Mişustinin rəhbərliyi ilə böyük nümayəndə heyəti Ermənistana səfər edəcək. Ermənistan XİN-in mətbuat katibi Anna Naqdalyan bildirib ki, səfərin məqsədi oktyabrın 9-da Ermənistanda keçiriləcək Avrasiya İqtisadi Şurasının iclasına hazırlıqdır. Amma düşünməyə əsas var ki, Koçaryanın hərbi əməliyyatların gərgin vaxtında Qarabağdan Ermənistana getməsi, eləcə də Rusiya nümayəndəsinin səfəri Yerevanda daxili siyasi dəyişikliklərlə, xüsusən də baş nazir Paşinyanın istefası ilə əlaqədardır.

**Elxan Ələsgərov**

*Professor:*

# Ön cəbhəyə əlimizdən gələn köməyi etmək üçün sağlamlığımızın qeydinə qalmalıyıq

***Artıq bir müddətdir ki, ölkədə koronavirusa yoluxma halları, epidemik vəziyyət tam nəzarət altındadır. Gündəlik yoluxma əsasən 100-150, bəzi günlərdə isə daha az olur. Bu, bir tərəfdən görülmüş işlərin, digər tərəfdən vətəndaşların qoyulan qaydalara riayət etməsinin nəticəsidir. Yoluxma sayları azaldıqca, vəziyyət daha da stabilləşdikcə Nazirlər Kabineti yanında Operativ Qərargah vaxtaşırı yumşalma tədbirləri tətbiq edir. Yumşalma tədbirlərinin sayı artdıqca qorunma tədbirlərinə daha ciddi əməl olunmalıdır. Maskadan istifadə, məsafənin saxlanılması, əl gigiyenasına əməl olunması yenə də gündəmdədir. Yoluxma saylarının azalması ilə tam sərbəst olmağı düşünmək və arxayınlaşmaq olmaz. Çünki virus bizim aramızdadır, o, heç yerə getməyib. Yoluxma saylarında artımın olmamasına çalışmalıyıq. Çünki bu, arzuolunmaz nəticələrə səbəb olur, ağır xəstələrin, xəstəxanaya yerləşdirilənlərin sayı artır. Ona görə də hamımız çox diqqətli olmalıyıq.***

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyəti yanında tibbi-elmi komitənin sədri, professor Akif Qurbanov deyib.

O, həmçinin bildirib: "Hazırda müharibə dövrünü yaşayırıq. Bizim şanlı ordumuz tarixi qələbələr qazanır. Müharibədə ön və arxa cəbhələr mövcuddur. Ön cəbhədəki qələbələr müəyyən qədər arxa cəbhədən də asılıdır. Arxa cəbhədə tam gücümüzlə fəaliyyət göstərmək və ön cəbhəyə əlimizdən gələn köməyi etmək üçün gərək öz sağlamlığımızı qoruyaq. Arxa cəbhədə problemlə üzləşsək, əlavə çətinliklər yarana bilər. Digər tərəfdən müharibə zamanı yaralılar da olur. Onların müalicəsi xəstəxanalarda aparılır. Biz elə etməliyik ki, xəstəxanalar koronavirus xəstələri ilə yüklənməsin. Bu səbəbdən qorunma tədbirlərinə daha ciddi əməl etməliyik.

Bildiyimiz kimi, oktyabrın 1-dən V-IX siniflər əyani təhsilə başlayıblar. Bu, təmasların artması deməkdir. Qorunma tədbirlərinə əməl olunmasa, təmasların artımı yoluxma saylarına da təsir edə bilər. Elə etməliyik ki, təmaslar yoluxma saylarına ciddi təsir etməsin, məktəblər daimi açıq qalsın, şagirdlər gündəlik dərslərinə davam edə bilsinlər, sonradan yenidən qapanmalara getməyək.



Burada valideyn və müəllimlərin üzərinə məsuliyyət düşür. Onlar hər gün məktəblilərin necə davranmalarını onlara başa salmalı və buna nəzarət etməlidirlər. Doğrudur, koronavirus məktəblilərdə ciddi problemlər törətmir. Lakin onların xəstəlikdə infeksiya mənbəyinə çevrilmə təhlükələri narahatlıq doğurur. Məktəbdə yoluxmuş uşaq evdə ailə üzvlərini xəstələndirə bilər. Nəticədə yoluxmaların sayında artma müşahidə oluna bilər. Ona görə də qaydaları bilməyən şagirdlərə bunlar öyrədilməlidir. Yaxşı olardı ki, ilk dərs günlərində, ilk dərs saatlarında müəllimlər şagirdlərinə virus haqqında danışsınlar. Belə yanaşsaq, məktəblərin fəaliyyəti daimi ola bilər, heç bir əlavə məhdudiyyətə ehtiyac yaranmaz. Müntəzəm olaraq məktəb yaşındakı uşaqlar üçün maarifləndirici tədbirlərin görülməsi vacibdir".

Professorun sözlərinə görə, pandemiya uzun müddət davam edə bilər: "Ola bilər ki, biz bununla gələn il də məşğul olaq, profilaktik tədbirlər aparaq. Əhalinin böyük əksəriyyətində, təxminən üçdə iki hissəsində tam immunitet yaranır, ondan sonra virus aramızdan gedir. Hesab edirəm ki, gələn yaya qədər biz bəzi problemlərlə üzləşə bilərik. Lakin ondan sonra bunun bizi ciddi narahat edəcəyini düşünmürəm".

*Hüseyn Paşayev:*

## YAP-ın rayon, şəhər təşkilatları və fəalları Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyasını davam etdirir



Yeni Azərbaycan Partiyasının (YAP) rayon, şəhər təşkilatları və fəalları Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyasını davam etdirir.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bunu Yeni Azərbaycan Partiyasının mətbuat xidmətinin rəhbəri Hüseyn Paşayev deyib.

Hüseyn Paşayev Yeni Azərbaycan Partiyasının İcra Katibliyi tərəfindən Silahlı Qüvvələrə Yardım Fonduna 100 min manat vəsaitin köçürülməsindən sonra bu vətənpərvər aksiyanın partiyanın rayon, şəhər təşkilatları tərəfindən coşqu ilə davam etdirildiyini bildirib. Qeyd edib ki, təkcə rayon təşkilatlarının deyil, sıravi partiya üzvlərinin də fərdi şəkildə iştirak etdiyi bu aksiyanın ali məramı Milli Ordumuza həm də mənəvi dəstəyin ifadəsidir.

O deyib : Azərbaycan Ordusu işğal altındakı ərazilərimizin azad olunması istiqamətində rəşadətli döyüşlər aparır. Biz çox yaxın zamanlarda torpaqlarımızın işğaldan təmizlənməsi sevincini bütün xalqımızla birgə yaşayacağıq. Bu gün hər bir Azərbaycan vətəndaşı Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevə, onun təmkinlə, müdrikliklə və uzaqgörənliklə qurduğu Azərbaycan Ordusunun gücünə, iradəsinə, əsgərlərimizin qəhrəmanlığına və yüksək döyüş ruhuna əmindir. Bu gün hər birimiz Ordumuzla bərabərik, bir yerdəyik, hər addımda ona mənəvi dəstəyimizi ifadə edirik.

Qarabağ Azərbaycandır!

Biz birlikdə güclüyük!".

## Erməni əsgərinin acınacaqlı durumu



Ermənistan ordusunda pərakəndəlik baş alıb gedir. Bu həm ordunun toparlanmasında, həm maddi texniki təchizatında özünü göstərir.

Ermənistan KİV-in cəbhə bölgəsində yerləşən hissələrindən hazırladığı videoreportajlarda onların əsgər və zabitlərinin geyimlərində, silah-sursatlarında çatışmazlıqların olduğu açıq-aşkar görünür.

Görüntülərdə düşmən hərbçilərinin hərbi intizam qaydalarına uyğun olmayan görkəmləri və mülki geyimlərdən istifadə etməsi yer alıb. Bu isə Ermənistan tərəfinin təşviş içində olduğunu, öz vətəndaşlarını tələskənliklə cəbhəyə cəlb etməsini bir daha təsdiq edir.

"Report" erməni əsgərinin acınacaqlı durumda olduğunu sübut edən kadrları təqdim edir.

## ERMƏNİSTAN PARLAMENTİNDƏ JURNALİST DÖYÜLÜB



Ermənistan parlamentində deputatlar - Kristina Poqosyanla Artur Ovannisyan "5-ci kanal" TV-nin jurnalistinə peşə vəzifəsinin icrası zamanı fiziki təzyiq göstəriblər. "Report" "News.am"a istinadən xəbər verir ki, bunu telekanalın direktoru Arutyun Arutyunyan "Facebook" səhifəsində yazıb.

O qeyd edib ki, deputat iki dəfə jurnalistin əlindəki mikrofona vuraraq ünvanına hədələyici ifadələr işlədib: "Bundan sonra jurnalist vəzifəsinin icrasını dayandırıb". Telekanalın direktoru hadisə ilə bağlı Baş Prokurorluğa şikayət etdiklərini bildirib.

## Təcavüzkar Ermənistanın Bakı-Tbilisi-Ceyhan neft kəmərini hədəfə alan terror cəhdinin qarşısı alınıb

Təcavüzkar Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə işğalçı ölkənin silahlı qüvvələri oktyabrın 6-da saat 21 radələrində regionun ən böyük strateji layihəsi, Avropanın enerji təhlükəsizliyi sahəsində mühüm yer tutan Bakı-Tbilisi-Ceyhan neft kəmərini hədəfə almaqla kəmərin Yevlax rayon ərazisindən keçən hissəsinə raket zərbələri endirsə də, Ordumuzun qətiyyətli tədbirləri nəticəsində həmin terror cəhdinin qarşısı alınıb.

Bundan başqa, düşmən ölkənin silahlı qüvvələrinin yaşayış məntəqələri və silahsızlaşdırılmış zonalar, habelə hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən obyektləri, o cümlədən mülki əhalini hədəfə almaqla oktyabrın 6-da saat 21 radələrində Tərtər rayonunun müxtəlif istiqamətlərdə intensiv atəşə tutması nəticəsində rayonun Qaynaq kənd sakini 1981-ci il təvəllüdlü Məmmədov Həsən Asif oğlu həlak olub, həmin kənd sakini 1989-cu il təvəllüdlü Əliyev Dəyanət Qənimət oğlu və Köçərli kənd sakini 1968-ci il təvəllüdlü Həsənov Seyfulla Yaqub oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən hadisə yerində zəruri istintaq tədbirləri həyata keçirilir.

*Zaqatala ziyalısı:*

## Xalqımızın sarsılmaz birliyi düşmənin rüsvayçı məğlubiyyəti ilə tamamlanacaq



Şanlı Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızın mənfur düşməndən azad edilməsi üçün işğalçılara bir-birinin ardınca sarsıdıcı zərbələr vurur. Ordumuzun qələbə əzmi erməni işğalçılarını lərzəyə salmaqda davam edir. Hər saat, hər gün uzun illər səbirsizliklə gözlədiyimiz qələbə xəbərlərini alırıq. Rəşadətli ordumuz qısa müddətdə çox mühüm strateji yüksəklikləri, Cəbrayıl şəhərini və rayonun bir sıra kəndlərini, eləcə də Tərtər istiqamətindəki Suqovuşan yüksəkliyini, Talış kəndini, Füzuli istiqamətində bir neçə kəndi işğaldan azad edib. Azərbaycan xalqı Qarabağı mənfur düşməndən azad etmək əzmini və iradəsini ortaya qoyub. İndi heç bir qüvvə bizi bu tarixi mücadiləmizdən çəkindirə bilməz.

**Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində "Zaqatala" qəzetinin redaktoru, Əməkdar mədəniyyət işçisi İbrahim İbrahimov söyləyib.**

Qəhrəman ordumuzla qürur duyduğunu vurğulayan rayon ziyalısı deyib: "Torpaqlarımızın düşmən işğalından tamamilə azad olunacağı, üçrəngli bayrağımızın Şuşada, Xankəndidə, digər yurd yerlərimizdə əzəmətlə dalğalanacağı artıq bir həqiqətə çevrilir. Xalqımızın sarsılmaz birliyi, yüksək vətənpərvərliyi düşmənin rüsvayçı məğlubiyyəti ilə tamamlanacaq. Bizim yolumuz haqq yoludur, torpaqlarımızın düşmən işğalından azad edilməsi yoludur. Bu yolda böyük hünər və cəsarət göstərən ordumuz şanlı tarix yazır. Bu tarixin hər səhifəsi şan və şöhrətlə süslənib".

Rayon ziyalısı bildirib ki, döyüş meydanında ciddi məğlubiyyətlərlə üzləşən xain düşmən öz alçaq və barbar xislətini bir daha nümayiş etdirir. Dinc əhalini hədəfə alaraq cəbhəyanı və digər yaşayış məntəqələrimizə intensiv artilleriya və raket zərbələri endirir, beynəlxalq hüququn və konvensiyaları açıq-aşkar tapdalayır. Mülki əhalimiz arasında xeyli sayda ölən və yaralananlar var. Yaşayış binalarına, infrastruktura ciddi ziyan deyib. Erməni vəhşilərinin bu alçaq hərəkətləri vətəndaşlarımızın dəyanətini əsla sarsıda bilmir.

İbrahim İbrahimov deyib: "Çox təəssüf ki, beynəlxalq təşkilatlar, bəzi dövlətlər baş verən bu vandalizm hərəkətlərini görməməzlikdən gəlirlər. Fransa kimi təcavüzkar dövləti dəstəkləyən qüvvələr özlərinin insanlığa qarşı törətdikləri qırğınları unudaraq, haqq işimizə hər vəchlə mane olmağa çalışırlar. Bu haqq və ədaləti tapdalayanlar unutmasınlar ki, xalqımız mənfur düşməni torpaqlarımızdan birdəfəlik qovub çıxaracaq. Güclü dövlətimiz və rəşadətli ordumuz hər zaman vətəndaşlarımızın arxasındadır, onların həyatlarını etibarlı şəkildə qorumaq qüdrətindədir. Düşmən nə qədər vəhşiləşsə də, heç bir məqsədinə çatmayacaq. Qələbə bizimdir! Qarabağ Azərbaycandır!"

# BÖYÜK MİLLİ-SİYASİ İRADƏDƏN HƏRBİ QÜDRƏTƏ DOĞRU

Son günlər Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki qoşunların təmas xəttində gərginlik artmış, beynəlxalq hüquqi normativlərə məhəl qoymayan erməni terrorçuları mülki əhaliyə və hərbi qulluqçularımıza qarşı amansız şəkildə hərbi əməliyyatlar həyata keçirmişdir. Bu qeyri-qanuni hərəkətlər qarşılığında Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin atdığı qətiyyətli addımlar və verdiyi tapşırıqlar bütün ölkə vətəndaşları tərəfindən birmənalı olaraq böyük rəğbət hissi ilə qarşılanmışdır. Bu, böyük milli-siyasi iradədən hərbi qüdrətə doğru atılan cəsarətli addım - yeganə çıxış yolu idi.

Biz neçə illərdir ki, bu gün üçün səbr etmişik: göz yaşımızı, nifrətimizi içimizdə boğub, ancaq Prezidentimizə arxalanaraq bu məqamı gözləmişik. Gözləmişik ki, canımız-qanımız bahasına olsa belə, bu dəfə də şanlı tarix yazaq. 30 il öncə dövlət müstəqilliyimizin bərpası uğrunda bütün dünyaya azadlıq dərsi keçmiş ölkəmiz bu gün Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq aləmə haqq-ədalət və qəhrəmanlıq dərsi verir. 30 il ərzində xalqımızın və dövlətimizin aşıb-daşmış səbr kasası bu gün yalançı vədlərə, ikiüzlü siyasi oyunlara məhəl qoymur. Bu gün rəşadət və qəhrəmanlıq timsalına dönmüş Qarabağ savaşı əslində son 30 ilin deyil, son iki əsrdə ölkəmizin ərazisini qəsb edən, xalqımızı soyqırıma məruz qoyan erməni təcavüzünə və vandalizminə qarşı aparılan milli mübarizədir. Bu mübarizə erməni terroruna qarşı illərdir içimizdə yığılan və aşıb-daşan “SƏBR”in savaş gücünə çevrilməsidir. Bu elə bir “səbir” gücüdür ki, milyonlarla soydaşımızın qısas hissi ilə yoğrulmuşdur. İllərdir ki, biz hamımız bu mübarizə eşqi ilə - torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda savaşmaq arzusu ilə alışıb-yanmışıq. Və artıq zaman yetişib. Bu gün “sözlərin kağız üstündəki sənədlər”də deyil, “qılıncların ər meydanında” görüşdüyü, SƏBRİN haqq uğrunda mücadiləyə döndüyü ZAMANDIR.

Hər dəfə olduğu kimi, bu gün də erməni təxribatının qarşısını almaq və torpaqlarımızı işğaldan azad etmək uğrunda cənab Prezidentin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusu işğalçı tərəfə lazımi dərs verir. Ordumuz tam şəkildə hərbi və mənəvi üstünlük əldə edərək, düşmənə sarsıdıcı zərbələr endirir. Bu şücaətin nəticəsidir ki, cəbhə xəttində baş verən mübazirədə düşmənin çox sayda canlı qüvvəsi və hərbi texnikası darmadağın edilmişdir.

Bu gün xalqımız öz Prezidentinin yanındandır və hər bir vətən oğlu Onun əmri ilə topraqlarımız uğrunda canından keçməyə hazırdır. Cənab Ali Baş Komandanın xalqımıza müraciəti, BMT-nin 75 illiyinə həsr edilmiş iclasda dərin məzmunlu çıxışı və Rusiyanın “Rossiya 1” telekanalına verdiyi müsahibədə səsləndirdiyi fikirlər, Azərbaycan xalqının maraqlarının əks etdirən haqlı və kəskin mövqeyi bizim hər birimizdə Böyük Qələbəyə inam hissini daha da artırıb.

Son bir neçə gündə əldə etdiyimiz üstünlük vətəndaşlarımızda işğal altında olan torpaqlarımızın son qarışınadək geri alınacağına bir daha böyük əminlik yaradır. Ölkəmizdə ordu-xalq-iqtidar birliyi, insanlarımızın vətənpərvərlik ruhu, əsgərlərimizin döyüş əzmi, Ali Baş Komandanımızın qətiyyəti Böyük Qələbə Gününün heç də uzaqda olmadığını şərtləndirir. Əminik ki, üçrəngli bayrağımız tezliklə işğal altında olan ərazilərimizdə: Şuşada, Xankəndində, Kəlbəcərdə, Laçında, .... dalğalanacaq.

✍ **Elçin Məmmədov,**
BDU-nun Filologiya fakültəsinin dekanı

# Alimlər Ali Baş Komandanın çağırışlarına hazırdır

Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun alimləri ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə müraciət ünvanlayıblar.

**Müraciətdə deyilir:**

*“Möhtərəm Ali Baş Komandan!*

*Azərbaycan xalqı öz qəhrəmanlıq tarixinin müasir mərhələsini yazmaqdadır. Bu mühüm tarixi fürsət Sizin -Azərbaycan xalqının güvənc və fəxr yeri olan İlham Heydər oğlu Əliyevin rəhbərliyi altında müzəffər ordumuz işğal olunmuş torpaqlarımızın azad olunması kimi şərəfli missiyanı həyata keçirir. Bugünkü Vətən təəssübkeşliyiniz, onun and yerimizə çevrilməsi və bölünməzliyi uğrunda onilliklər boyu gərgin siyasi mübarizəniz tariximizin şanlı səhifəsidir. Fəxrlə deyə bilərik ki, bu iradə hər birimizin bir amal, bir məqsəd, bir ideya ətrafında sarsılmaz birliyini yaratmışdır. Odur ki, milli təəssübkeşliyinizin və planetar təfəkkürünüzün uğurlu nəticələrini sosial mənsubiyyətindən aslı olmayaraq hər bir Azərbaycan vətəndaşı dərk edir, özünün mübarizə yoluna cevirir. Bu gün Vətən uğrunda mübarizədə ümumxalq izdihamı da xalqla-siyasi lider birliyinin təzahürüdür.*

*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun coxsaylı ziyalı kollektivi hər zaman Sizin ideyalarınızdan irəli gələn vəzifələrin yerinə yetirilməsini məqsəd olaraq qarşıya qoymuş, bu gün də öz potensialını səfərbər edərək Ali Baş Komandanın bütün cağırışlarına hazırdır!!!*

*Qarabağa aparan yolu Sizinlə getdiyimiz üçün qürur duyuruq!*
*QARABAĞ AZƏRBAYCANDIR!”*

# Müdrik siyasi xadimin qətiyyəti xalqın xilaskarlıq missiyasını müəyyən edir

Qüdrətli siyasi lider amili hər zaman xalqın varlığı, onun özünütəsdiq əzminin ifadəsi olub. Ona görə də xalqla müdrik siyasi liderin vəhdəti bütün dövrlərdə uğurlu mübarizəni şərtləndirən vacib amildir. Bu gün bir sıra xalqlar zəngin ehtiyatlara, qədim ənənələrə malik olsalar belə, onun iradəsini ifadə edən siyasi liderin olmaması xalqın tarixi taleyini sual altında qoyur. Qlobal dünyanın çağırışlarına cavab vermə anında müstəqil dövlətçilik strategiyasının dayaqlarını, onun qarşıya qoyduğu hədəfləri müəyyənləşdirə bilmir. Odur ki, xalqın müqəddəratının həll edilməsi anında müdrik siyasi xadimin verdiyi qərarlar xilaskarlıq missiyasını müəyyən edən ən mühüm amildir. Tarixin həlledici anında müstəqilliyimizin əldə edilməsi ilə Azərbaycan xalqının müdrik iradəsi güclü siyasi liderlə xalqın vəhdətini bir arada birləşdirdi. Dahi siyasi xadim Heydər Əliyevin müdrikliyi Azərbaycan xalqının nicat yolunun və güclü dövlətçilik strategiyasının lokomotivinə çevrildi. Bu strategiya dövlətçilikdə irs və varislik əlaqələrinin Prezident İlham Əliyevin möhkəm siyasi iradəsi və planetar təfəkkürlu düşüncələri ilə möhkəmlənmiş, qüdrətli Azərbaycanın dövlət strategiyasını müəyyənləşdirmişdir.

Yaxın tariximizin aci həqiqətləridir ki, SSRİ-nin süqutu ilə dünyanın siyasi arenasına yeni şəraitdə, yeni formatda cərəyan edən erməni şovinizmi, separatizmi, vandalizmi kimi ən dəhşətli terminlər daxil olmağa başladı. Erməni sindromu ilə bir arada dünyada öz himayədarlarını tapan belə ocaqlar bəşəriyyəti uçurum qarşısına gətirməklə yanaşı, həlli dalana dirənmiş münaqişə ocaqlarını, milyonlarla insanların faciəsinə səbəb olmuş ərazi və milli etnik münaqişələri daha da dərinləşdirmişdir.

Bu gün nə qədər agır olsa belə deməliyik ki, bəşəriyyətin təhlükəsizliyinə təhdid olan bu bəla ilə müstəqilliyimizin ilk vaxtlarından Azərbaycan dövləti və xalqı mübarizə aparmaq məcburiyyətində qalmışdır. Bu mübarizədə isə beynəlxalq siyasətə təsir etmək, ermənilər tərəfindən əvvəlcədən yaradılmış qərəzli informasiya blokadasını yarmaq, həqiqətləri sübut və qəbul etdirmək təbii ki, qlobal və planetar siyasi təfəkkürün gücü ilə mümkün olmuşdur. Bu əzmkarlıq, möhkəm iradə, milli təəssübkeşlik, dünyada hümanizm prinsiplərini qorumaq cənab İlham Əliyev fenomeni ilə bir arada öyrənilməli, dərk edilməlidir.

Azərbaycan dövləti öz strateji xəttini son 30 ildə dünyada sülh və sabitliyin qorunmasına dair çağırışları, bəyanatları ilə həyata keçirməkdədir. Lakin beynəlxalq aləmin Ermənistanın və onun kimi terrorçu rejimlərin siyasətinə göz yumması, ona rəvac verməsi bir daha göstərir ki, bu gün də dünya ikili standartların buxovunda boğulmaqdadır. Əgər təkcə 1990-cı illərdən bəri Ermənistanda hakimiyyətə gəlmiş rejimlərin xarakterinə baxsaq, cinayətkarlıq, diktatorluq, düşmənçilik, nifrət və terrorçuluq əməllərinin hələ də hökm sürdüyünün şahidi oluruq. Bu rejim Azərbaycanın Dağlıq Qarabağ kimi tarixi torpağı ilə bağlı təcavüzkar siyasətini müxtəlif vaxtlarda müxtəlif formatlara dəyişməklə münaqişənin həll olunmasına maneə törətməkdədir. 2018-ci ilə qədər olan dövr göstərdi ki, bu illər ərzində müxtəlif səpkili danışıqlar aparılıb, müxtəlif sənədlər qəbul edilmişdir. Bu mərhələdə tərəflər hansısa razılaşmaya yaxın olmaq məqamında qarşı tərəf mövqeyini dəyişərək öz işğalçı əməllərinə haqq qazandırmağa cəhdlər etmişdir. Paşinyanın hakimiyyətə gəlişi ilə isə işğalçı rejim danışıqlar prosesində destruktiv mərhələ yaratmaqla kiçik və irimiqyaslı təxribatlar törədərək siyasi riyakarlıq etmə yolunu tutmuşdur. Bu avantürist siyasətin əsas məqsədi isə danışıqlar prosesini dalana dirəmək, status-kvonu möhkəmlətməyə nail olmaq idi. Bunun ardınca 2019-cu ildə Paşinyan qanunsuz olaraq qondarma “Artsax” adı qoyduqları Dağlıq Qarabağın Ermənistan olduğunu bildirmiş, əslində danışıqlar prosesinə növbəti zərbə vurulmuşdur. 2020-ci ilin mart ayında Dağlıq Qarabağda keçirilən qondarma “seçkilərlə” bağlı qondarma “andiçmə” mərasimini Azərbaycanın qədim şəhəri Şuşada keçirməklə terrorçu rejim danışıqlar prosesini tamamilə iflic etmişdir. Bütün bunların gedişini və mahiyyətini Azərbaycan Prezidenti İlham Əliyev müntəzəm olaraq dünya dövlətlərinə və onların rəhbərlərinə çatdırmış, izah etmiş və haqlı tələblər qoymuşdur. Ancaq indiyədək belə özbaşınalığa və təhlükəli tendensiyaya beynəlxalq qurum, yaxud dövlətlərin tutarlı mövqeləri ortaya qoyulmamışdır. Onun qarşısının alınmasına dair konkret əməli qərar qəbul edilməmişdir. Deməli, Azərbaycanın işğala, terrora məruz qalmasında da məhz bu rejimlərə havadarlıq edənlərin rolu vardır. Hətta bir neçə gün öncə BMT Baş Assambleyasında çıxış zamanı Prezident İlham Əliyev Ermənistanın təxribatları və bu rejimin yenidən müharibəyə hazırlaşması haqqında məlumatlar verərək, onun dayandırılmasının vacibliyini diqqətə çatdırmışdır. Bütün bunlar dünya birliyinə müdrik siyasi lider tərəfindən bir ismarıc idi. Lakin nəinki təcavüzkara münasibətin olmaması, hətta ona şərait yaradılmasının davam etməsi bir daha dünyadakı məkrli qüvvələrin niyyətlərini açıq-aşkar göstərdi. Ona görə də erməni terrorçularının yenidən ərazilərimizə hücumuna cavab olaraq Azərbaycan xalqının əzəli torpağımızın azadlığı uğrunda mübarizəsi Ali Baş Komandanın qətiyyəti və müdrikliyi ilə mühüm tarixi anda verilmiş qərardır.



**Sənan Həsənov,**
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent, YAP Fəlsəfə İnstitutu ərazi təşkilatının sədri*

30 ilə yaxındır ki, Ermənistanın heç bir qətnaməyə və beynəlxalq hüquq normalarına məhəl qoymaması, Dağlıq Qarabağdakı cinayətkar rejimin saxta liderinin qondarma “andiçmə” mərasimini Azərbaycanın qədim şəhəri olan Şuşada təşkil edərək Azərbaycan xalqını aşağılamaq cəhdləri erməni cinayətkar rejiminin faşist mahiyyətinin nümayişi deməkdir. Bu tarixi mərhələdə güclü siyasi liderin ətrafında birləşib onun qərarları ilə zəfər yürüşünə başlamağın artıq zamanı yetişmişdir. Bütün dünyaya artıq bəllidir ki, Azərbaycan öz ərazisində terrorizmlə, separatizmlə ümumxalq mübarizəsi aparır. Ona görə də Prezident İlham Əliyev bəyan etdi ki, “Əgər beynəlxalq ictimaiyyət ağılsız diktatoru dayandıra bilmirsə, Azərbaycan onları dayandıracaq. Azərbaycan onlara yerini göstərəcək və öz ərazi bütövlüyünü bərpa edəcək”.Bu gün dünyanın mötəbər tribunalarında Azərbaycan xalqının milli mənafeyini ifadə edən Prezident İlham Əliyev bir daha sübut edib ki, ədalət meyarını pozanlar və ona qarşı çıxanlar özləri üçün ölçü götürməlidirlər. Bu mövqe yüksək diplomat peşəkarlığı ilə Yunanıstanın Azərbaycanda təyin olunmuş yeni səfirinin etimadnaməsini qəbul edərkən də ifadə olunmuşdur. Belə ki, dövlət rəhbərimizin Yunanıstanın, Kiprin və Ermənistanın hərbi əməkdaşlıq məsələlərinə toxunarkən təcavüzkarın müdafiə olunmasını qeyri-mümkün hesab edərək, eyni zamanda, Yunanıstanın Azərbaycanla əməkdaşlıq etmək marağında olduğunu bildirməklə, bu ölkənin Avropa Birliyi ölkələrindən biri olduğunu xatırlatmış, haqqın, ədalətin tərəfində dayanmalı olduğunu mükəmməl diplomatik dillə onlara anlatmışdır. Cənab Prezident həm də kifayət qədər açıq şəkildə bəyan etmişdir ki, regionda sülhün və ədalətin qorunması yolunda “Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı dönməzdir və Türkiyə həmişə Azərbaycanın yanında olduğu kimi, Azərbaycan da daimi olaraq Türkiyənin yanında olacaq”. Bu onu göstərirdi ki, Şərqi Aralıq dənizindəki böhranın qarşısının alınmasında Türkiyənin ədalətli mövqeyinin alternativi yoxdur. Azərbaycan dünyanın istənilən yerində qeyri-insani və silahlı münaqişələri, habelə, ədalətsizliyi və terroru pisləyir və qəti şəkildə yolverilməzliyini tələb edir.

İsbata ehtiyacı olmayan digər bir fakt budur ki, Azərbaycan öz hərbi-siyasi-diplomatik gücü ilə ona qarşı yönələn bütün cəbhələri yarmaqla dünyada obyektiv informasiya təminatına nail olub. Öz Vətəninin azadlığı uğrunda öz tarixi torpaqlarında düşmənlə mübarizəyə girib. Əminik ki, xalq-lider birliyimizin sarsılmazlığı xalqımızın qələbəsini təmin edəcəkdir.

Bu tarixi anda Ali Baş Komandan İlham Əliyevin əmrləri hər kəs tərəfindən operativ şəkildə yerinə yetirilməli, xalq -siyasi lider birliyinin qələbə yolunda yeganə amal olduğu dərk edilməlidir.

Biz bu tarixi anda istər daxilimizdə, istərsə də xaricdə Azərbaycan haqqında qərəzli informasiyalar yaratmaq cəhdləri edən, həqiqətlərin qəsdən təhrifi yolunu tutanlara qarşı hər birimiz amansız olmalıyıq. Bu gün siyasi əqidəsindən və sosial mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaş Azərbaycanın ədalətli və haqq işi uğrunda apardığı mübarizədə vətənpərvərlik hisslərini təbliğ etməli, öz sahəsində mübarizəni əməli işə çevirməlidir.

Ermənistanın sərsəm ideologiyasının, işğalçı və vandalizm siyasətinin region, eləcə də bəşəriyyət üçün təhlükəsinin mahiyyəti ziyalılarımız tərəfindən ifşa olunması davamlı xarakter almalıdır. Ali Baş Komandan tərəfindən edilən hər bir çağırış xalqımızın birlik mütəşəkkillik simvolu olmalıdır.

Bütün bunlar onu şərtləndirir ki, biz Vətənimiz uğrunda savaşırıq və mühüm tarixi həlledici məqamı yaşayırıq. Bizi bir amal, bir əqidə, bir məslək birləşdirir- QƏLƏBƏ, QƏLƏBƏ və QƏLƏBƏ!!!.

# *Sədaqət Vəliyeva:* Bu gün Azərbaycana haqq işinə görə təzyiq edən ölkələrdən hansı ərazisində erməni dövlətinin yaradılmasına icazə verər?

"Azərbaycan heç zaman imkan verməyəcək ki, ərazisində ikinci erməni dövləti yaradılsın. Onsuz da indiki Ermənistan tarixi Azərbaycan torpaqları üzərində yaradılıb. İrəvan, Zəngəzur, Dərələyəz, Mehri, Göyçə və başqa ərazilər Azərbaycanın əzəli, tarixi torpaqlarıdır. Sadəcə XIX əsrin əvvəllərindən başlayaraq, Gülüstan və Türkmənçay müqavilələri əsasında Rusiya imperiyasının vasitəçiliyi ilə Azərbaycan torpaqlarına köçürülən ermənilər zaman-zaman torpaqlarımızı ilhaq və işğal etdilər. Elə Qarabağı da bu məqsədlə işğal etmişdilər. Bu səbəbdən də, bu gün Azərbaycan dövləti imkan verməz ki, Qarabağda növbəti erməni dövləti yaradılsın".

**Bu sözləri Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.**



Sədaqət Vəliyeva bildirib ki, Prezident İlham Əliyev "Əl-Ərəbiyə", "TRT Haber", "Əl-Cəzirə" televiziya kanallarına, eləcə də Cəbrayıl şəhərinin işğaldan azad olunması münasibətilə xalqa müraciətində bu məsələyə xüsusi olaraq aydınlıq gətirmişdir: "Bu gün Azərbaycana haqq işinə görə təzyiq edən ölkələrin hansı biri ərazisində erməni dövlətinin yaradılmasına icazə verər? Yaxud da ki, dünyada nə üçün hansısa xalqın iki dövləti olmalıdır? Və ya hansısa ölkənin ərazisində hansısa millətin nümayəndələri yaşayırlarsa, demək onlar özlərinə dövlət yaratmalıdırlar? Belə çıxır ki, ermənilərin timsalında onlar ABŞ-da, Rusiyada, Fransada özlərinə ayrıca dövlət qurmalıdır. Bəs, o zaman sual yaranır ki, Fransa nə üçün Azərbaycana təzyiq edir? Hansı səbəbdən hərbi əməliyyatların dayandırılmasını istəyir? Məhz bu məsələ ilə bağlı Cənab Prezident İlham Əliyev "Əl-Ərəbiyə" televiziya kanalına müsahibəsində açıq şəkildə dedi ki, əgər Fransa Dağlıq Qarabağ üçün öz müqəddəratını təyinetmə istəyirsə, qoy onlar demək olar ki, sakinlərinin yarısı ermənilərdən ibarət olan Marsel şəhərini onlara versinlər. Hətta, onu da qeyd edim ki, Fransa ABŞ-dan sonra dünyada ən çox ermənini yaşadığı ikinci ölkədir. Bu mənada ermənilərin say baxımından dünyada üstün olduqları və hətta artıq o ölkənin etnik azlığına çevrilmiş ölkələrindən biri Fransadır. Nə üçün Fransada yaşayan 600 mindən çox erməniyə dövlət yaratmağa imkan vermirlər? Hətta, məsələyə bir qədər konkretləşdirmə ilə baxaq. İndiki şəraitdə Qarabağda 100 mindən çox erməni yoxdur. Lakin Fransa kimi bəzi ölkələr ermənilərin öz müqəddəratını təyin etməsinə şərait yaradılmasını tələb edirlər. Belə çıxır ki, dünyanın harasında 100 mindən çox erməni yaşayırsa, onlara dövlət yaratmağa şərait yaradılmalıdır. Bu məntiqdən çıxış etsək, o zaman Paris regionundakı 200 min, Marsel regionundakı 150 mindən çox, Lion regionundakı 150 min erməni əsilli fransıza ayrı-ayrı 3 dövlət yaradılmasına imkan verilməlidir. Görürsünüzmü, nə qədər absurd bir iddiadır. Belə bir presedent olsa, ən böyük zərbə elə Fransanın özünə dəyə bilər. Təkcə ermənilər deyil, ərəblər də belə iddia ortaya qoya bilər. Bir sözlə, Azərbaycan ərazisində ermənilərə müqəddərat istəyən Fransa bunu əvvəlcə ölkəsində yaşayan 100-dən çox etnik qrup üçün tətbiq etməlidir. Ona görə də, düşünürəm ki, Fransanın daxili siyasi məsələlərinə yönəlik Qarabağ kimi strateji problem üzərindən oynaması heç də yaxşı perspektiv vəd etməz".

Sədaqət Vəliyeva əlavə edib ki, Fransa kimi ABŞ və Rusiya da ATƏT-in Minsk qrupunun həmsədr ölkələri kimi neytrallıqlarını qorumalıdırlar: "Qarabağ müharibəsi onlar üçün bir qlobal etimad sınağıdır. Əgər Qarabağ müharibəsində neytrallıqlarını qorumasalar, qlobal miqyasda onların sülhyaratma imicinə zərbə dəyəcək, bundan sonra onlara dünyanın problemlərinin həllində heç kəs inanmayacaq, etibar etməyəcək".

**Zamin Məmmədov,**
***"İki sahil"***

# Beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünü bərpa etmək Azərbaycanın qanuni haqqıdır

## MİLLİ MƏCLİSİN DEPUTATI RAUF ƏLİYEVİN WWW.YAP.ORG.AZ SAYTINA MÜSAHİBƏSİ

***- Rauf müəllim, son günlər Azərbaycan Ordusu işğalçı Ermənistanın hərbi təxribatlarına cavab olaraq uğurlu əks-hücum əməliyyatı həyata keçirir. Bu barədə fikirlərinizi bilmək istərdik...***



- Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu zəfər yürüşünü davam etdirir. Təcavüzkar Ermənistanın sentyabrın 27-dən Azərbaycana qarşı başladığı geniş miqyaslı hərbi təxribata cavab olaraq Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatları uğurla davam edir. Şanlı ordumuz Cəbrayıl şəhəri başda olmaqla artıq işğal altında olan bir sıra qəsəbə və kəndlərimizi, böyük strateji əhəmiyyəti olan Murovdağ və digər yüksəklikləri işğaldan azad edib. Əks-hücum əməliyyatları zamanı düşmənin çoxlu sayda canlı qüvvəsi və texnikası məhv edilib. Torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda mübarizə aparan rəşadətli, qəhrəman Ordumuza yeni-yeni qələbələr arzu edirəm.

Düşmən ən müasir silahlarla təchiz olunmuş qəhrəman Azərbaycan Ordusu qarşısında davam gətirə bilmir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi hərtərəfli düşünülmüş, müdrik siyasət nəticəsində Azərbaycanda bütün sahələrdə, o cümlədən ordu quruculuğunda yüksək nəticələr əldə olunub. Azərbaycan Ordusu hazırda dünyanın ən qabaqcıl 50 ordu sırasındadır.

Azərbaycan Ordusu əks-hücum əməliyyatlarını uğurla davam etdirir. Gərgin döyüşlər gedir. Rəşadətli ordumuz yüksək ruh yüksəkliyi ilə, işğal altında olan torpaqlarımızı azad etmək üçün qarşıya qoyulan vəzifələri yüksək peşəkarlıqla və qəhrəmanlıq nümunələri göstərərək yerinə yetirirlər. Bu qələbələr bizim torpaqlarımızı tam azad edənədək gedən yolumuzda əldə etdiyimiz ilk qələbələrdir. Bizim yolumuz haqq yoludur. İnanırıq ki, qəhrəman Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında tezliklə işğal altında olan bütün torpaqlarımızı azad edəcək və Azərbaycan bayrağı Xankəndidə, Şuşada və Qarabağın işğaldan azad olunan digər yaşayış məntəqələrində dalğalanacaq. Bu şərəfli vəzifənin yerinə yetirilməsində qəhrəman Azərbaycan Ordusuna uğurlar arzu edirəm.

***- Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan xalqına müraciətində, eləcə də xarici kütləvi informasiya vasitələrinə müsahibəsində atəşkəsin bərpa edilməsi üçün şərtləri açıqladı. Bu barədə nə deyə bilərsiniz?***

- Son günlərdə Azərbaycan Prezidenti İlham Əliyev xalqa növbəti müraciət edib, bir sıra nüfuzlu xarici kütləvi informasiya vasitələrinə müsahibələr verib. Bu fakt hazırda baş verən proseslərin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayır. Cənab Prezident həm Azərbaycan xalqına müraciətində, həm də müsahibələrində Ermənistanın işğalçılıq siyasətini bir daha ifşa etdi. Dövlətimizin başçısı bir daha qətiyyətli mövqeyini nümayiş etdirərək bəyan etdi ki, atəşkəsin bərpa olunması üçün Paşinyan Azərbaycan xalqından üzr istəməli, "Qarabağ Ermənistan deyil" deməli və işğal olunmuş torpaqlarımızı tərk etmək üçün konkret cədvəl verilməlidir.

Bütün Azərbaycan xalqı Prezidentimizlə qürur duyur. Prezident İlham Əliyevin bu qətiyyətli mövqeyi bir daha göstərdi ki, dövlət və milli maraqlarımız hər şeydən üstündür. Baxmayaraq ki, müəyyən beynəlxalq dairələr sadəcə atəşkəsin bərpa olunmasına çalışırlar, hətta açıq şəkildə işğalçı ermənilərə dəstək verirlər...

***- Yeri gəlmişkən, Fransa Prezidenti Emmanuel Makron erməniləri açıq şəkildə dəstəkləyən bəyanat verib. Buna münasibətiniz necədir?***

- Fransanın Prezidenti Emmanuel Makronun sentyabrın 30-da Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı baş verən son hadisələrlə bağlı Latviyanın paytaxtı Riqada verdiyi bəyanat münaqişənin həll edilməsi üçün yaradılan Minsk qrupunun həmsədri kimi Fransanın vasitəçilik missiyası ilə uyğun gəlmir, birtərəfli və qərəzlidir. Makronun bu qərəzli və siyasi etik qaydalara sığmayan bəyanatı onu göstərir ki, bu ölkə Minsk qrupunun həmsədri kimi funksiyasını yerinə yetirə bilmir. Münaqişənin sülh yolu ilə həll edilməsi üçün vasitəçilik missiyasını yerinə yetirməli olan bir ölkənin prezidentinin Ermənistana və ermənilərə xitabən "Ermənistana və ermənilərə deyirəm, Fransa da öz rolunu oynayacaq", - deyə bəyanat verməsi əsla qəbul edilə bilməz. Bu, işğalçı Ermənistanın açıq- aşkar dəstəklənməsi və yeni ərazilər işğal etməyə həvəsləndirməkdir.

Vasitəçi tərəfsiz və ədalətli olmalıdır. Makronun timsalında Fransa obyektiv və ədalətli vasitəçi reputasiyasını itirdi. Bu bəyanatla Fransa 30 illik danışıqlar prosesi boyunca tərəflərə fərqli münasibət göstərdiyini ortaya qoydu. Belə olan halda Fransanın Minsk qrupunun həmsədrliyindən kənarlaşdırılması müzakirə olunmalıdır.

Azərbaycan işğalçıya qarşı Vətən müharibəsi aparır. Bu savaş Azərbaycanın işğal olunmuş torpaqlarının işğaldan tam azad edilənədək davam edəcək. Bu bizim haqq işimizdir. Dağlıq Qarabağ münaqişəli torpaq deyil, Azərbaycanın əbədi, əzəli və beynəlxalq hüquq tərəfindən tanınmış tarixi torpağıdır. Buna anlamayan vasitəçilərin missiyasına ehtiyac yoxdur.

Qəhrəman Ordumuz ruh yüksəkliyi ilə Qarabağda ərazi bütövlüyümüz uğrunda apardığı müharibəni uğurla davam etdirir. Bizim yolumuz haqq yoludur. İnanırıq ki, qəhrəman Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tezliklə işğal altında olan torpaqlarımız azad olunacaq və qələbə bayrağımız Xankəndidə, Şuşada və digər işğaldan azad olan torpaqlarımızda dalğalanacaq.

*Politoloq:*

# Bu gün erməni xalqı məyusluq içərisindədir, Paşinyanın siyasəti iflasa uğrayıb

Faşist ideologiyasına xidmət edən Ermənistan hakimiyyəti öz təcavüzkarlıq əməllərindən əl çəkmir. Ermənistanın faşist mahiyyəti özündə irqi ayrı-seçkiliyi, başqa xalqlara və millətlərə kin, nifrət bəsləməyi, başqalarının ərazilərinə göz dikməyi ehtiva edir. Ermənistan regionda indiyədək təcavüz və işğalçılıqdan başqa heç bir şeyə nail olmayıb. Bu fonda Azərbaycanın inkişafı uğursuz Ermənistanı qıcıqlandırır və onda qısqanclıq hissi yaradır. Bədnam qonşumuz bu qısqanclığı işğalçılıq, təcavüzkarlıq siyasəti ilə kompensasiya etməyə çalışır. Azərbaycanın enerji sahəsində əldə etdiyi uğurlar onları çox narahat edir.

**Bu fikirləri AZƏRTAC-a açıqlamasında politoloq Elxan Ələsgərov bildirib.**

Politoloq hərbi doktrinaya görə mülki obyektlərin və mülki əhalinin atəşə tutulmasının beynəlxalq hüquq və normalara zidd olduğunu deyib. Qeyd edib ki, Ermənistanın bu təxribatları yerli əhalini qorxutmağa və ölkəmizin döyüş əməliyyatlarını



dayandırmağa yönəlib. Ermənistan silahlı qüvvələrinin Gəncəni hədəfə alması növbəti təxribatdır.

Elxan Ələsgərov Ermənistanın Azərbaycanla döyüş əməliyyatlarında bütün tipli silahlardan istifadə etdiyini qeyd edib. Onun sözlərinə görə, düşmən köhnə "Skad"dan, "Toçka-U"dan istifadə edir. Artıq məlumdur ki, Ermənistan silahlı qüvvələri tərəfindən atılan raketlərdə kaset döyüş başlıqlarından istifadə olunması faktı var. Bu, Haaqa Məhkəməsinin prinsiplərinə ziddir. Ermənistan bununla beynəlxalq hüququn normalara meydan oxuyur.

Politoloq bildirib ki, Ermənistanın guya Azərbaycana xarici muzdlu döyüşçülərin gətirilməsi ilə bağlı informasiyaları heç bir həqiqəti əks etdirmir. Onların öz ordusunda Yaxın Şərqdən gətirilən muzdlular döyüşür. Ermənistan prezidenti Armen Sarkisyan "Əl-Cəzirə" kanalına verdiyi müsahibəsində orduda muzdlu əsgərlərin döyüşdüyünü etiraf edib.

Erməni xalqı məyusluq içindədir. Paşinyanın siyasəti iflasa uğrayıb. Qarabağ klanı ilə Paşinyan arasında uçurum yaranıb. Qarabağ klanı Paşinyanı devirmək üçün hərəkətə keçib. Rusiya isə bu hakimiyyəti dəstəkləmir.

Azərbaycan Prezidentinin uğurlu siyasəti nəticəsində ordumuz Ermənistan ordusunu Qarabağdan qovur. Bununla erməni xalqı mifin puç olduğunu görür. Biz Azərbaycan Prezidentinin ətrafında sıx birləşməklə haqqımız olan geri qaytaracağıq.

# Ədliyyə naziri xarici həmkarlarına müraciət etdi



**Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribatı ilə bağlı xarici ölkələrin ədliyyə nazirlərinə rəsmi müraciət ünvanlayıb.**

Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən "Report"a verilən məlumata görə, müraciətdə 30 ildən artıq davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin milyondan çox insanın taleyinə ciddi təsir göstərmiş faciəvi nəticələri qeyd olunub.

Azərbaycanın tarixi torpaqlarına ərazi iddiaları irəli sürən Ermənistanın 90-cı illərin əvvəllərində hərbi təcavüzə başladığı və Azərbaycan əhalisinin etnik təmizləməsini həyata keçirərək Dağlıq Qarabağı və ətraf yeddi rayonunu işğal etdiyi, bir milyon insanın qaçqın və məcburi köçkünə çevrildiyi bildirilib.

Qeyd edilib ki, 1994-cü ildə atəşkəs rejiminə nail olduqdan sonra münaqişənin sülh yolu ilə həlli istiqamətində vasitəçilik missiyası - ATƏT-in Minsk Qrupu tərəfindən danışıqların aparılmasına baxmayaraq, Ermənistan müxtəlif bəhanələrlə davamlı olaraq münaqişənin sülh yolu ilə həllini uzatmış və ona sərf edən status-kvonu davam etdirərək özgə torpaqlarını işğal altında saxlamaqla bu günədək orada qanunsuz iqtisadi fəaliyyət göstərməyi və bu ərazilərin qanunsuz məskunlaşdırmasını həyata keçirir. Bununla da o, kobud şəkildə beynəlxalq hüquq normalarını, xüsusilə 1949-cu il Cenevrə Konvensiyalarını pozur.

Eyni zamanda, Ermənistanın hazırkı rəhbərliyinin hakimiyyətə gəldiyi andan açıq-aşkar danışıqlar prosesini pozmağa başlayaraq Dağlıq Qarabağın statusu məsələsinin danışıqların predmeti olmasına baxmayaraq, hərbi təxribatlara və müharibəyə açıq təhrik edən "Qarabağ Ermənistandır və nöqtə" və "Yeni ərazilər üçün yeni bir müharibə" şüarları ilə çıxışlar etdiyi vurğulanıb.

Təəssüflə qeyd olunub ki, beynəlxalq ictimaiyyətin heç bir reaksiya göstərməməsi təcavüzkarın əl-qolunu açaraq sərhəd bölgələrində hərbi təxribatları intensivləşdirib.

Müraciətdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin BMT-nin Baş Assambleyasının 75-ci sessiyasında çıxışı zamanı bu məsələləri ətraflı şəkildə və dəqiq faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırması qeyd olunub.

Hadisələrin pik həddi isə, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin hərbi mövqelərimizi və ən dəhşətlisi, yaşayış məntəqələrimizi və dinc sakinlərimizi qəsdən və məqsədyönlü şəkildə ağır artilleriya qurğularından atəşə tutmağa başlaması olub.

Hücum nəticəsində bu günlər ərzində təkcə hərbçilərimiz deyil, eyni zamanda yeddi qadın və üç uşaq olmaqla 27 dinc sakin həlak olub, 140-dan çox mülki şəxs yaralanıb. Bundan əlavə, doğum evi, uşaq bağçası, məktəb, rayon məhkəməsinin binası və s. daxil olmaqla 450-ə yaxın yaşayış binası və mülki obyekt dağıdılıb və ya ciddi ziyan dəyib.

Hərbi təcavüz nəticəsində cəbhə xəttində yaranmış vəziyyətlə bağlı Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin xalqa müraciət etdiyi vurğulanaraq ölkəmizin BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünümüdafiə hüququna əsaslanmaqla Ermənistanı sülhə məcbur etmək məqsədilə əks-hücum əməliyyatlarını aparmağa vadar olduğu qeyd edilib.

Doğma torpaqları uğrunda və yalnız öz ərazilərində vuruşan ordumuzun uğurlu əks-hücumunu görən Ermənistan tərəfi beynəlxalq hüquq normaları ilə istifadə olunması qadağan edilmiş kasset bombaları ilə dinc şəhər və kəndləri güclü atəşə tutmaqdadır.

Beləliklə, təmas xəttindən onlarla kilometr məsafədə yerləşən paytaxtdan sonra ikinci böyük, qədim şəhər olan Gəncə ciddi raket atəşinə tutulub. Bundan əlavə, hərbi əməliyyatlar aparılan yerdən 100 km-dən çox məsafədə yerləşən böyük bir sənaye mərkəzi və ərazisində iri su anbarı və enerji obyekti olan Mingəçevir şəhərinə raket zərbəsi endirilib.

Nazir xüsusilə qeyd edib ki, Ermənistan ərazisindən endirilən bu zərbələr ölkəmizi cavab zərbəsinə təhrik edərək üçüncü ölkələri hərbi əməliyyatlara cəlb etməyi məqsədi daşıyır.

Ermənistan beynəlxalq normalara zidd olaraq, xarici ölkələrdən hərbi muzdluları cəlb edir və onlardan istifadə edir, bundan əlavə beynəlxalq arenada, sosial şəbəkələrdən geniş istifadə olunmaqla Azərbaycana qarşı terror və digər cinayət əməllərinə çağırışlar edilir.

Mülki infrastrukturun atəşə tutulması və dağıdılması nəticəsində dinc sakinlərin həlak olması ilə bağlı beynəlxalq humanitar hüququn pozulmasına dair Azərbaycanın Baş Prokurorluğu tərəfindən onlarla cinayət işinin açılması barədə məlumat verilib.

Erməni silahlı qüvvələrinin işğal altında olan ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının (822, 853, 874 və 884 nömrəli) dörd qətnaməsinin və Qoşulmama Hərəkatı, ATƏT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı kimi aparıcı beynəlxalq təşkilatların digər analoji qərarlarının artıq təxirəsalınmadan dərhal icra edilməsinin və ədalətin bərpa edilməsi üçün beynəlxalq hüququn tam gücünü tətbiq etməsinin zəruriliyi diqqətə çatdırılıb.

Ədliyyə naziri davam edən təcavüz nəticəsində yaranmış vəziyyəti nəzərə alaraq, mövcud beynəlxalq hüquq mexanizmlərinin reallaşdırılması və ədalət, sülh və əminamanlığın bərpa olunması naminə həmkarlarını real əməllər görməyə, xüsusilə muzdlu hərbçilərin münaqişə zonasına göndərilməsi üçün qanunsuz cəlb olunmasının və onların ölkələrinin ərazisində digər qanunsuz hərəkətlərin qarşısının alınması məqsədilə müvafiq preventiv tədbirlər həyata keçirməyə çağırıb.

Müraciətin sonunda ədalət mühakiməsinə və ədliyyəyə məsul şəxs olaraq həmkarlarının bu məsələdə iştiraksız qalmayacaqlarına və beynəlxalq hüququn görünməmiş pozuntularına qarşı öz səlahiyyətləri çərçivəsində müvafiq tədbirlər görəcəklərinə əminlik ifadə olunub.

# Azərbaycan Ordusu beynəlxalq humanitar hüquqa əməl edir



"Mən bura özümlə Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) əyani sübutu olaraq broşürlər gətirmişəm. Həmin broşürlər BQXK tərəfindən tərtib olunub və Azərbaycan Ordusuna verilib".

"Report" xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov deyib.

"Biz həmin broşürləri Azərbaycan Ordusunun bölmələrinə, xüsusən də ön xətt bölmələrinə paylamışıq. Həmin broşürlər dərs vəsaiti olaraq tədris edilir. Həmin broşürlərin bir üzündə döyüş zamanı yaralılara, zərərçəkmişlərə ilkin tibbi yardımın göstərilməsi qaydaları əksini tapıb. Digər tərəfində isə döyüşçülərin davranış qaydaları göstərilib. Yəni hərbi qulluqçu döyüşdə necə davranmalıdır, kimləri hədəfə almalıdır və kimləri hədəfə almamalıdır kimi legitim məsələlər izah olunur.

Beynəlxalq hümanitar hüquqda əksini tapan prinsiplər bizim xalqımız, Ordumuz üçün yeni deyil. Bunlar bizim milli mentalitetimizdə, dinimizdə, Ordumuzda mövcuddur. Bunlar bizə çox yaxşı tanışdır və Azərbaycan qanunvericiliyində öz əksini tapıb. Azərbaycan Orduсuna döyüşün qızğın vaxtında belə döyüşdə iştirak etməyənlərə qarşı necə davranmalı olduqları təlimlərdə aşılanıb", o bildirib.

# Əfqanıstan Milli Şurası Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən bəyanatlar qəbul edib

Əfqanıstan Milli Şurasının Yuxarı və Aşağı palataları Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədikləri barədə bəyanatlar qəbul ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, hər iki palatanın bəyanatında Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi hücumları qətiyyətlə pislənilir, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün dəstəkləndiyi vurğulanır.

Əfqanıstan Milli Şurasının Yuxarı Palatası və Aşağı Palatası Ermənistanla Azərbaycan arasındakı hərbi toqquşmalar dövründə ermənilərin törətdikləri insanlıq əleyhinə cinayətlərlə bağlı, Azərbaycanın Xocalı şəhərinə və ümumiyyətlə, Dağlıq Qarabağ bölgəsinə dəymiş ziyanla bağlı dərin narahatlıqlarını ifadə edərək həlak olanların yaxınlarının kədərinə şərik olduqlarını bildirir, həmçinin bu hadisələrin günahkarlarının mühakimə olunmasını istəyirlər.

Bəyanatlarda vurğulanır ki, Əfqanıstan Milli Şurası BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin ən qısa zamanda icrasına çağırır və Azərbaycanla Ermənistan arasında problemin birdəfəlik həllini istəyir.

# Livandan Ermənistana muzdlu döyüşçülər daşınır

Livanın paytaxtı Beyrutdan Yerevana "Airbus A320" təyyarəsi istiqamət götürüb.

"Report" "İnfo24.ru"ya istinadən xəbər verir ki, layner "Flightradar 24" tərəfindən görüntülənib.

Təyyarədə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərinə göndərməsi üçün nəzərdə tutulan muzdlu döyüşçülər daşınır.

"Bu hal Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarda Yaxın Şərq ölkələrindən gətirilən muzdlu döyüşçülərdən və terrorçulardan geniş istifadə etdiyini əyani formada bir daha göstərir. Həmin muzdular erməni hərbçilərlə birlikdə Azərbaycan Ordusuna qarşı döyüşürlər", - "İnfo24.ru"nun məlumatında bildirilib.




# Azərbaycanın Baş prokuroru "Amnesty International" təşkilatının baş katibinə rəsmi müraciət ünvanlayıb



**Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev "Amnesty International" təşkilatının baş katibi xanım Julie Verhara rəsmi müraciət ünvanlayıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətə səbəb "Amnesty International" təşkilatının veb-saytında oktyabrın 5-də yerləşdirilmiş "Ermənistan-Azərbaycan: mülki şəxslər qadağan edilmiş "claster" bombalarının istifadəsindən qorunmalıdır" sərlövhəli məqalədə bir sıra faktların təhrif edilməsi olub.

Müraciətdə qeyd edilib ki, sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat həyata keçirərək bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və mövqelərini atəşə tutub. Nəticədə mülki şəxslər və hərbi qulluqçularımız arasında ölən və yaralananlar var. Dinc mülki əhalinin sıx yaşadığı məntəqələr, mülki infrastruktur obyektləri - xəstəxanalar, tibb müəssisələri, məktəb binaları və uşaq bağçaları qəsdən hədəfə alınır ki, bu da Ermənistan rəhbərliyinin dövlət səviyyəsindəki terror siyasətinə sadiq olduğunu bir daha göstərir.

Diqqətə çatdırılıb ki, sentyabrın 27-dən başlayan erməni terroru nəticəsində 27 mülki şəxs həlak olub, 141 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb, çoxlu saytda evə və mülki infrastruktur obyektlərinə külli miqdarda ziyan dəyib.

Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən beynəlxalq hüququn norma və prinsipləri kobud şəkildə pozulmaqla, döyüş bölgəsindən xeyli uzaqda yerləşən müxtəlif şəhər və rayonlarımızda dinc mülki əhalinin sıx yaşadığı məntəqələr ağır artilleriya atəşinə tutulub. Belə ki, 500 mindən artıq əhalisi olan, Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələrin yerləşdiyi qədim Gəncə, strateji əhəmiyyət daşıyan sənaye şəhəri Mingəçevir, habelə Beyləqan, Bərdə, Ağcabədi, Goranboy və digər rayonlar istifadəsi qadağan edilmiş raket və qurğulardan atəşə tutulub.

Oktyabrın 4-də Ermənistan tərəfindən növbəti təxribat törədilərək döyüş bölgəsindən xeyli uzaq məsafədə yerləşən Xızı və Abşeron rayonlarına ortamənzilli iki raket atılıb.

Qeyd edilib ki, mütəxəssislərimiz tərəfindən Ermənistan silahlı qüvvələrinin mülki və strateji obyektlər də daxil olmaqla bütün hədəflərə qarşı beynəlxalq səviyyədə qadağan edilmiş yüksək dağıdıcı qüvvəyə malik "claster" bombalarından və "Smerch" raketlərindən istifadə etməsi müəyyənləşdirilib. Bunu sübut edən foto və videolar da müraciətə əlavə olunub.

Bu məlumatlar "Amnesty International" təşkilatının rəhbərinin diqqətinə çatdırılmaqla rəsmi veb-saytda yerləşdirilməsi və bu həssas məsələdə obyektiv və qərəzsiz mövqe tutulması xahiş edilib.

*Bəhruz Quliyev:*

# Dünya ictimaiyyəti ermənilərin insanlığa zidd əməllərini pisləməlidir




“Diplomatik mübarizədə qələbə qazanan Azərbaycan döyüş meydanında da qalibdir. Ölkəmizin iqtisadi və maliyyə imkanlarının genişlənməsi bütün sahələrdə, əsasən ordu quruculuğu istiqamətində mühüm addımların atılmasını şərtləndirir. Çünki müharibə şəraitində yaşayan ölkə üçün güclü, qüdrətli ordunun olması vacib amillərdəndir. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev vaxtilə bildirmişdir ki, sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü ordunun olması vacibdir. Prezident İlham Əliyev ən yüksək tribunalardan bəyan etmişdir ki, Azərbaycanın müdafiə qabiliyyətini gücləndirməsi onun suveren hüququdur. Ordumuz bugünkü uğurlu mövqeyinə gələnə qədər heç də rahat yollar keçməyib. Ölkə başçısı bildirib ki, Azərbaycan Xalq Cəbhəsinin hakimiyyətə gəlmək üçün əl atdığı xəyanətləri səbəbindən faciələr yaşanıb. Dövlət başçısı bildirib ki, 1992-ci ilin mayında Şuşa və Laçın işğal edildi, Xalq Cəbhəsinin dəstələri qanunsuz yollarla hakimiyyətə gəldi, bunun ardınca isə Kəlbəcər verildi, nəticədə işğalçı Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yarandı. Məhz bunun nəticəsində torpaqlarımız işğal altına düşdü. Mənfur qonşularımız hər zaman beynəlxalq hüququn prinsip və normalarına, beynəlxalq ictimaiyyətə və demokratiya qanunlarına etinasızlıq göstərərək işğal etdiyi Azərbaycan ərazilərinin azad olunması barədə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının mövcud qətnamələrini icra etməkdən boyun qaçırıb.”

**Bu fikirləri İkisahil.TV-yə SƏS Media Qrupunun rəhbəri Bəhruz Quliyev bildirib.**

Bəhruz Quliyev qeyd edib ki, Ermənistan beynəlxalq öhdəlikləri açıq şəkildə pozmaqda davam edir və ermənilər Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşdırma prosesini davam etdirirlər. Möhtərəm Prezidentimiz İlham Əliyev BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda tutarlı cavabları ilə Ermənistanın təcavüzkar siyasətini, yalana söykənən əsassız təbliğatını ifşa etməklə yanaşı, dünyaya bu reallığı da çatdırdı ki, Ermənistan açıq təxribatları ilə yenidən müharibəyə hazırlaşır. Göründüyü kimi, Azərbaycan dövləti beynəlxalq təşkilatlardan işğalçı dövlətə bunun qarşısını almaq üçün təsir göstərilməsini tələb edir. Bildirir ki, hərbi təxribatla bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür. Dünya ictimaiyyəti görür ki, işğal etdiyi Azərbaycan torpaqlarını azad etmək haqqında çoxsaylı qətnamələri və çağırışları heçə sayan Ermənistan nəinki Cənubi Qafqazda, eləcə də bütün dünyada sülhə və təhlükəsizliyə ən böyük təhlükədir. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir və artıq bir həftədən artıqdır ki, bu siyasət işğalçı dövlətin faşist mahiyyətini bütün dünyaya nümayiş etdirir.

B.Quliyev diqqətə çatdırıb ki, sentyabrın 27-də döyüşlər başlayandan bir neçə saat sonra bir neçə kəndimiz işğaldan azad olundu. İndiyə qədər isə Cəbrayıl şəhəri və onun bir sıra kəndləri, strateji əhəmiyyət kəsb edən Tərtərin Suqovuşan və Talış kəndləri, Füzuli rayonunun bir neçə kəndi, Murov və bir neçə strateji yüksəkliklər azad olunub. Hazırda düşmənə sarsıdıcı zərbələr endirilməkdədir. Azərbaycan Ordusunun dünyada 50 ən güclü ordu sırasında yer alması əbəs deyil. Əlbəttə, bütün bu reallıqlar bilavasitə Azərbaycan dövlətinin diqqət və qayğısının məntiqi nəticəsidir. Dövlət başçısının “Mənim Prezident kimi fəaliyyətimdə ordu quruculuğu birinci yerdədir” fikri də bütün bu gerçəkliklər isbatlayır. Silahlı Qüvvələrimizin hərbi-texniki təchizatından tutmuş hərbi sənayemizin inkişafına qədər hər bir fakt onu da deməyə imkan verir ki, məhz Azərbaycan Ordusunun gücü və qüdrəti, hərbçilərimizin qəhrəmanlığı, şücaəti və sonsuz vətənpərvərlik hissləri qısa zamanda işğal olunmuş ərazilərimizi Ali Baş Komandanımız, Prezident İlham Əliyevin rəhbərliyi altında geri qaytaracaq.

Baş redaktor vurğulayıb ki, bugünkü reallıqları əks etdirən faktları görməyən, daha doğrusu görmək istəməyən beynəlxalq təşkilatlar işğalçı Ermənistanın başına sığal çəkməklə məşğuldurlar. Faşist ideologiyasına xidmət edən işğalçı Ermənistanın terror əməlləri ilə bağlı beynəlxalq təşkilatlar əməli addımlar atmalıdırlar. Dünya ictimaiyyəti ermənilərin insanlığa zidd əməllərini pisləməlidir. Təəssüflər olsun ki, əksər hallarda bunun əksini görürük. Fransa Prezidenti Emmanuel Makronun Qarabağ məsələsi ilə bağlı mövqeyi Azərbaycan cəmiyyəti tərəfindən kəskin etirazla qarşılanır. ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olan Fransanın dövlət başçısının belə bir mövqeyi vasitəçilik missiyasına ziddir. Yaşanan son proseslər göstərdi ki, Azərbaycanın haqq mübarizəsinə xüsusilə qərəzli münasibət göstərən bəzi Qərb dövlətlərinin, institutlarının, media qurumlarının obyektivliyini və peşəkarlığını şübhə altına almağa tam əsaslar var. Onların bütün bu illər ərzində səsləndirdiyi humanizm, ədalət və demokratiya fikirləri yalnızca gözdən pərdə asmaqdan ibarət olub. Bununla belə, Fransa, Rusiya, ABŞ və beynəlxalq qurumlar danışıqların bərpasına çağırışlar edirlər. Halbuki cənab Prezident son iki ildə Paşinyanın imtina etməsi səbəbindən danışıqlar prosesinin dalana dirəndiyini və dəfələrlə Ermənistanın müharibəyə hazırlaşdığını onların və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. Bu çağırışların heç birinə nəinki adekvat, ümumiyyətlə, reaksiya verilməyib. Azərbaycan düşmənin 27 sentyabr hərbi təxribatından sonra ərazi bütövlüyünü qorumaq üçün mübarizəyə başladığı dövrdə isə Fransa prezidenti Emmanuel Makron sentyabrın 30-da Riqada qəbuledilməz bəyanatlar səsləndirməyə başlayıb. Bu, ikili standartların bəlkə də dünya üzrə ən bariz nümunəsidir, xüsusilə də bunun Fransa tərəfindən edilməsi elə də təəccüblü deyil. Fransa tarixdə dəfələrlə müxtəlif xalqlara qarşı soyqırım törətmiş qəsbkar bir dövlətdir. 1830-1962-ci illərdə Əlcəzair xalqı 132 il Fransanın müstəmləkəçiliyindən qurtulmaq üçün mübarizə aparıb və nəticədə 1,5 milyon Əlcəzairliyə qarşı soyqırım törədilib. Digər bir böyük soyqırım isə Fransa tərəfindən Cibutidə həyata keçirilib. Ölkəmizin başçısı bildirib ki, Makron Azərbaycana Dağlıq Qarabağla bağlı məsləhətlər və bəyanatlar verməkdənsə, Korsika xalqına öz müqəddəratını müəyyən etmək prinsipini bəxş etməklə əsl “demokratiya” nümunəsi göstərsin. Çünki Makronun bəyanatları münaqişənin nizamlanması üçün yaradılmış Minsk qrupunun həmsədri kimi Fransanın vasitəçilik fəaliyyətinə tamamilə zidd və qərəzlidir. Belə bəyanatlarla Fransa əslində münaqişənin davam etdiyi 30 il ərzində tərəflərə göstərdiyi fərqli münasibəti tam aşkarlığı ilə ortaya qoymuş oldu. Azərbaycanın öz ərazi bütövlüyünü və dövlət sərhədlərinin toxunulmazlığını təmin etmək üçün ən ali hüququnu reallaşdırdığı bir vaxtda Fransa kimi dövlətlər beynəlxalq hüquqa və özlərinin bütün dünyaya elan etdikləri “sülh, ədalət və demokratiya carçılığı”na yaraşmayan hərəkət edirlər. Əlbəttə ki, öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmək niyyətinə görə dövlətimizi qınamağa heç kəsin siyasi və tarixi nöqteyi-nəzərdən haqqı yoxdur. Fransa kimi dövlətlərin və dövlət rəsmilərinin isə buna əlavə olaraq həm də mənəvi haqqı yoxdur.

B.Quliyev xüsusi olaraq qeyd edib ki, son hadisələr Prezident-xalq-ordu birliyini bir daha nümayiş etdirir. Xalqımız tam əmindir ki, dövlətimizin qətiyyətli mövqeyi, ordumuzun gücü, qüdrəti sayəsində uğurla həyata keçirilən əks-hücum əməliyyatları otuz ildən artıq davam edən işğala və ədalətsizliyə son qoyacaq. Bu əks-hücum əməliyyatı, eyni zamanda, insanlarda Vətənə bağlılığı, illərdən bəri işğal altında olan torpaqlarımızın azad olunması arzularının reallaşması, gerçəkləşməsi deməkdir. Müstəqil Azərbaycan ərazi bütövlüyünü bərpa etmək, əzəli torpaqlarına sahib çıxmaq fikrindən dönməyəcək. Xalqımıza, mədəniyyətimizə qarşı soyqırımı törədən, məscidlərimizi, məzarlarımızı dağıdan, mədəni irsimizi öz adlarına çıxarmağa çalışan işğalçı Ermənistan hakimiyyətinin avantürist, məkrli planı baş tutmayacaq, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu işğal altındakı bütün kənd və qəsəbələrimizi, şəhərlərimizi düşmən tapdağından azad edəcək, Azərbaycan bayrağı bütün işğal altında olan torpaqlarımızda dalğalanacaq!

✍ **Şəmsiyyə Əliqızı,**
✍ **Könül Əliyeva,**
***“İki sahil”***

## DÜŞMƏNƏ MƏXSUS YENİ ZİREHLİ TEXNİKALAR ƏLƏ KEÇİRİLDİ



Azərbaycan Ordusunun bölmələri düşmənə məxsus yeni zirehli texnikalar ələ keçirib.

Bu barədə “İki sahil”ə Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib.

## ERMƏNİLƏR AĞDAMI YENİDƏN ATƏŞƏ TUTUB



Ermənistan silahlı qüvvələrinin bölmələri qəsdən və hədəflənmiş şəkildə Ağdam rayonunun ətraf kəndlərini artilleriya atəşinə tutmaqda davam edir.

Bu barədə “Report”un cəbhə bölgəsinə ezam olunmuş əməkdaşı xəbər verir.

Düşmən yenə də dinc sakinləri hədəf alır.

Axşam saatlarında ermənilər Ağdam rayonuna növbəti dəfə top mərmiləri atıb.

Azərbaycan Ordusu tərəfindən düşmənə qarşı adekvat tədbirlər görülür, hazırda döyüşlər davam edir.

## AZƏRBAYCAN HUMANİTAR DƏHLİZLƏRİN AÇILMASI İLƏ BAĞLI ERMƏNİ ƏHALİSİNƏ MÜRACİƏT EDİB



Azərbaycan humanitar dəhlizlərin açılması, beynəlxalq humanitar hüququn norma və prinsiplərinin tətbiq edilməsinə hazır olduğunu bəyan edib və bununla bağlı erməni əhalisinə müraciət edib.

“Report” xəbər verir ki, bunu Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov deyib.

“Müraciət həyatını qurtarmaq məqsədi ilə könüllü qaydada təslim olmaq istəyən düşmənin hərbi qulluqçularına da şamil edilib”, - o əlavə edib.

*Müdafiə Nazirliyi:*

## DÜŞMƏN YEVLAX, GORANBOY VƏ BEYLƏQAN RAYONLARINI ATƏŞƏ TUTUB

Ermənistan silahlı qüvvələri oktyabrın 6-da Yevlax, Goranboy və Beyləqan rayonlarının ərazilərini atəşə tutub. Bu barədə “İki sahil”ə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

## ANAMA: ERMƏNİSTAN DİNC SAKİNLƏRƏ QARŞI BEYNƏLXALQ KONVENSİYALARLA QADAĞAN OLUNMUŞ 4 KASET SURSATI ATIB



Oktyabrın 4-5-də Ermənistan silahlı qüvvələri tərəfindən Goranboy rayonu ərazisində dinc sakinlərə qarşı beynəlxalq konvensiyalarla qadağan olunmuş 4 ədəd kaset sursatı atılıb və ətrafa mərmi qalıqları səpələnib. Nəticədə Goranboy rayonu Qızılhacılı kənd sakini həlak olub.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) məlumat yayıb.

Bildirilib ki, agentliyin mütəxəssisləri tərəfindən aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 144 ədəd partlamış “9N235” bombacıqları, həmçinin 300 ədəd partlamamış “M85” bombacıqları aşkar olunub.

Nəzərə çatdırmaq istərdik ki, qeyd olunan bombacıqlar “Kaset Sursatlar haqqında konvensiyaya” (CCM) uyğun olaraq 2008-ci ildə qadağan olunmuş sursatlar sinfinə daxil edilib.

## İSTANBULUN TARİXİ QALATA QÜLLƏSİ YENİDƏN ZİYARƏTƏ AÇILIB



İstanbulun rəmzlərindən biri olan tarixi Qalata qülləsi uzun zaman davam edən təmir işlərindən sonra oktyabrın 6-da yenidən ziyarətə açılıb.

AZƏRTAC xəbər verir ki, açılış münasibətilə xüsusi lazer effektləri ilə işıqlandırılan qüllə möhtəşəm görkəm alıb.

Tarixi abidənin açılışı münasibətilə Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi tərəfindən iki onlayn konsert təşkil olunub.

# Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi beynəlxalq cinayətlər və insan hüquqları problemi

**Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi beynəlxalq cinayətlərin tarixi və mahiyyəti, onun səbəb olduğu nəticələr dünya birliyinə yaxşı məlumdur. Azərbaycan xalqına və Azərbaycan dövlətçiliyinə qarşı XIX əsrdən başlayan və XX əsrdən etibarən sürətlənən beynəlxalq cinayətlər beynəlxalq hüquq normalarının nəinki kobud şəkildə pozulmasıdır, eyni zamanda beynəlxalq cəmiyyətdə beynəlxalq hüquqa olan inamı qırmaqla beynəlxalq əməkdaşlıq siyasətinə ağır zərbələr vurur.**

İlk növbədə, Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi beynəlxalq cinayətlər beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərinin ciddi şəkildə pozulması ilə müşayiət edilir. Bu pozuntuların ən bariz nümunəsi Ermənistan tərəfindən Azərbaycan Respublikası ərazilərinin hərbi işğalı amilidir ki, bunu da əsasən iki aspektdən qiymətləndirmək olar.

Birinci aspekt, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ regionunun işğalıdır.

İkinci aspekt isə, Dağlıq Qarabağ regionuna daxil olmayan və ona bitişik 7 rayonun (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan), habelə bir sıra digər ərazilərin işğalı ilə bağlıdır.

Ermənistan tərəfindən işğal olunan bütün bu ərazilərin Azərbaycan Respublikasının ərazi bütövlüyünün tərkib hissəsi olmasına və beynəlxalq hüquqla qəbul olunmuş sərhədləri çərçivəsində mövcudluğuna baxmayaraq, tarixən Dağlıq Qarabağ regionu daha çox əsassız erməni iddialarının obyektinə çevrilmişdir. Ermənistanın Azərbaycan Respublikasına qarşı güc tətbiqi məsələsi beynəlxalq təşkilatların bununla bağlı qəbul olunan sənədlərində öz əksini tapmışdır. Belə ki, BMT Təhlükəsizlik Şurası tərəfindən ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini təsdiq edən dörd qətnamə qəbul edilmişdir: İşğalçı qüvvələrin dərhal Kəlbəcər və digər işğal olunmuş rayonlardan çıxarılmasını tələb edən 30 aprel 1993-cü il tarixli 822 saylı qətnamə; Ağdam və digər işğal olunmuş rayonların işğalını pisləyən 29 iyul 1993-cü il tarixli 853 saylı qətnamə; Füzuli, Cəbrayıl, Qubadlı və işğal olunmuş digər ərazilərdən işğalçı qüvvələrin qoşunlarının çıxarılması və münaqişənin sülh danışıqları vasitəsi ilə həll olunmasına dair 14 oktyabr 1993-cü il tarixli 874 saylı qətnamə; Hərbi əməliyyatların yenidən başlanması ilə nəticələnən tərəflər arasında əldə edilmiş atəşkəsin pozulmasını, xüsusilə Zəngilan rayonunun və Horadiz şəhərinin işğal edilməsini, dinc əhaliyə qarşı hücumları və Azərbaycan Respublikası ərazisinin bombardman edilməsini pisləyən 12 noyabr 1993-cü il tarixli 884 saylı qətnamə.

Lakin təəssüf ki, hələ də həmin qətnamələr yerinə yetirilməmişdir və bu universal bir beynəlxalq təşkilat kimi BMT-nin nüfuzuna və onun beynəlxalq cəmiyyətdəki mövqeyinə ciddi zərbədir. ATƏT-in Minsk qrupu çərçivəsində intensivləşən danışıqlar prosesi həlelik nəticə verməsə də, Azərbaycan Respublikası ötən müddətdə münaqişənin həllində məhz beynəlxalq hüquq normalarına əsaslandığını ən müxtəlif səviyyələrdə sübuta yetirə bilmişdir.

Təhlil olunan vəziyyətlə bağlı digər beynəlxalq təşkilatların sənədlərini də qeyd etmək yerinə düşərdi. Məsələn, İslam Konfransı Təşkilatının (hazırkı İslam Əməkdaşlığı Təşkilatı) Xarici İşlər Nazirləri Şurasının "Ermənistan və Azərbaycan arasında münaqişə haqqında" 1994-cü il tarixli 11/22P saylı Qətnaməsinin və 1995-ci il tarixli 11/23P saylı Qətnaməsinin 5-ci bəndlərində və s. sənədlərində gücdən istifadə edərək Ermənistan tərəfindən Azərbaycan Respublikası ərazilərinin əldə edilməsinə, yəni işğalına dair mühüm müddəalar əks olunmuşdur. Bütövlükdə, qanunsuz güc tətbiq etmənin qadağan olunan forması kimi Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü İslam Əməkdaşlığı Təşkilatının qəbul etdiyi bütün müvafiq beynəlxalq sənədlərdə birmənalı şəkildə pislənir, ərazi bütövlüyünün və sərhədlərin pozulmazlığının bərpası qəti şəkildə tələb olunur. BMT Baş Məclisinin "Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində vəziyyət haqqında" 15 mart 2008-ci il tarixli Qətnaməsində ciddi narahatlıq ifadə edilərək qeyd edilir ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafındakı hərbi münaqişə beynəlxalq sülh və təhlükəsizliyə təhlükə yaratmaqda davam etməklə Cənubi Qafqaz ölkələrində humanitar vəziyyətə mənfi təsir edir. BMT Baş Məclisi üzv-dövlətləri Azərbaycan Respublikasının beynəlxalq qaydada tanınmış sərhədləri çərçivəsində suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə çağırır. Qəbul edilən sənəddə BMT Baş Məclisi bir daha bəyan edir ki, Azərbaycan Respublikasının ərazisinin işğalı nəticəsində yaranmış vəziyyət heç bir dövlət qanuni saymamalı və bu vəziyyətin qalmasını təşviq etməməlidir.

2005-ci il yanvarın 25-də Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunmuş "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə"yə dair 1690 (2005) saylı Tövsiyədə xüsusilə hərbi əməliyyatlardan çəkinmə və Azərbaycan Respublikasının bütün işğal olunmuş ərazilərindən hərbi qüvvələrin geri çəkilməsi də daxil olmaqla əlaqədar tərəfləri BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrinə əməl etməyə çağırış ifadə edilmişdir. Eyni zamanda, həmin tarixdə Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunmuş "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə"yə dair 1416 (2005) saylı Qətnamənin 1-ci bəndində qeyd edilir ki, Azərbaycan Respublikası ərazisinin əhəmiyyətli hissələri hələ də erməni qüvvələri tərəfindən işğal altındadır və separatist qüvvələr hələ də Dağlıq Qarabağ bölgəsinə nəzarət edirlər. Eyni zamanda, Qətnamənin 3-cü bəndində Assambleya BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini xatırladır və əlaqədar tərəflərin, xüsusilə silahlı əməliyyatlardan çəkinməklə və istənilən işğal olunmuş ərazilərdən silahlı qüvvələri çıxarmaqla onlara riayət etməsini təkid edir.

Ermənistanın apardığı məqsədyönlü təcavüz siyasəti nəticəsində Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsini təşkil edən və 1990-1992-ci illər ərzində ümumi sahəsi 4400 km2 olan Dağlıq Qarabağ bölgəsi (1991-ci ilədək Azərbaycanın inzibati ərazi bölgüsünə əsasən - Şuşa, Xocavənd, Əsgəran, Hadrut, Ağdərə rayonları və Xankəndi daxil olmuşdur) işğal edilmişdir. Belə ki, Xankəndi 26 dekabr 1991-ci il, Xocalı 26 fevral 1992-ci il, Şuşa 8 may 1992-ci il, Xocavənd 2 oktyabr 1992-ci il, Ağdərə 17 iyun 1993-cü ildə işğal olunmuşdur. Bundan əlavə, Dağlıq Qarabağ regionuna bitişik 7 rayon - Laçın (18 may 1992), Kəlbəcər (02 aprel 1993), Ağdam (23 iyul 1993), Füzuli (23 avqust 1993), Cəbrayıl (23 avqust 1993), Qubadlı (31 avqust 1993), Zəngilan (29 oktyabr 1993) bütövlükdə və ya əksər yaşayış məntəqələri ilə birlikdə ermənilər tərəfindən işğal olunmuşdur. Halhazırda Ağdam ərazisinin 62,8%-i, Cəbrayıl və Füzuli ərazisinin ayrı-ayrılıqda 79,3%-i, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları isə bütövlükdə erməni işğalçılarının nəzarəti altındadır. Hazırda ölkəmizdə 1 milyon 200 min nəfərdən çox qaçqın və məcburi köçkün vardır. Həmçinin təcavüz nəticəsində iyirmi min nəfər həlak, əlli min şəxs isə əlil olmuşdur. Bütövlükdə, münaqişə müddətində 6 mindən çox Azərbaycan Respublikası vətəndaşı itkin düşmüş, əsir və girov götürülmüşdür.

Azərbaycan xalqına qarşı törədilən cinayətlərdən biri də soyqırımı cinayətidir. Bütövlükdə, azərbaycanlılara qarşı ermənilərin etnik təmizləmə siyasəti aşağıdakı mərhələlər üzrə nəzərdən keçirilməlidir: 1905-1907-ci illəri əhatə edən mərhələ; 1918-1920-ci illəri əhatə edən mərhələ; 1948-1953-cü illəri əhatə edən mərhələ;b1988-1993-cü illəri əhatə edən, müasir dövr üçün azərbaycanlılara qarşı soyqırımı, ərazi iddiaları və hərbi təcavüz üçün geniş zəmin yaratdığı dördüncü mərhələ.

Təkcə 1918-ci ilin ilk beş ayı ərzində Quba qəzasında 16 mindən çox insan xüsusi qəddarlıqla qətlə yetirilmiş, 167 kənd (hazırda onların 35-i mövcud deyildir) dağıdılmışdır. Bütövlükdə, erməni daşnakları tərəfindən 1918-ci ilin mart-aprel aylarında Bakıda və Azərbaycanın digər regionlarında 50 minə yaxın insan xüsusi işgəncələrlə qətlə yetirilmişdir. Quba şəhərindəki kütləvi məzarlıqda soyqırımı nəticəsində həddsiz amansızlıq və xüsusi qəddarlıqla öldürülən azərbaycanlılarla yanaşı ləzgilərin, yəhudilərin, tatların və digər milli azlıqlara mənsub olan minlərlə insanların zorakılığa məruz qaldığı aşkar edilmişdir. Nəhayət, 1988-ci ildə öz tarixi torpaqlarında yaşayan son 250 min azərbaycanlı bu ərazidən qovulmuş, bununla da bir xalq özünün təbii mühitindən (kökündən) birdəfəlik ayrı salınmışdır. Lakin 1988-ci ildə baş verən hadisələri təkcə deportasiya kimi qiymətləndirmək düzgün olmazdı. Belə ki, həmin hadisələr nəticəsində azərbaycanlılara qarşı soyqırımı siyasəti də kəskin formada davam etmişdir.



**Əmir Əliyev,**
*Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı, hüquq üzrə elmlər doktoru, professor*

Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasətinin son və davam edən ən son mərhələsində Xocalı soyqırımını xüsusilə qeyd etmək lazımdır. Xocalı soyqırımı Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini zəbt etmək məqsədilə Ermənistanın apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin miqyasına görə ən dəhşətlisi hesab edilməlidir. 1992-ci il fevralın 17-də Qaradağlı kəndində yaşanan soyqırımı miqyasına görə "ikinci Xocalı" da adlandırılır. Burada kəndin hər 10 sakinindən biri şəhid olmuşdur. 1992-ci ilin fevralında - Xocalı faciəsindən bir neçə gün əvvəl Qaradağlıda törədilən soyqırımıda 104 kənd sakini və 15 nəfər xüsusi müdafiə dəstəsinin üzvü əsir götürülmüş, onlardan 67 nəfəri erməni faşistləri tərəfindən qətlə yetirilmişdi. Öldürülənlərdən 10-u qadın, 8-i uşaq idi. Kənddə 200 yaşayış və 1 mədəniyyət evi, 320 yerlik orta məktəb və 25 çarpayılıq xəstəxana binaları və digər obyektlər dağıdılmışdı. 800 nəfərə yaxın sakin məcburi köçkünə çevrilmişdi. Bundan sonra erməni silahlı dəstələri Xankəndində yerləşən keçmiş SSRİ Müdafiə Nazirliyinə məxsus 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi şəxsi heyətinin iştirakı və "köməkliyi" ilə 1992-ci ilin fevral ayının 25-dən 26-sına keçən gecə Xocalı şəhərini işğal etmişlər. Lakin şəhərin zəbt olunması faktı təkcə müvafiq əməlin təcavüz kimi qiymətləndirilməsini şərtləndirmir, həm də həmin coğrafi ərazidə baş verənlərin "soyqırımı" cinayəti kimi tövsif olunmasına əsas verir. Belə ki, sözügedən təcavüz nəticəsində 613 nəfər, xüsusilə 63 uşaq, 106 qadın, 70 qoca qətlə yetirilmişdir. 1275 nəfər əsir götürülmüş, 8 ailə bütövlüklə məhv edilmiş, 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırılaraq başlarının dərisi soyulmuş, gözləri çıxarılmışdır. 1000 nəfərdən artıq dinc sakin, o cümlədən 76 uşaq müxtəlif dərəcəli güllə yarası alaraq şikəst olmuşdur. 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. 155 nəfər isə itkin düşmüşdür. Bütün bu statistik göstəricilər yalnız Xocalı sakinlərinə qarşı törədilən cinayətləri ifadə edir. Onu da qeyd etmək lazımdır ki, Xocalı faciəsi zamanı Azərbaycan Respublikasının müxtəlif bölgələrindən gəlmiş 300 nəfərdən artıq inşaatçı və digər sahələr üzrə mütəxəssislərdən təxminən 100 nəfərdən artıq şəxs soyqırımı zamanı şəhid olmuşdur.

Xocalı soyqırımının törədilməsindən sonra soyqırımı siyasətini davam etdirən Ermənistan tərəfindən növbəti hədəf Kəlbəcər rayonunun Ağdaban kəndi oldu. Ağdaban kəndi Kəlbəcər rayonunda, Ağdaban çayının sağ silsiləsində, Ağdaban dağının yamacında, Murovdağ silsiləsinin cənub ətəyində, rayon mərkəzindən 56 km şimal-şərqdə yerləşir. 1992-ci ilin aprelin 7-dən 8-inə keçən gecə Ermənistan silahlı birləşmələri Dağlıq Qarabağdakı erməni yaraqlılarının köməyi ilə Kəlbəcər rayonunun Ağdaban kəndinə hücum edərək, 130 evdən ibarət olan kəndi tamamilə yandırmış, 779 nəfər dinc sakinə divan tutmuş, 67 nəfəri amansızcasına qətlə yetirərək soyqırımı törətmişlər. Bir gecədə 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılmış, 2 nəfər itkin düşmüş, 12 nəfərə ağır bədən xəsarəti yetirilmişdir. Ermənilər tərəfindən tarixi, memarlıq, mədəniyyət və dini abidələr dağıdılmış, məzarlıqlar təhqir olunmaqla məhv edilmişdir ki, bu da bilavasitə "mədəni soyqırımı" siyasətinin tərkib hissəsi hesab olunmalıdır.

İslam Əməkdaşlığı Təşkilatı, bir sıra dünya dövlətləri (Bosniya və Herseqovina, Çex Respublikası, İordaniya Haşimilər Krallığı, Pakistan İslam Respublikası, Kolumbiya Respublikası, Qvatemala Respublikası, Honduras Respublikası, Panama Respublikası, Peru Respublikası, Sudan Respublikası, Paraqvay Respublikası və s.), eləcə də ABŞ-ın bir sıra ştatları (Arizona, Arkanzas, Konnektikut, Corciya, Havay, İndiana, Men, Massaçusets, Nebraska, Missisipi, Nyu-Cersi, Nyu-Meksika, Oklahoma, Pensilvaniya, Tennesi, Texas, Yuta, Qərbi Virciniya və s.) öz hüquqi-siyasi mövqeyini əks etdirərək, Xocalıda törədilən cinayətləri "soyqırımı" kimi tanımışlar.

Ermənistanın Azərbaycan Respublikasına və xalqına qarşı törətdiyi beynəlxalq hüquqazidd əməllərdən biri də müharibə cinayətləridir. Bu zaman, ilk növbədə, ətraf mühitə genişmiqyaslı, uzunmüddətli və ciddi ziyan vurulmasına səbəb olan qəsdən hücumların edilməsini xüsusilə vurğulamaq lazımdır. Belə ki, Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş 1,7 milyon hektar ərazisinin 595,6 min hektarı kənd təsərrüfatına yararlı torpaqlar, 247,4 min hektarı meşə ilə örtülü, 10,1 min hektarı isə həyətyanı sahələrdən ibarət olmuşdur. İşğal olunmuş torpaqlarda 42997 hektar sahəyə malik xüsusi mühafizə olunan təbiət əraziləri - Bəsitçay Dövlət Təbiət Qoruğu, Arazboyu Dövlət Təbiət yasaqlığı, Qaragöl Dövlət Təbiət Qoruğu, Laçın rayon Dövlət Təbiət yasaqlığı, Qubadlı rayon Dövlət Təbiət yasaqlığı və Daşaltı Dövlət Təbiət yasaqlığı mövcuddur. Bu ərazilərdə 155 növ faydalı qazıntı yataqları, o cümlədən - 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üzlük daşı, 10 mişar daşı, 4 sement xammalı, 13 müxtəlif növ tikinti daşları, 1 soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü, 10 gil, 9 qum-çınqıl, 5 tikinti qumu, 9 gips, anhidrid və gəc, 1 perlit, 1 obsidian, 3 vermikulit, 14 əlvan və bəzək daşları, 11 şirin yeraltı su və 10 mineral su yataqları yerləşir.

**Davamı növbəti sayda**

# SOCAR: Hazırda Bakı-Tbilisi-Ceyhan kəməri əvvəlki kimi öz fəaliyyətini davam etdirir



Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri hazırda əvvəlki kimi öz fəaliyyətini davam etdirir.

**AZƏRTAC xəbər verir ki, bu barədə SOCAR-ın İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədov deyib.**

"Azərbaycanın Baş Prokurorluğuna istinadən yayılmış xəbərdə bildirilir ki, Ermənistanın silahlı qüvvələri tərəfindən Yevlax rayonu ərazisində Bakı-Tbilisi-Ceyhan neft boru kəmərini hədəf alan raket zərbələrinin qarşısı alınıb. Boru kəmərinin operatorundan aldığımız məlumata görə, BTC ixrac boru kəməri hazırda əvvəlki kimi öz fəaliyyətini davam etdirir. BTC boru kəmərinin paydaşları arasında dünyanın müxtəlif aparıcı enerji şirkətləri yer almaqdadır. Azərbaycanın neft-qaz infrastrukturunu hədəfə almaqla Ermənistan təkcə bizim ölkənin deyil, Avropa İttifaqının da enerji təhlükəsizliyinə qarşı ciddi təhlükələr yaradır. Bu təhdid yeni deyil, sonuncu dəfə cari ilin iyul ayında Tovuz rayonunda Ermənistan silahlı qüvvələrinin hücumu beynəlxalq əhəmiyyətli neft-qaz infrastrukturumuzu birbaşa təhlükə altına qoymuşdu. Dağlıq Qarabağ və Azərbaycanın ətraf rayonlarının Ermənistanın uzunmüddətli işğalı altında olması beynəlxalq neft və qaz boru kəmərləri üçün daimi təhdid və təhlükə mənbəyidir. Azərbaycanın Milli Ordusu hazırda Ermənistanın hücumlarını dəf etməklə, bu infrastrukturun təhlükəsizliyini təmin edən əsas amildir. Azərbaycan Ordusunun hazırkı əks-həmlə əməliyyatı işğal altında olan əraziləri tam azad etməklə Ermənistanın təhdidlərini tam aradan qaldıra biləcək yeganə amil kimi görünür. Bu isə boru kəmərlərimizin davamlı təhlükəsizliyini də təmin edəcək", - deyə o qeyd edib.

# Biz terrorizmlə beynəlxalq hüquq çərçivəsində mübarizə aparırıq

**Azərbaycan Ordusu öz ərazisində beynəlxalq hüququn normalarına uyğun şəkildə hərbi əməliyyatlar keçirir. Silahlı Qüvvələrimizin əks-hücum əməliyyatları düşmənə sarsıdıcı zərbələrlə müşayiət olunur. Belə bir vəziyyətdə işğalçı ölkənin baş naziri Nikol Paşinyan isə atəşkəsin bərpa olunmasına can atır.**

Amma Azərbaycan Prezidenti İlham Əliyevin də bəyan etdiyi kimi, atəşkəs müəyyən şərtlərlə təmin edilə bilər və sadəcə, atəşkəsin bərpa edilməsi məsələsi müzakirə mövzusu ola bilməz. ATƏT-in Minsk qrupu çərçivəsində təxminən 30 ildir Azərbaycan danışıqlara gedərək münaqişəni sülh yolu ilə həll etməyə çalışdı və davam edən danışıqlar heç bir nəticə vermədi, çünki Ermənistan son illərdə həmişə prosesi uzatmaq və status-kvonu davam etdirmək üçün danışıqları pozmağa çalışırdı. Nikol Paşinyanın timsalında Ermənistanın yeni inqilabi diktaturası prosesi daha da çətinləşdirdi. Paşinyan "Qarabağ Ermənistandır" deyərək, sülh prosesinə zərbə vurdu. Daha sonra separatçı quldurların başçısı Araik Arutyunyanın Şuşa şəhərində "andiçmə mərasimi", Ermənistan müdafiə nazirinin "yeni ərazilər üçün yeni müharibə" elanları, iyul ayında Azərbaycanın Tovuz bölgəsində Ermənistanın hərbi təxribatları, baş nazirin həyat yoldaşının iştirakı ilə döyüş və atıcılıq təlim kursları və Livandan olan ermənilərin qanunsuz olaraq işğal edilmiş ərazilərə köçürülməsi bütünlükdə hazırkı gərginliyə gətirib çıxaran amillər idi. Yeni erməni diktatorunun absurd yeddi şərt irəli sürməsi faktiki olaraq Ermənistanın danışıqlar prosesindən çəkildiyini deməyə əsas verirdi. Bu xüsusda, sentyabrın 27-də səhər saatlarında Ermənistan silahlı qüvvələri Azərbaycanın yaşayış məntəqələrini və hərbi mövqelərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından istifadə edərək müxtəlif istiqamətlərdən intensiv atəşə tutmağa başladılar. Azərbaycan Silahlı Qüvvələri Ermənistanın yeni hərbi təcavüzünün qarşısını almaq və mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün özünümüdafiə hüququ və beynəlxalq humanitar hüquqa tam uyğun olaraq əks-hücum və cavab tədbirləri həyata keçirməli oldu.

Bu gün Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ölkəmizin ərazi bütövlüyünü qorumaq üçün mübarizə aparır. Dövlətimiz, beynəlxalq ictimaiyyətin ədalətin tərəfində olmasını gözləyir və BMT TŞ-nin dörd qətnaməsinin tələblərinə uyğun olaraq Ermənistanın işğalçı qüvvələrini dərhal, tam və qeyd-şərtsiz işğal olunmuş ərazilərdən çıxarmasını tələb etməsini istəyir. Ermənistanın hərbi qüvvələrinin geri çəkilməsini tələb etmədən tərəfləri hərbi əməliyyatları dayandırmağa dəvət etməsi Ermənistanın Azərbaycan torpaqlarını həmişəlik işğal altında saxlamaq istəyinə xidmət edir. Elə Prezident İlham Əliyevin "Əl-Cəzirə" televiziya kanalına verdiyi müsahibədə də bu kimi məsələlərə aydınlıq gətirilib ki, artıq beynəlxalq ictimaiyyətin həmin fikirlər ətrafında öz mövqelərini formalaşdırması işin xeyrinə olardı. Azərbaycanın dövlət başçısı müsahibəsində qeyd edib ki, ermənilər Azərbaycan torpaqlarını həmişəlik işğal altında saxlamaq istəyirlər.

Dövlət başçısı müsahibəsində qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr kağız üzərində qalmaqdadır: "Həll yolunun tapılması üçün vasitəçilik aparmaq məqsədilə Minsk qrupu artıq 28 ildir ki, fəaliyyət göstərir və heç bir nəticə yoxdur. Bunun əsas səbəbi Ermənistanın mövqeyidir, ikinci səbəb Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına başlamaq üçün vasitəçilər tərəfindən təkid göstərilməməsi və təzyiqin olmamasıdır. Beynəlxalq hüququn normaları və beynəlxalq təşkilatların qərar və qətnamələri baxımından çox geniş dəstək var. Beynəlxalq ali orqan olan BMT-nin Təhlükəsizlik Şurası Ermənistanın qoşunlarının geri çəkilməsini tələb edən qətnamələr qəbul etmişdir. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası eynisini edib. İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti kimi digər beynəlxalq təşkilatlar və başqaları eynisini edib, lakin bu, kifayət etmir".

Məhz bu kimi amilləri nəzərə alan Prezident İlham Əliyev hesab edir ki, münaqişənin həlli üçün Azərbaycanın



hüquqi əsasları var: "Münaqişənin həlli üçün hüquqi çərçivəmiz var. Lakin təcavüzkara kifayət qədər praktiki təzyiq yoxdur. Beləliklə, burada beynəlxalq hüquq və reallıqda baş verənlər arasında ziddiyyət görürük. Ermənistan tərəfindən beynəlxalq hüquqa və normalara açıq şəkildə məhəl qoyulmaması beynəlxalq hüququn işləmədiyinin və ya selektiv üsulla işlədiyinin yaxşı göstəricisidir. Ermənistan müzakirələri pozan tərəfdir. Son iki ildə "inqilab"dan sonra Ermənistanın nə bəyan etdiyinə nəzər salındığında görünür ki, onlar həmişə təhrik ediblər və yeni müharibəyə başlamağı hədəfə alıblar və bunun səbəbi danışıqları tamamilə pozmaq idi. Onlar Azərbaycana qarşı bir neçə hərbi təxribat törədiblər. İyulun 12-də onlar münaqişə regionundan çox uzaqda olan Tovuz rayonunda, Azərbaycanın qərbində, Ermənistan-Azərbaycan sərhədindəki kəndlərə və hərbi mövqelərə hücum ediblər".

Məhz dövlət başçısının sadaladığı faktlar, eləcə də beynəlxalq hüquq Azərbaycana imkan verir ki, işğal altında olan torpaqlarını erməni qəsbkarlarından azad etsin. Sözün həqiqi mənasında Azərbaycanın buna hüquqi və mənəvi haqqı çatır. Çünki Azərbaycan heç bir dövlətin torpağına göz dikmir, heç bir ölkəyə qarşı ərazi iddiası ilə çıxış etmir. Azərbaycan sadəcə, düşmən tərəfindən işğal edilmiş ərazilərini geri qaytarmaqla ölkənin ərazi bütövlüyü və suverenliyini bərpa edir.

**Nigar Orucova,**
***"İki sahil"***

# Niyə atəşkəs olmalıdır?



**Ceyhun Piriyev**

**30 ildir ki, Azərbaycanın ərazilərini işğal altında qalmasına əhəmiyyət verməyən məlum qüvvələr ölkəmizin əks-hücum əməliyyatında əldə etdiyi uğurlara narahatlıqlarını açıq şəkildə nümayiş etdirməkdədirlər. Bu mənada atəşin qeyd-şərtsiz dayandırılması və ATƏT-in Minsk qrupu çərçivəsində danışıqların davam etdirilməsi ilə bağlı çağırışlar əbəs yerə deyil. Səbəb təcavüzkar Ermənistanın növbəti hücumunun uğursuzluqla nəticələnməsi və düşmənin 30 ildir işğalda saxladığı əraziləri biri-birinin ardınca itirməkdə olmasıdır.**

30 ildir nəticəsiz qalan danışıqların müharibə ilə əvəz olunması fonunda ərazilərin əks-hücum əməliyyatı ilə işğaldan azad edilməsi Azərbaycan Ordusunun uğurundan xəbər verir. Ancaq bu uğuru qazanmaq və onu əldə də saxlamaq da ağır döyüşlərin hesabına başa gəlməklə həm də müəyyən itkilər deməkdir. Bu baxımdan atəşkəs, həmçinin Azərbaycan tərəfinin də marağında olan məsələdir. Bununla belə, bu atəşkəs böyük zəmanətə əsaslanmalı, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsini təmin etməlidir.

Prezident İlham Əliyev bu günlərdə bir neçə dəfə Azərbaycanın atəşkəs şərtini açıqlasa da, Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibəsində bu barədə daha ətraflı danışaraq atəşkəsin müəyyən şərtlərlə təmin edilməli olduğunu bildirib: "Çünki bu günə qədər bizə ünvanlanan çağırışlar, sadəcə bundan ibarətdir ki, atəşkəsi təmin edin, müharibəyə ara verin, ondan sonra müzakirələr davam etsin.... Bizə çox ciddi zəmanətlər verilməlidir. Beynəlxalq vasitəçilər bizə bu zəmanətləri təsdiq etməlidirlər. Eyni zamanda, Ermənistanın işğal edilmiş torpaqlardan çıxmaq qrafiki, yəni cədvəli bizə verilməlidir, hansı gün hansı bölgədən çıxacaq. Təbii ki, o zaman müharibə dayanacaq. Çünki biz istəyirik ki, bu məsələ sülh yolu ilə həll olunsun, amma həll olunsun. Bəzi vasitəçilər istəyirlər ki, sadəcə atəşkəs olsun. Atəşkəs isə 1994-cü ildən qüvvədədir. Bu illər ərzində niyə bu məsələ həll olunmadı? Birləşmiş Millətlər Təşkilatının qərarları niyə icra edilmədi? Təcavüzkar dövlətə sanksiyalar niyə tətbiq edilmədi? Bütün bu suallar havada qalır".

Ölkə başçısının qoyduğu suallar olduqca aktualdır və cavabı özü-özlüyündə münaqişənin 30 ildir həll edilməməsinə aydınlıq gətirir. Məlumdur ki, Azərbaycan 30 ilə yaxındır ki, sülh danışıqlarında iştirak edirdi və bu prosesdən böyük gözləntiləri var idi. Bu danışıqlar uzun illəri əhatə etsə də, mahiyyət etibarilə ölkəmizin ərazi bütövlüyünün bərpasına əsaslanması Azərbaycan tərəfində münaqişənin həlli ilə bağlı böyük ümidlərin yaranmasına səbəb olmuşdu.

Lakin məlum olduğu kimi, Ermənistan bu ümidləri doğrultmadı və ötən müddət işğalçını daha da azğınlaşaraq yeni ərazilər əldə etməyə cəsarətləndirmiş oldu. Bu baxımdan Prezident İlham Əliyevin də sözügedən müsahibədə vurğuladığı kimi, ölkəmiz əks-hücum əməliyyatına keçib işğal edilmiş ərazilərini Azərbaycan əsgərinin gücü ilə azad edir. Ona görə də Azərbaycan tərəfi üçün atəşkəsin bərpa edilməsi məsələsi müzakirə mövzusu deyil.

Axı, atəşkəsdən sonra hansı müzakirələr gedə bilər və bu müzakirələr nələrin əsasında baş tutacaq ki? Bu sualı atəşkəs çağırışları edənlər cavablandırmasalar da, nəticə Azərbaycana məlumdur. Elə Prezident İlham Əliyev də müsahibədə bu suallı cavablandırıb: "Bu gün Azərbaycan şanlı Ordusu öz uğurlu əməliyyatlarını keçirərkən, bizim dədə-baba torpaqlarımızı azad edərkən bu çağırışlar gəlir ki, nəbadə irəliyə getməyin, ara verin. Müharibənin öz qaydaları, öz qanunları var. Hər günün öz əhəmiyyəti var, önəmi var. Biz ara versək, qarşı tərəf toparlanacaq, əlavə qüvvə yığacaq".

Bu arada Ermənistan xaricdə yaşayan erməniləri döyüşlərə cəlb etməkdədir. İşğalçı ölkə, həmçinin Azərbaycanın digər ərazilərinə raket zərbələri endirməklə üçüncü tərəfi müharibəyə cəlb etməyə, müharibəni regional müstəvidən qlobal müstəviyə keçirməyə cəhd edir. Nəticədə Azərbaycan daha böyük miqyaslı müharibə ilə təhdid edilməklə ədalətli mübarizəsindən çəkindirilməyə çağırılır.

# Tərtərin Aslan oğlu...





Oktyabrın 3-də Azərbaycan Prezidenti İlham Əliyev Ağdərə rayonu ərazisindəki Madagiz kəndinin erməni işğalçılarından azad edilməsi münasibətilə döyüşçülərimizi təbrik etdi və bu kəndin tarixi Suqovuşan adının bərpa olunduğunu elan etdi.

Prezidentimizin təbrikindən Azərbaycan Ordusunun giziri Aslan Malik oğlu Hüseynova da pay düşür. Ancaq çox təəssüf ki, bu təbriki onun əvəzinə atası Malikə çatdırdılar. Onun əvəzinə ona görə deyirəm ki...Aslanın barəsində keçmiş zamanda danışmaq nə qədər ağır və üzücü olsa da, danışmalıyıq, çünki qəhrəman oğlumuzun həyat və döyüş yolunu bilməli, gələcək nəsillərə də tanıtmalı, öyrətməliyik.

Tərtər rayonunun Qaradağlı kəndində dünya ilə görüşə gələn Aslan ağıllı, təmkinli, sakit, sözəbaxan, tapşırılan işləri tez yerinə yetirən bir oğlan kimi tanınmışdı. Ancaq heç kəs gələcəkdə onun hərbçi olacağını düşünmürdü. Tale ona ən şərəfli peşəni - Vətəni qorumaq kimi missiyanı nəsib etdi. Aslan Hüseynov əsgəri hərbi xidmətini bitirdikdən sonra, yeddi il əvvəl yenidən ordu sıralarına qayıtdı. İlk günlərdən əsgər yoldaşlarının və komandirlərinin hörmətini qazandı. Öz nümunəvi xidməti ilə fərqlənən Aslan ard-arda kiçik çavuş, çavuş və baş çavuş rütbələrinə yüksəldi. 2016-cı ilin dörd günlük aprel müharibəsində Aslan dəqiq artilleriya atəşləri ilə düşmənin iki tankını və yük avtomobilini vurub yandırdı. Komandanlıq onun bu şücaətini yüksək qiymətləndirdi, sinəsini medal bəzədi, qiymətli mükafatlarla təltif edildi. O, yarımillik ixtisas kursuna göndərildi, oranı başa vurandan sonra əvvəlcə kiçik gizir, daha sonra gizir rütbələrinə layiq görüldü. Hərbi hissə komandanlığı tərəfindən raket daşıyan zirehli texnikanın ekipaj komandiri təyin edildi.

Keçən ayın 27-də, yeni müharibənin ilk günlərində xidmət etdiyi artilleriya divizionu ilə cəbhənin Tərtər-Goranboy istiqamətində döyüşən Aslan Hüseynov düşmənə göz açmağa imkan vermədi. Batareya Gülüstan kəndi ətrafında manevr edən zirehli texnikanı məhv edir, düşmənin qorunduğu istehkamların necə deyərlər, külünü göyə sovururdu. Amansız döyüşlərin dördüncü günü onun batareyası artıq düşmənin diqqətini cəlb etmişdi, ona görə də sentyabrın 30-da oraya tankla hücuma keçdi. Aslan bir sərrast atəşlə tankı vurub yandırdı. Bunu görən erməni quldurları batareyanı hədəfə alaraq oranı minaatanlardan atəşə tutdular. Minalardan biri Aslanın lap yaxınlığında yerə düşüb partladı. Aslan ağır yaralandı və onu xilas etmək mümkün olmadı...

...Qaradağlı kəndi ilk şəhidini qarşıladı. Bütün kənd əhalisi, rayon ictimaiyyətinin nümayəndələri Malikin qapısına yığışdı. Azərbaycan bayrağına bükülmüş cənazənin başında Aslanın xidmət etdiyi hərbi hissənin komandirləri, döyüşçü dostları öz ürək sözlərini söylədilər. Onlar Aslanın bir aslan ömrü yaşadığını, Vətənə əsl qəhrəman kimi xidmət etdiyini bildirdilər. Dəfndən sonra hərbi hissənin yüksək rütbəli zabitlərindən biri cənazənin büküldüyü bayrağı Aslanın beş yaşlı oğlu Kənana verib dedi:

-Götür, bu müqəddəs bayrağımızı yadigar saxla, oğlum, atan onu öz igidliyi ilə qazanıb!

İndi Aslanın müəllimləri, kənd ağsaqqalları onun sakit təbiətindən, ağıllı hərəkətlərindən, böyüyə-kiçiyə hörmətindən və digər gözəl keyfiyyətlərindən yana-yana söz açırlar. Onlar istər çətin günlərdə, istərsə də toyda, bayramda hamının yanında olmağa can atmasından, hər işdə köməyə gəlməsindən xatirələr danışırlar. Bəli, məclislərin yaraşığı olan Aslan kəndin sevimli oğullarından biri idi...Yeri behişt olsun!

Onu da deyim ki, İradə və Malik Hüseynovlar ailəsinin kiçik oğlu İsgəndər də döyüşür. Qardaşının dəfnində iştirak edən İsgəndər ertəsi gün döyüşən yoldaşlarının yanına getmək istədiyini bildirəndə ağsaqqallar bildirdilər ki, tələsməsin, heç olmasa üç mərasimində də iştirak etsin, sonra getsin.

Düzü, İsgəndərin bu sözlərindən sonra Azərbaycan xalqının belə qeyrətli oğullarının dəyanətinə, güclü Vətən, torpaq sevgisinə inamım birə-yüz artdı, fəxr etdim. Düşmən çəpəri olan belə oğullarla Vətən heç vaxt basılmaz!

**Vəli İlyasov,**
***"İki sahil"***

*Məhəbbət İbrahimova:*

# Azərbaycan Ordusu növbəti dəfə möhtəşəm tarix yazmaqdadır

"Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda tutarlı cavabları ilə Ermənistanın təcavüzkar siyasətini, yalana söykənən əsassız təbliğatını ifşa etməklə yanaşı, dünyaya bu reallığı da çatdırdı ki, Ermənistan açıq təxribatları ilə yenidən müharibəyə hazırlaşır. Həmçinin dövlətimizin başçısı İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edərkən fevral ayındakı görüşdən bu günə regionun təhlükəli bir məkana çevrildiyini önə çəkərək diqqəti Ermənistanın Azərbaycana qarşı davamlı hərbi təxribatlarına yönəltmiş və bildirmişdir ki, onlar Azərbaycana hücum edə, dövlət sərhədini keçə və yeni əraziləri işğal edə biləcəklərini düşünürlər. Bu, Ermənistanın müdafiə nazirinin bəyanatına müvafiqdir. O, bu bəyanatı Amerika Birləşmiş Ştatlarında olarkən vermişdir və demişdir ki, Ermənistan yeni ərazilər üçün yeni müharibəyə başlayacaq. Bu, Ermənistanın təcavüzkar davranışının davam etməsini aydın nümayiş etdirir."

**Bu fikirləri "İki sahil" qəzetinə açıqlamasında YAP Qadınlar Şurasının sədr müavini Məhəbbət İbrahimova bildirib.**



Məhəbbət İbrahimova qeyd edib ki, göründüyü kimi, Azərbaycan dövləti Ermənistanın törətdiyi təxribatların məqsədini ən yüksək səviyyədə bəyan edərək, beynəlxalq təşkilatlardan işğalçı dövlətə bunun qarşısını almaq üçün təsir göstərilməsini tələb edir. Lakin nədənsə dünya biganəliyi ilə cəbhə xəttində hərbi təxribatların törədilməsinə açıq-aşkar rəvac verir. Dövlətimizin başçısı İlham Əliyevin bəyan etdiyi kimi, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür. Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi atəşə tutdu. Bunun nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər və yaralananlar var. Bu, bir daha onu göstərir ki, Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir və bu siyasət işğalçı dövlətin faşist mahiyyətini bütün dünyaya nümayiş etdirir.

M. İbrahimova qeyd edib ki, Azərbaycan Ordusu növbəti dəfə tarix yazmaqdadır. İşğalçı və təcavüzkar Ermənistanın növbəti təxribatı nəticəsində yaranmış gərginliklə bağlı, Silahlı Qüvvələrimiz bütün cəbhə boyu əkshücum əməliyyatına başlayıb və bu bir daha - 2016-cı ilin aprel döyüşlərində, 2018-ci ilin Cünnüt əməliyyatında və bu ilin iyulunda Tovuz hadisələri zamanı olduğu kimi, işğalçıya öz gücünü göstərir. Təqdirəlayiq haldır ki, bu gün xalqımız öz Ali Baş Komandanına və müzəffər ordusuna birmənalı dəstək nümayiş etdirir, torpaqlarımızın işğaldan azad olunacağına dair yüksək inam ifadə edir. Bir mühüm məqamı da böyük fəxr hissi ilə qeyd edirik ki, dövlətimizin başçısı İlham Əliyevin çağırışına uyğun olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmək məqsədilə könüllü müraciət edənlərin sayı onminlərlədir. Vətənpərvərlik hissinin göstəricisi kimi qəbul edilən bu statistika, eyni zamanda, dövlətimizin başçısı İlham Əliyevin Azərbaycanda qismən səfərbərlik elan edilməsi haqqında Sərəncamından irəli gələn tapşırıqların icrasında vətəndaşlarımızın böyük ruh yüksəkliyi ilə iştirak edəcəklərinin təsdiqidir. Xalq-dövlət, xalq-ordu birliyi qarşıya qoyulan hər bir hədəfə çatmaq üçün stimulverici amil rolunu oynayır.

M.İbrahimova diqqətə çatdırıb ki, son günlərdə cəbhə xəttindən gələn qələbə xəbərləri hər birimizdə qürur hissləri doğurur. Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad etmək iqtidarında olduğunu bir daha işğalçı Ermənistana və ona havadarlıq edən dövlətlərə nümayiş etdirir. Biz müharibə istəmirik, amma torpaqlarımızı işğaldan azad etmək qeyrəti, niyyəti bir an da bizi tərk etməyib. 30 ildən artıqdır dövlətimizin uğurlu siyasəti, real faktlara, tarixi həqiqətlərə əsaslanan təbliğatı nəticəsində dünya ermənilərin əsl simasını, onların beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozduğunu, beynəlxalq təşkilatların qərar və qətnamələrinə məhəl qoymadan öz riyakarlığını davam etdirdiyinin şahididir. Ermənilərin döyüş meydanlarında məğlubiyyətdən sonra mülki şəxslərə, yaşayış məntəqələrinə hücum etmələri məlum olaylardandır. Azərbaycan Ordusu bu hərbi təxribatların qarşısını qətiyyətlə alır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, biz haqq-ədalət tərəfindəyik: "Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq!."

**Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***

# Qarabağda döyüşən daha iki muzdlu terrorçu məhv edildi

Ermənistan silahlı qüvvələrinin tərkibində Azərbaycana qarşı hərbi təcavüzdə iştirak edən daha iki xarici muzdlu-terrorçu məhv edilib.

"Report" xəbər verir ki, bununla bağlı sosial şəbəkələrdə məlumat yayılıb. Eyni zamanda, sübut kimi məhv edilən terrorçuların fotoları təqdim edilib.

Qeyd edək ki, Azərbaycan Ordusunun cəbhədə sülhə məcburetmə və antiterror əməliyyatları davam edir.





# Kamal Kılıçdaroğlu: 83 milyonluq xalq olaraq ürəyimiz Azərbaycanladır

Azərbaycan torpaqları beynəlxalq hüquqa zidd olaraq işğal edilib. Otuz ildir gözlənilir ki, işğal nə zaman başa çatacaq. Ermənistan rəhbərliyi heç dillənmir və deyir ki, biz işğal etdiyimiz torpaqlardan çıxmayacağıq. Azərbaycan rəhbərliyi də deyir ki, artıq bizim işğala səbrimiz qalmadı. İndi də bir qarşıdurma var. Beləliklə, məlum münaqişədə 83 milyonluq xalq olaraq ürəyimiz Azərbaycanladır. Onları sevirik və haqsızlığa qarşıyıq.



AZƏRTAC xəbər verir ki, bu fikirləri Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Kamal Kılıçdaroğlu rəhbərlik etdiyi partiyanın Türkiyə Böyük Millət Məclisində təmsil olunan deputatlarının qrup toplantısındakı çıxışında deyib.

Beynəlxalq hüquqa görə Azərbaycanın haqlı olduğunu və buna görə də qardaş ölkənin yanında dayandıqlarını diqqətə çatdıran K.Kılıçdaroğlu deyib: "Azərbaycan sürətlə inkişaf edən ölkədir. Dostluğumuz, dostlarımız var. Türkiyədə yaşayan çox sayda Azərbaycan əsilli vətəndaşlarımız var. Birliyi və bütövlüyü qoruyaraq işğalın sona çatmasını arzu edir, bu hadisələrin bitməsini istəyirik".

Prezident İlham Əliyevin bu məsələdə mövqeyinin açıq, konkret və qəbuledilən olduğunu deyən partiya sədri dövlətimizin başçısının fikirlərindən sitat gətirərək bildirib: "Hörmətli İlham Əliyev deyib ki, işğal etdiyiniz torpaqlarımızdan çəkilin, üzr istəyin və bununla da problem bitmiş olsun. Bizim erməni xalqı ilə yox, Ermənistan rəhbərliyi ilə problemimiz var. Beləliklə, problem bütünlüklə Ermənistan rəhbərliyindən qaynaqlanır".

# QHT-lər "Amnesty International"a etiraz etdi




Azərbaycanda insan hüquqları sahəsində fəaliyyət göstərən QHT-lər "Amnesty International"ın verdiyi bəyanata etiraz edib.

"Report"un xəbərinə görə, QHT-lərin müraciətində deyilir:

"Azərbaycanda insan hüquqları sahəsində fəaliyyət göstərən QHT-lər olaraq dərin narahatlıq və narazılıq hissi ilə Sizin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində mülki şəxslərin qorunması vacibliyi ilə bağlı verdiyiniz bəyanata etirazımızı bildiririk.

Hüquq müdafiə təşkilatı kimi mülki şəxslərin humanitar hüquq, həmçinin beynəlxalq insan hüquqları çərçivəsində qorunmasının vacibliyi ilə bağlı mövqeyiniz təqdirəlayiqdir. Lakin təəssüflər olsun ki, bəyanatınızda qeyri-obyektiv baxış və qərəzlilik hiss olunur.

Belə ki, bəyanatda daha çox məhz Xankəndi və Şuşanın Azərbaycan hərbi qüvvələri tərəfindən bombalandığı barədə məlumat verirsiniz, lakin Ermənistanın 1949-cu il Cenevrə Konvensiyası da daxil olmaqla beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq Gəncə, Tərtər, Mingəçevir, Bərdə, Beyləqan, Ağcabədi, Xızı və azərbaycanlı mülki əhalinin sıx məskunlaşdığı digər şəhər və kəndlərimizə hücumlar edərək münaqişənin miqyasını və coğrafiyasını açıq şəkildə genişləndirmək cəhdlərini qeyd etmirsiniz.

Diqqətinizə çatdırmaq istərdik ki, Ermənistanın raket zərbələri nəticəsində 27 azərbaycanlı mülki şəxs həlak olub, 141 nəfər yaralanıb, 500-dən çox yaşayış binası və mülki obyekt isə dağıdılıb. Bu cür vacib və həssas məsələdə selektiv yanaşma insan hüquqları prizması baxmından qərəzsizlik mövqeyinin tamamilə pozulması deməkdir.

Eyni zamanda düzgün olaraq qeyd edirsiniz ki, Azərbaycan və Ermənistan Klaster silahları barədə Konvensiyanın tərəfləridir. Azərbaycan tərəfi bu konvensiya ilə öhdəlikləri tamlıqla yerinə yetirir. Lakin Ermənistan ordusunun istifadə etdiyi klaster bombaları münaqişə zonasında və ondan aralıda yerləşən kənd və şəhərlərin mülki əhalisinə və infrastrukturuna xeyli zərər vurub. Beynəlxalq hüququn norma və prinsipləri Azərbaycan Silahlı Qüvvələrinin ölkəmizin ərazi bütövlüyünü bərpa etmək və mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün apardığı əməliyyatlara haqq verir. Azərbaycan ordusu öz ərazisində müdafiə olunur və yalnız legitim hərbi obyektləri hədəf seçir. Mülki obyektlərə konvensiyaya uyğun olaraq atəş açılmır.

Yuxarıda göstərilən faktları nəzərə alaraq Azərbaycanda insan hüquqları sahəsində fəaliyyət göstərən QHT-lər adından Sizə müraciət edir və Ermənistanın Azərbaycan xalqına qarşı həyata keçirdiyi təxribatçı hərbi təcavüzünü və hərbi cinayətlərini pisləməyə çağırırıq.

Ermənistanın Azərbaycana qarşı son hərbi cinayətlərinə dair məlumatları əks etdirən infoqrafika müraciətə əlavə edilir".

MÜRACİƏTİ İMZALAYAN
9 QHT SƏDRİ AŞAĞIDAKILARDIR:

*1. Novella Cəfərova - D.Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti*

*2. Ramil İsgəndərli - "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyi*

*3. Səidə Qocamanlı - İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi İctimai Birliyi*

*4. Arzu Abdullayeva - Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsi*

*5. Səadət Bənənyarlı - "Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi" İctimai Birliyi*

*6. Zəlixə Tahirova - Azərbaycan İnsan Hüquqları Mərkəzi*

*7. Əvəz Həsənov - "Humanitar Tədqiqatlar" İctimai Birliyi*

*8. Mirvari Qəhrəmanlı - Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatı İctimai Birliyi*

*9. Eldar Zeynalov - Azərbaycan İnsan Hüquqları Mərkəzi.*

# 27 ildən sonra doğma evinə qayıdan Cəbrayıllı mayor



Qarabağ cəbhəsinin Cəbrayıl rayonu istiqamətində uğurlu əks-hücum əməliyyatları gerçəkləşdirən rəşadətli Azərbaycan Ordusu irəliləməkdədir.

Cəbrayıl rayonunun iki gün öncə işğaldan azad edilmiş Horovlu kəndində çəkilmiş bir fotoşəkil oktyabrın 7-nə keçən gecə sosial şəbəkələrin trendinə çevrilib.

Modern.az-ın məlumatına görə, şəkildə Azərbaycan Silahlı Qüvvələrinin Cəbrayıl rayonundan olan mayoru Camal Qəmbərov əks olunub. O, 7 yaşında tərk etmək məcburiyyətində qaldığı doğma Horovlu kəndindəki həyətlərində şəkil çəkdirib.

Düz 27 ildən sonra yenə həmin həyət, həmin bağ... Camal Qəmbərovun hisslərini onun çöhrəsindən oxumaq olur, daha əlavə şərhə ehtiyac yoxdur.

Təbrik edirik cənab mayor, uğurlar Azərbaycan Ordusu!

A.Qorxmaz

# Aleksandr Kostin: Vətənin bütövlüyünü, tarixi ədaləti bərpa etmək borcumuzdur



Əvvəla, mən Rusiya ictimaiyyətinə müraciət edirəm. Rusiya telekanallarında ən aktual mövzulara həsr olunan çoxsaylı tok-şoular aparılır. Mövzular aydındır, məntiqi təhlillərə əsaslanır. Təəccüblüsü budur ki, Qarabağ məsələsinə gəldikdə, belə təəssürat yaranır ki, otuz il ərzində şərhçilər hələ də mövzuya girməyiblər. Doğrudur, etibarsız məlumatlar hamısı bir tərəfə. Axı, ən əsas və prinsipial məsələ nədir - müharibə kimin torpağında gedir? Şübhəsiz ki, Azərbaycan torpağında. Bu torpaqlar otuz il əvvəl Ermənistanın işğal etdiyi torpaqlardır. Azərbaycan isə öz torpaqlarını beynəlxalq normalara uyğun olaraq, tamamilə qanuni əsaslarla azad edir.

Bu fikirləri AZƏRTAC-a Azərbaycan jurnalistikasının veteranı Aleksandr Kostin söyləyib.

A.Kostin vəziyyətin gərginləşməsinin səbəbi ilə bağlı fikrini bildirərək deyib ki, Ermənistanda hakimiyyətə dünyada rəngli inqilabların əsas təşkilatçısı və benefisiarı olan Corc Soros və qrupu tərəfindən praktik təyin edilmiş Paşinyan gəldi. Onlar çox əziyyətlə nail olunan çoxqütblü dünyanın, bərabər, azad xalqlar dünyasının yaradılması prosesini dayandırmaq istəyirlər. Buna görə də müharibə qaçılmaz idi, çünki dağıdıcı qüvvələr hakimiyyətə gələndə müharibə həmişə qaçılmaz olur.

A.Kostin qeyd edib ki, bu gün Azərbaycan xalqı Vətənini qorumaq üçün bir yumruq kimi birləşib. Ölkəmizin ərazi bütövlüyünü qorumaq hər kəs üçün şərəf işidir. Etnik mənşəyindən asılı olmayaraq biz hamımız azərbaycanlıyıq, çünki bizim hamımızı bir torpaq yetişdirib. Biz 10 milyonuq, bizim vəzifəmiz və şərəfimiz Vətənimizin bütövlüyünün, tarixi ədalətin bərpasıdır. Hərbi qeydiyyat komissiyalarındakı növbələr mənə 1941-ci il tarixindən görüntüləri xatırladtı. Zəfər bizim olacaq.

# Rəşad Mahmudov: Azərbaycan cəmiyyətinin bir amal uğrunda birləşməsi hər birimizin qəlbini qürur hissi ilə doldurur

Müharibə nə qədər acı olsa da, Azərbaycan cəmiyyətində vəzifəsindən, sosial statusundan, əqidəsindən, mövqeyindən asılı olmayaraq, hamımızın bir amal uğrunda birləşməsi vətəndaş olaraq hər birimizin qəlbini qürur hissi ilə doldurur. Bu hisslər insana ruh verir. Hamımızın bir arzusu var. Vətənin bu günündə hər kəs bacardığı qədər Ali Baş Komandanın verdiyi qərarlara, atdığı addımlara bacardığı qədər dəstək olmağa çalışır və bunun üçün əlindən gələni edir.

Bu fikirləri Milli Məclisinin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov oktyabrın 6-da parlamentdə keçirilən brifinqdə söyləyib.

Vətəndaşlara müraciət edən R.Mahmudov deyib: "Hər bir insanın rifahı fonunda onun sağlamlığı əsas şərtdir. Sağlam düşüncə əsas dəyərlərdən biridir. Dövlətimiz hər kəsin köməyindən istifadə etməyə ehtiyac görmür. Amma biz COVID-19 virusunun hələ də Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən payız mövsümündə təhlükəsini nəzərə alaraq bu gün rəqəmlər nə qədər



yaxşı olsa belə, öz sağlamlığımıza diqqət yetirməliyik. Vətəndaşlarımız virusla bağlı standart qaydalara riayət etməlidirlər. Bu gün Vətən üçün canından keçməyə hazır olan hər kəs deyə bilər ki, mən koronavirusdan qorxmuram. Amma ehtimal edilən pandemik vəziyyət yaranarsa, bu vəziyyət bizim ümumi işimizə mane ola bilər.

Azərbaycan Ordusuna və Ali Baş Komandana dəstək olaraq qoruyucu vasitələrdən istifadə etmək və qoyulan qaydaları yerinə yetirmək mütləqdir.

Həkimlərimizin Azərbaycan əsgərinin sağlamlığına yönəltdiyi gücü onlardan almayaq, əksinə, onlara dəstək olaq. Biz sağlamlığımızı qoruyaq ki, əlavə problemlər yaranmasın".

*Ekstrasens Qalina Bağırova:*

# Azərbaycan bayrağının Şuşa üzərində dalğalandığını görürəm



Qələbə Azərbaycanın olacaq, Ermənistanın baş naziri öz xalqını uçuruma aparacaq.

**"İki sahil" Oxu.Az-a istinadən xəbər verir ki, bu sözləri tanınmış medium və ekstrasens, Rusiya telekanallarından birində yayımlanan "Ekstrasenslərin döyüşü" şousunun (8-ci mövsüm) ən güclü iştirakçılarından biri Qalina Bağırova söyləyib.**

***- Azərbaycan ən mürəkkəb tarixi anını yaşayır. Otuz il əvvəl Ermənistan tərəfindən işğal edilmiş torpaqların azad olunması uğrunda müharibə gedir. Deyə bilərsinizmi, Azərbaycanın taleyini necə görürsünüz və bu müqəddəs müharibə nə ilə nəticələnəcək?***

- Mən Qarabağ üzərində Azərbaycanın bayrağının dalğalandığını görürəm. Qarabağ qartalın tərkibindədir - bu, Azərbaycanın xəritəsidir. İşğal edilmiş Dağlıq Qarabağ və ona bitişik rayonlar birmənalı şəkildə geri qaytarılacaq. Mən Şuşa üzərində və ikinci yüksəklikdə Azərbaycan bayrağının dalğalandığını görürəm.

***- Hazırda Ermənistan silahlı qüvvələri Azərbaycanın şəhərlərini atəşə tutur, dinc əhalini öldürürlər. Deyə bilərsinizmi, bu nə qədər davam edəcək?***

- Şəhərlərin Ermənistan tərəfindən atəşə tutulmasına son veriləcək. Bu yolla Ermənistan Azərbaycan Silahlı Qüvvələrinin diqqətini Qarabağın strateji mərkəzlərindən və nöqtələrindən yayındırmaq istəyirdi. Amma əlindən heç nə gəlməyəcək. Ermənistan tərəfi Azərbaycanın şəhərlərini nə qədər çox atəşə tutsa, dünya birliyi və beynəlxalq təşkilatlar tərəfindən bir o qədər qınanılacaq. Azərbaycan isə yaxşı bilir ki, dünya birliyini özünə qarşı qaldırmamaq üçün səhvə yol verə bilməz və məhz bu mövqedən çıxış edəcək.

***- Şuşa hər bir azərbaycanlının ümdə arzusudur. Hamı bir nəfər kimi onun azad edilməsi üçün dua edir.***

- Azərbaycan Silahlı Qüvvələri Füzulini, Şuşanı və Ağdamı azad edəcəklər. Şiddətli döyüşlər gözlənilir. Əgər erməni qoşunları təslim olsa, onlara aman veriləcək. Dağlıq Qarabağın əhalisi Ermənistana qaçacaq. Mən boşalmış şəhərləri, Xankəndinin xarabalığa çevrildiyini görürəm. O, sanki zəlzələdən sonrakı Spitakı xatırladacaq. İnsanlar qaçırlar. Mən Ağdamın boşaldığını və dağıldığını, lakin məşhur məscidin minarələrinin salamat qaldığını görürəm.

***- Bəs Nikol Paşinyanın taleyi necə olacaq?***

- Paşinyan nüfuzunu və xalqının dəstəyini tamamilə itirəcək. Mən onun diz çökdüyünü, yanında ayaqlar altına atılmış Ermənistan bayrağını görürəm. Qəzəbindən ağlını itirmiş insanlar öz xalqını uçuruma apardığına görə Paşinyanı parçalamaq istəyəcəklər. O, baş nazir kürsüsündə təsadüfi adamdır və düzgün kurs götürməyib. Xalq Prezident İlham Əliyevi "Müzəffər İlham", "Xilaskar İlham" adlandıracaq, Türkiyə həmişə Azərbaycanın yanında olacaq.

# "Bakcell"dən Silahlı Qüvvələrə Yardım Fonduna ümumilikdə 1,5 milyon manat ianə edilib




"Bakcell" şirkəti Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna daha 1 milyon məbləğində vəsait köçürüb.

Qeyd edək ki, şirkət cəbhədə Ermənistanın təcavüzünün qarşısının alınması və işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi uğrunda şücaətlə irəliləyən Ordumuza dəstək üçün bir neçə gün əvvəl də Silahlı Qüvvələrə Yardım Fonduna 500 min manat ianə edib.

Beləliklə, "Bakcell" tərəfindən Silahlı Qüvvələrə Yardım Fonduna göstərilən maddi dəstəyin ümumi məbləği 1 milyon 500 min manat olub.

Bu məbləğ fondun hesabına "Bakcell" şirkətinin daxil olduğu "NEQSOL Holding" tərəfindən ayrılmış 2,5 milyon manat məbləğində ümumi büdcə çərçivəsində köçürülüb.

"Bakcell" şirkətinin kollektivi vətən uğrunda qəhrəmancasına vuruşan xilaskar əsgərlərimiz qarşısında baş əyir və onlarla qürur duyduğunu bildirir. Sarsılmaz şücaətə malik hərbi qüvvələrimizin zəfər xəbərlərini səbirsizliklə gözləyirik. Qarabağ Azərbaycandır!

Qeyd edək ki, Silahlı Qüvvələrə Yardım Fondu Prezidentin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fondun əsas maliyyə mənbəyi hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan vəsaitdir.

# Fizika sahəsində 2020-ci il üzrə Nobel mükafatı laureatlarının adları açıqlanıb




İsveçin paytaxtında fizika sahəsində 2020-ci il üzrə Nobel mükafatı laureatlarının adları elan edilib.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, oktyabrın 6-da Stokholmda yerləşən İsveç Kral Elmlər Akademiyası yanında Nobel Komitəsi fizika sahəsində 2020-ci il üzrə Nobel mükafatının bir yarısını alim Roger Penrosa "qara dəliyin yaranmasının ümumi nisbilik nəzəriyyəsi üçün etibarlı bir proqnoz olduğunu aşkar etdiyi üçün" digər yarısını isə alimlər Reynhard Genzel və Andrea Gheze "qalaktikamızın mərkəzində super-böyük kompakt cisimin kəşfinə görə" verildiyini elan edib.

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azəriqaz" İstehsalat Birliyi

**ehtiyat hissələrinə (LOT-1) olan tələbatını təmin etmək məqsədi ilə Açıq satınalma müsabiqəsi (29021-20) üzrə müraciətlərin son tarixinin və təklif zərflərinin açılış tarixinin müddətinin uzadılmasını elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* - Müsabiqədə iştirak haqqında müraciət;

* - İştirak haqqının ödənilməsi barədə bank sənədi;

* - Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

* Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 22.10.2020-ci il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 29.10.2020-ci il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Müsabiqə "Bağlı Zərf" prinsipi ilə yanaşı "iki zərf prinsipi" ilə həyata keçiriləcək. Müsabiqə təklifi ayrı-ayrılıqda maliyyə və texniki təklifdən ibarət olmaqla iki ayrı zərfdə təqdim edilməlidir. Zərflərin üzərində müvafiq olaraq, "MALİYYƏ TƏKLİFİ" və "TEXNİKİ TƏKLİF" sözləri qeyd edilməklə imzalanıb, möhürlənməlidir. İlkin olaraq, texniki təkliflər açılacaq, texniki rəydən uğurla keçmiş iddiaçıların maliyyə təkliflərinə baxılacaqdır.

* Texniki və maliyyə təklifləri eyni zərfdə təqdim etmiş İddiaçıların təklifləri qəbul edilməyəcəkdir.

* Təklifi təqdim edən və ya geri götürən İddiaçının nümayyəndələri tərəfindən etibarnamə təqdim edilməlidir və şəxsiyyətini təsdiq edən sənəd üzərində olmalıdır.

* İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az 30 dəqiqə öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İddiaçını müsabiqədə

***III. Keçiriləcək müsabiqənin iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, ingilis və ya rus dilində əldə etmək istəyənlər hər iki lot üzrə ayrı-ayrılıqda 118 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.
EUR
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic
Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120
$-USD
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD
AZ23IBAZ38110018269306332120 (GBP)

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar: Tətbiq olunmur.***

***V. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.***

***VII. Satınalan təşkilatın ünvanı:*** AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23.
"Azəriqaz" İB-nin əsas binası

**Əlaqələndirici şəxs:** Nəsimi Sultanov.
Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994125210000 (daxili 29 694), +99450 8429694
nasimi.sultanov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***IX. Müsabiqənin təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 29.10.2020-ci il tarixdə, LOT-1 üzrə Bakı vaxtı ilə saat 11:30-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır. Texniki təkliflərin nəticəsinə uyğun olaraq müsbət texniki rəy almış iddiaçıların maliyyə təklifləri iddiaçılara göndərilmiş bildirişdə qeyd olunmuş tarixdə onların iştirakı ilə onlayn qaydada açılacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**

# Vətənimizin uğuru

**Son iki əsr ərzində regionda gedən siyasi mübarizə nəticəsində Azərbaycan xalqı öz ərazilərindən, əzəli torpaqlarından köçürülməyə, deportasiyaya məruz qalmışdır. Tarixən Azərbaycan torpaqlarına göz dikən erməni mənfurları zaman-zaman öz məkrli niyyətlərini həyata keçirərək nəhayət XIX əsrin sonlarından başlayaraq Azərbaycan torpaqlarını hissə-hissə işğal etməyə başladılar. 1988-1992-ci illər ərzində Ermənistan silahlı qüvvələrinin ölkəmizə təcavüz etməsi nəticəsində torpaqlarımızın 20 faizi - Dağlıq Qarabağ, eləcə də ətraf 7 rayon ( Ağdam, Füzuli, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan və Kəlbəcər) ərazisi işğal olundu, bir milyona yaxın soydaşımız öz ata -baba torpaqlarından didərgin düşdü. Hazırda bu qaçqınlar respublikanın müxtəli rayon və şəhərlərində məskunlaşmışlar.**



Müasir ordu quruculuğunda sivil modellər əsas götürülür. Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi üçün güclü orduya, müdafiə sisteminə ehtiyacı vardır. İşğal edilmiş ərazilərin qaytarılması üçün güclü Ordu vacib şərtdir. "Açıq qapı" siyasəti də ölkə üçün müəyyən problemlər yaradır. Millət xarici iş adamları ilə iqtisadi, sosial, siyasi, mənəvi sahələrdə yaranan əlaqələrə hazır olmalıdır. Dünyanın yenidən qurulması uğrunda mübarizədə Azərbaycan öz mövqeyini möhkəmləndirir.

Hazırda Azərbaycan Ordusu Azərbaycanın ərazi bütövlüyü və dövlətçiliyini qoruya bilir. Azərbaycan Ordusu regionda da böyük gücə malikdir. Bu gün Qafqazda ən müasir ordu sayılan Azərbaycan Milli Ordusu Azərbaycanın müstəqilliyinin əsas təminatıdır və ölkəmizə qarşı hər hansı bir hərbi təhlükənin qarşısını almaq üçün kifayət qədər güclüdür.

Ordumuzun silah və maddi-texniki təchizatında xarici dövlətlərdən asılılığını aradan qaldırmaq üçün cənab Prezidentin 16 dekabr 2005-ci il sərəncamı ilə Müdafiə Sənayesi Nazirliyi yaradılmışdır. Nazirlik ordumuzu bir çox sahədə təmin edəcək potensiala malikdir. Nazirlik müxtəlif təyinatlı silahlar, döyüş sursatları və digər hərbi avadanlıqlar istehsal edərək ordumuzu təmin edir. Bundan əlavə, nazirlik müxtəlif dövlətlərlə də hərbi sahədə əməkdaşlıq edir. Hazırda torpaqlarımızın 20 faizi işğal altındadır. Buna görə də dövlətimiz bütün variantlara hazır olmağı vacib sayır. Bunun üçün ordumuz daha da gücləndirilir, peşəkarlığın, döyüş qabiliyyətinin artırılması üçün müntəzəm tədbirlər həyata keçirilir. Ordu quruculuğu sahəsində əldə olunan uğurlardan bəhs edərkən cənab prezident söyləmişdir: "Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının milli ordusu - respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarımızın müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır" deyən möhtərəm Prezidentimiz qısa müddət ərzində müstəqilliyin və suverenliyin yeganə təminatçısı olan silahlı qüvvələrin yaradılmasına nail oldu.

Bu gün beynəlxalq hərbi reytinqlərdə Azərbaycan Ordusu Cənubi Qafqazın alternativsiz hərbi gücü sayılmaqla yanaşı, hərbi arsenalına, potensialına, təminatına, hazırlığına görə dünyanın öndə gedən silahlı qüvvələrindən biri hesab edilir.

"Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir. Biz son illər ərzində milyardlarla dollar dəyərində ən müasir silahsursat, hərbi texnika almışıq. O texnikalar ən son texnologiyaya malikdir. Aprel döyüşləri bunu bir daha göstərdi" deyən Ali Baş Komandan son 7 ay ərzində bu təminatın daha da yaxşılaşdığını və müasirləşdiyini söylədi.

Dünyanın ən müasir, yüksək dağıdıcı qüvvəyə və dəqiqliyə malik olan silahları, texnikası artıq Azərbaycan Ordusunun sərəncamındadır. Prezidentin Horadizdə yeni salınan qəsəbədə hərbi yönümlü məktəblərin kursantları ilə görüşü də əlamətdar anlarla yadda qaldı. Hələ uşaq yaşlarından hərbçi olmaq istəyən və yeniyetmə yaşlarından hərbi məktəblərdə təhsil alan bu gənclər görmədikləri vətənlərinin - Füzulinin azad edilməsində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında iştirak etməyi ən böyük arzuları kimi dilə gətirdilər.

Ali Baş Komandanın bu hərbçilərə sözləri isə həm də Böyük Vətənpərvərin gənc nəslə tövsiyəsi və bir ata nəsihəti idi: "Siz hərbçi peşəsini seçmisiniz. Bu, çox şərəfli peşədir. Ordumuzun gücü ilk növbədə ordumuzda hökm sürən vətənpərvərlik ruhundadır. Döyüş qabiliyyətimiz də, vətən sevgisi də buna bağlıdır. Hər bir Azərbaycan gənci, hər bir vətəndaş vətənpərvər olmalıdır, vətəni hər şeydən çox sevməlidir və vətən uğrunda öz qəhrəmanlığını göstərməlidir. Sizin qarşınızda çox gözəl nümunələr var. Bu gün Lələtəpə ərazisində olarkən, düşmənlə üz-üzə dayanan hərbçilərlə görüşərkən bir daha gördüm ki, bizim gənclərimiz nə qədər vətənpərvərdir, peşəkardır, vətənə bağlıdır".

Azərbaycan əsgəri 20 il də, 100 il də bundan əvvəl mərd, döyüşkən olub. Məhz Mübariz İbrahimovun 18 iyun 2010-cu il tarixində gecə 23:30 radələrində təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçməsi, düşmənin çox sayda əsgər və zabitini bircə həmlədə gəbərtməsi dünyaya səs saldı. Mübariz bu qeyri-bərabər döyüşdə elə keçirdiyi düşmən silahlarından istifadə edərək 5 saat erməni faşistləri ilə səhərədək son nəfəsinə kimi döyüşdü. Mübariz şəhidlik zirvəsinə ucaldığı gündən onun doğulduğu həyətə minlərlə gənc ziyarətə gəlir. Mübariz gecənin qaranlığında təkbaşına nərə çəkərək, içində gurlayan cəsurluğun gücüylə düşmənin üstünə atıldı. Ermənilər Mübarizin və Mübarizin simasında digər qəhrəmanlarımızın igidliyinin və ordumuzun qüdrətli olmasının şahidi oldular. Mübarizin vida mərasimində cənab Prezident İlham Əliyev "Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz bütün gənclər üçün örnəkdir, nümunədir".

Azərbaycan Ordusu ən müasir silahlarla təchiz edilərək dünyanın ən müasir orduları sırasındadır. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Sabunçu rayonunda hərbiçilərə yeni mənzillərin verilməsi mərasimində çıxışı zamanı diqqətə çatdırıb ki, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bütün başqa amillərlə yanaşı, ən birinci amil bizim hərbi gücümüzdür, qüdrətimizdir: "Biz gücümüzü artırırıq və artıracağıq. Onu da bildirməliyəm ki, bu il bir çox önəmli kontraktlar imzalanmışdır. Bu kontraktların icrası nəticəsində ölkəmizə ən müasir silahlar və texnika gətiriləcəkdir. Bu gün mövcud olan texnika və silahlar imkan verir ki, biz işğalçıların istənilən hərbi hədəfini yüksək dəqiqlik və böyük dağıdıcı qüvvə ilə darmadağın edə bilək. Əlbəttə, hər bir ölkənin, o cümlədən müharibə şəraitində yaşayan ölkələrin gücünü, ilk növbədə, onun hərbi qüdrəti müəyyən edir."

Əlahiddə Azərbaycan Ordusunun 2018-ci ilin uğurlu döyüş əməliyyatları nəticəsində Naxçıvan Muxtar Respublikasındakı 11 min hektarlıq ərazini işğaldan azad etməsi və Ermənistan üçün strateji əhəmiyyətə malik olan İrəvan-Laçın magistral yoluna nəzarəti ələ keçirməsi!; Azərbaycan əsgərinin düşmən sərhədində yerləşən, dəniz səviyyəsindən 1800 metrlik yüksəkliyə malik olan Şərur rayonu ərazisindəki Qızılqayanın ən uca nöqtəsinə Azərbaycan bayrağını taxması!; Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində yenidən insanların məskən salması, Naxçıvan Muxtar Respublikasındakı Günnüt kəndinin düşmən tapdağından xilas edilməsi Dağlıq Qarabağın sabahına nikbin baxmağa əsas verir.

Ölkəmizin silah zavodlarında yaxın zamanlarda istehsalına başlanılacaq "Zərbə KM" (təsir gücü artırılmış qəlpəli-fuqaslı) pilotsuz uçuş aparatının yeni növü olmaqla düşmənin canlı qüvvəsini, hərbi texnikasını və hərbi obyektlərini 100 kilometrlik məsafədən müəyyənləşdirərək məhv edən pilotsuz uçuş aparatıdır. Həmçinin yüksək impulslu elektromaqnit şüa verən aviasiya bombasının yaradılması da nazirliyin perspektiv layihələrindəndir.

Ermənilər anlayırlar ki, Azərbaycan Ordusu bugünkü qüdrəti və peşəkarlığı ilə Ermənistan ordusunu qısa müddətdə darmadağın edə bilər. Burada bir faktı qeyd etmək vacibdir ki, Azərbaycan öz ordusunu ən müasir NATO standartlarına uyğunlaşdırmaqdadır. Hərbi peşəkarlıq, ən müasir silahlarla təminat artıq ordumuzu nəinki bölgədə, hətta MDB məkanında ən güclülər cərgəsinə çıxarmışdır.

Azərbaycan xalqı öz Prezidentinə inanır və işğal altındakı torpaqlarımızın Ali Baş Komandanın rəhbərliyi ilə azad ediləcəyi, ərazi bütövlüyümüzün təmin olunacağı, bayrağımızın Şuşada, Xankəndidə və işğal altındakı digər əzəli torpaqlarımızda dalğalanacağı günün uzaqda olmadığına qəti əmindir.

Bu günlərdə Azərbaycanda elə bir ailə olmadı ki, sevinc göz yaşları axıtmasın. Ard-arda cəbhədən gələn xəbərlər, sanki 20 ildən artıqdır ki, düşmən tapdağı altında inləyən torpaqlarımızın azadlıq nəğməsi idi. Bu nəğmə Azərbaycan əsgərinin silahından atılan mərmi ilə ifa olunaraq, göylərdə "qisas", - deyə hayqıraraq şəhid ruhlarına da bir salavat duası idi. Haqq davası üçün düşmənə atılan o mərmidən ətrafa yayılan barıt qoxusu, sabah Xarı bülbülün ətrini ciyərlərimizə çəkəcəyimizin müjdəsidir.

Döyüşlərin getdiyi zamanlarda daha həssas, daha məsuliyyətli olmaq lazımdır. Bizim hər birimizin bir azərbaycanlı olaraq üzərimizə vəzifə düşür. Bu vəzifə bizim Vətənimiz qarşısında borcumuzdan qaynaqlanır. İnformasiya müharibəsində qalib, ön cəbhədəki əsgərlərimizə dəstək üçün yalnız rəsmi qaynaqlardan alınan xəbərlərə inanmalı və paylaşmalıyıq.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəsmi "İnstagram" səhifəsində edilən paylaşımda qeyd edilir: "Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!

Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək, uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir.

Azərbaycan dövlətinə və xalqına dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən bütün insanlara, təşkilatlara və dövlətlərə dərin təşəkkürümü bildirirəm. İlk növbədə, qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana minnətdaram.

Onların həmrəyliyi və mənəvi dəstəyi bu gün hər bir azərbaycanlıya qürur hissi yaşadır.

Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm!

Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görünməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!"

Ordumuz Ali Baş Komandanın rəhbərliyi ilə elə bir tarix yazacaq ki, o, Azərbaycan xalqının illərdir səbirsizliklə gözlədiyi zəfər salnaməsinə çevriləcəkdir. Azərbaycan xalqı, ordusu əzəli və əbədi torpaqlarımızı azad edəcək, ölkəmizin ərazi bütövlüyünü təmin edəcək, şəhidlərimizin qanını yerdə qoymayacaq, şəhidlərimizin ruhunu şad edəcək. Azərbaycan xalqı ordusuna güvənir, onun arxasındadır. İnanırıq ki, ordumuz tezliklə bizə qələbə xəbərini verəcək, zəfər sevincini yaşadacaqdır.

Cənab Prezidentin dediyi kimi, "Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan hərbi birləşmələrinin heç bir hədəfi, heç bir məqsədi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və torpaqlarımızı işğaldan azad edəcəyik"

✍ **Günel Məlikli,**
Bakı Dövlət Universitetinin müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru

# Siyasi partiyalar Prezidentin yanındadır



**Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Ali Baş Komandan, Prezident İlham Əliyevin Vətənimizin ərazi bütövlüyünün və vətəndaşların təhlükəsizliyinin qorunması, Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi genişmiqyaslı terror təxribatlarının qarşısının alınması məqsədilə həyata keçirdiyi bütün siyasi və hərbi tədbirləri yekdilliklə dəstəkləyir və onun yanında olduqlarını bildirirlər.**

Fəaliyyətdə olan siyasi partiyaların tam əksəriyyətinin belə bir bəyanat qəbul etməsi ölkəmizdə mövcud olan milli birliyi, xalq-iqtidar birliyini daha da möhkəmləndirərək, həm daxildə, həm də xaricdə mövcud olan antimilli qüvvələrə vurulan zərbədir.

Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına dair ölkədə fəaliyyət göstərən 52 siyasi partiyanın 50-nin birgə bəyanatı təkcə xalqla hökumətin həmrəyliyindən xəbər vermir, bu, eyni zamanda Azərbaycanda yaşanan siyasi birliyin təcəssümüdür. Ermənistanın işğalçı siyasətinə etiraz və xalqın haqq tələbi ölkə siyasətçilərini birləşdirir. Siyasi partiyaların rəhbərləri öz birgə bəyanatında Ermənistanın işğalçı siyasətini şiddətlə qınayır. Mülki əhalinin yaşadığı kəndlərin bombalanması faktı insanlığa qarşı edilən cinayət kimi beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilməlidir. Belə bir həmrəylik təqdir olunduğu qədər də nümunəvi siyasi modeldir. Bu model, bu iradə qarşısında tezliklə Ermənistanın işğal olunmuş torpaqlardan çıxmaqdan başqa çarəsi qalmayacaq.

BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə Ermənistanın 30 ilə yaxın bir müddət ərzində məhəl qoymadığını yada salan siyasi partiyaların rəhbərləri, Azərbaycana qarşı tətbiq olunan ikili standartlarına son qoyulmasını tələb edirlər.

Siyasi partiyaların rəhbərləri öz birgə bəyanatında Ermənistanda yaşanan problemləri sadalayır və ictimai diqqətin yayındırılması üçün erməni iqtidarının hərbi təxribatlar ilə məşğul olduqlarını bildirirlər. Erməni hökuməti daxili siyasi mübarizəni arxa plana çəkmək məqsədi ilə mütəmadi olaraq cəbhə xəttində atəşkəsi pozur.

Ermənistanın siyasi elitasının məsuliyyətsiz bəyanatları Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini mümkünsüz edir. Siyasi partiya rəhbərlərinin öz birgə bəyanatında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin: "Bizim Ermənistan torpağında siyasi və hərbi maraqlarımız yoxdur" fikrini sitat gətirməsi Azərbaycanın ədalətli mövqe tutması haqqında xəbər verir. Azərbaycan daim münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinin tərəfdarı olduğunu bəyan edir. Atəşkəsin mütəmadi pozulması və məsuliyyətsiz bəyanatlar Ermənistana qarşı beynəlxalq inamı azaldır və onun bütün regional layihələrdən kənar qalmasına səbəb olur.

Ölkənin 50 siyasi partiyasının Ali Baş Komandan, Prezident İlham Əliyevin yanında olduqlarına dair bəyanatları milli və siyasi həmrəyliyin parlaq göstəricisidir. Bu bəyanat, eyni zamanda, ölkədə siyasi dialoqun mövcudluğunun sübutudur. Birgə bəyanat ölkəmizdə siyasi müstəvidə etibarlı və peşəkar münasibətlərin qurulmasına zəmin yaradır.

Təəssüflər olsun ki, Müsavat Partiyası və Azərbaycan Xalq Cəbhəsi Partiyası milli həmrəylik nümayiş etdirə bilmədilər. Özlərini xalqın, millətin yanında olduqlarını göstərməyə çalışan Müsavat Partiyası və Azərbaycan Xalq Cəbhəsi Partiyası təəssüf ki, Vətənimizin bu ağır günündə, torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi üçün şanlı ordumuzun uğurlu əks-hücum əməliyyatlarına digər siyasi partiyalarla birlikdə dəstək vermədilər. Ali Baş Komandanın bu sahədə həyata keçirtdiyi siyasəti dəstəkləməmələri onların səmimi olmadıqlarını və əsl simalarını göstərir. Radikal müxalifət öz maddi maraqlarına üstünlük verdi və siyasi partiyaların həmrəylik çağırışına qoşulmadı.

Azərbaycan xalqının son 30 ildir səbirsizliklə gözlədiyi Vətən müharibəsinin başlamasının ilk günündə Müsavat və Azərbaycan Xalq Cəbhəsi partiyaları ümummilli dəyərlərə sahib çıxmayaraq, Vətən torpaqlarının düşmən tapdağından azad edilməsinə sevinməyərək, düşmən dəyirmanına su tökdülər. Siyasi ədavət saxlayan bu partiyalar belə tarixi bir gündə Ali Baş Komandan İlham Əliyevin yanında olma qabiliyyətini göstərə bilmədilər.

Prezident İlham Əliyevin son zamanlarda həyata keçirdiyi islahatları görməyən, daxili ictimai-siyasi həyata yeni nəfəs verən siyasi dialoq çağırışına cavab verməyən Müsavat Partiyası və Azərbaycan Xalq Cəbhəsi Partiyasının dövlətimizin və xalqımızın çətin və şərəfli günündə birlik və bərabərlik kimi milli çağırışlara qoşulmamaları böyük bir təəssüf doğurur.

Biz birlikdə zəfər çalacağıq və torpaqlarımızı düşmən tapdağından azad edəcəyik!

**Cavid Əliyev,**
*Xətai rayonu, 86 saylı tam orta məktəbin direktoru*

OVQAT

# Döyüş ruhu qələbənin başlanğıcıdır!

## PREZİDENT İLHAM ƏLİYEV: BU GÜN AZƏRBAYCAN ORDUSU AZƏRBAYCAN TORPAQLARINDA DÜŞMƏNƏ SARSIDICI ZƏRBƏLƏR ENDİRİR



Neçə gündür dan yeri o qədər gözəl sökülür ki!

Neçə gündür ön xətt könlümüzə daha yaxındır. Neçə gündür ön xət döyüş bölgəsidir. Döyüş bölgəsindən aldığımız informasiyaları Böyük Qələbənin Cıdır düzünə, İsa bulağına, Ərgünəşə, ... yaxınlaşan təranəsi bilirik. Bilirik ki, bu səs böyüyəcək, daha geniş ərazini əhatələyəcək, Bilirik ki, Azərbaycan əsgərinin döyüş bayrağı işğaldan azad ediləcək torpaqlarımızda daha əzəmətlə dalğalanacaq!

Neçə gün əvvəl ön xətdə, indi döyüşlərə cəlb olunmuş hərbi hissələrimziin birində ezamiyyətdəydim. Səngərlərdə söhbətləşdiyimiz əsgərlərimizin döyüş əzmini, qələbə ruhunu düşüncələrimizə torpaqlarımızın işğaldan azad edilməsiylə nəticələnəcək döyüşlərin başlanğıcı bilmişdik. İki gündən sonra bu başlanğıc Azərbaycan əsgərinin döyüş rəşadətiylə qələbələrin ilki oldu. Döyüş əmriylə tamamlanan bu başlanğıcın xalqın ruhunun eyni olduğunu bilmək də, qazanılan qələbələrin qədərsiz ovqatı da necə xoşdur!

Nəvəm 7 yaşındadı. Ezamiyyətdən gələndə soruşmuşdu: "Erməniləri qovladınızmı?". Bir qədər duruxub, "Qovlayacağıq!" demişdim. Bu yazını yazanda nəvəmin o günkü baxışlarının eyni düşüncələrimin yaxasından yapışanda saçlarını oxşadım, "Qovlayırıq!" dedim. Boynuma sarıldı. Səngərdə yazdığım, anasının təqdimatıyla həvəslə əzbərlədiyi "Azərbaycan əsgəri" şeirimi birnəfəsə dedi. Kövrəldik. Necə xoş kövrəlməyiydi! Minlərlə ailədə belə xoş ovqat yaşadan Azərbaycan əsgərinə əşq olsun! Əşq olsun!

Üç gün əvvəl əsgər Elmar Sadıqov demişdi:

-2016-cı ilin aprel döyüşlərində məktəbli idim. Çağırışçı yaşlarımda hərbi xidmətdə olmağı, hərbi xidmətə başlayanda Ali Baş Komandanın əmri ilə başlayacaq döyüşlərdə iştirak etməyi arzulayanlardan biri olmuşam. Hərbi xidmətdən tarpaqlarımızı işğalçıdan azad etmiş əsgərlərin sırasında tərxis olunacağıma inanıram. Əsgər yoldaşlarım da mənim kimi...

Onda xəyallarım Ali Baş Komandanın əmri ilə yaxın vaxtlarda başlanacaq döyüşlərdə güllələrin, mərmilərin nizamsız nizamlı səsini qabaqlamışdı, xəyalımda nəfəsiylə əsgərlərimizin kürəyini isidənlərimizin "Salam, Qələbə!" nidasını da eşitmişdim...

Zabitlərin əsgərlərlə hər söhbəti döyüş hazırlığını tamamlayan mənəvi-psixoloji hazırlıq üçündü. Ön xətdə belə söhbətlər daha gərəklidi. Həmin gün belə bir söhbəti düşüncələrimin nizamı kimi izləmişdim. Üç gündən sonra döyü.lərin başlayacaqmış...

İndi Elmar da döyüşür....

Elmarın da mərdliklə döyüşdüyünə şübhəm yoxdu. Dun-duru düşüncəsi var nümunəvi əsgərin; nümunəvi əsgər qətiyyətli döyüşçüdü, şübhəsiz...

"Bayaq zabitin sizin döyüş əzminizi qələbəyə kökləyən söhbəti də Hərbi anddan süzülüb gəlir. Siz qalib gələcəksiniz, torpaqlarımızı işğaldan azad edəcəksiniz. Qələbəniz işğalçılığın son nəfəsi olacaq. Düşmən gözucu da olsa daha bu tərəflərə baxmağa cəsarət etməyəcək" - demişdim. Lələtəpədən əsən payız mehi Araza sarı əyilmiş söyüdün saçaqlarına daraşmışdı. Orda zabit Səbuhi Qarayev əsgərlərin Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməyə hazır olduğunu demişdi. Onu da demişdi ki, bu əmr müharibəni sonlandıracaq, torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnəcək. Əsgərlərimizin döyüş ruhu belə ifadə etmişdik. Bu fikir indi daha dönməzdir...

"Döyüş ovqatınız yaxın vaxtlarda məmləkət boyunca yaşanılacaq qələbə ovqatının başlanğıcıdır", - sözümü bitirər-bitirməz çavuş Fuad Zeynalov döyüş növbətçiliyindən qayıtmış Murad Məcidovun xidmətinin sonları olduğunu bildirərək demişdi ki, döyüş əmrinin veriləcəyi günü bəlkə də hamıdan çox o gözləyir. "Əsgərin belə darıxması da Vətən sevgisidi, Hərbi anda sədaqətdir", - çavuşun fikrini belə tamamlamışdım. İndi Murad da döyüşür...

Döyüşqabağı əsgər ruhunu qələbə ruhunun özü bilmişdim. Əks-hücum kimi başlayan Böyük Qələbə döyüşlərində əsgərlərimiz bu ruhla döyüşür...

Ön xətdə sökülən dan yerinin ecazkarlığını gözlərimə köçürmüşdüm. Bilirdim ki, yaxın vaxtlarda ön xətt olmayacaq, səngər olmayacaq, dan yerinin necə söküldüyünü sərhədlərdə görəcəyik. Dan yerinin gözəlliyini ləngiyən zaman içində Günəşin çölün-düzün tellərini daraqlayan şəfəqlərinin ecazkarlığı əvəzləmişdi. Gözlərim səngərin o üzündən yığılmırdı; Səməd Vurğun deмişkən, səyyar xəyalımda bir döyüş qədərincə vaxt ötüşmüşdü. Xəyallarım Ali Baş Komandanın əmri ilə yaxın vaxtlarda başlanacaq döyüşlərdə güllələrin, mərmilərin nizamsız səsini qabaqlamışdı, xəyalımda nəfəsiylə əsgərlərimizin kürəyini isidənlərimizin "Salam, Qələbə!" nidasını da eşitmişdim. Xəyallarım gerçəkləşir. Ordumuz düşmənin ciddi müqavimətini qırıq-qırıq edir, mövqelərini çiğnayıb keçir, döyüş texnikalarını, canlı qüvvəsini məhv edir. Ermənistan öz zabitlərini, əsgərlərini ölümə özü məhkum edib, bu məhkumluğun ağrıları onu hələ çox üzəcək...

Tam qələbənizin işığını görürük, Azərbaycan əsgəri. Bu qələbəyə döyüş-döyüş yaxınlaşırsınız. O gün əsgərlərlə söhbətləşdiyim səngərləri indi arxa cəbhədi. Səngərləri sərhədlərə köçürmək amalıyla xidmət edirdiniz. Niyyətli olduğunuz məqamdır. Yaxın vaxtlarda bütün səngərləri sərhədlərimizə köçürəcəksiniz. Xalqın bu inamının gerçəkləşəcəyi gününü ərəfəsindəyik. Bu əminlik sizin döyüş hazırlığınıza, qələbə ruhunuza, dövlətə, dövlətçiliyə sədaqətinizin əminliyidir...

Düşüncələrimdə qazilərin döyüş məsləhətləri şəhidlərin ruhunun dönməzliyiylə qoşalaşıb. Qazilər əsgərlərə deyir: Döyüşəcəksiniz! Qalib gələcəksiniz! Şəhidlərin ruhu deyir: Döyüşlərdən əvvəl Dövlət himnimizi, Hərbi andı bir də xatırlayın!

Azərbaycan Ordusunun birləşmələri Ermənistan silahlı birləşmələrinin hücumunun qarşısını qətiyyətlə aldı. Azərbaycan əsgəri əks-hücum əmrini torpaqlarımızın işğaldan azad edilməsi üçün döyüş əmri bildi. Xalq bu əmrin icraçılarını Böyük Qələbənin əsgəri bilir, "Döyüşün!" deyir. Deyir ki, bu döyüşünüz müqəddəs döyüşdü. Qəhrəmanların, şəhidlərin döyüş yolunu davam etdirərək döyüşürsünüz!

Döyüşürsünüz. Əks-hücum əməliyyatını Böyük Qələbə ilə tamamlayacaqsınız, işğala son qoyacaqsınız, torpaqlarımızı işğaldan azad edəcəksiniz.

Bu döyüş işğalın son nəfəsi olacaq, Azərbaycan əsgəri. Siz azərbaycançılığın əsgərisiniz, siz "Mən Azərbaycanlıyam!" deyənlərin inamının əsgərisiniz. Sizin döyüşünüz tarixləşəcək. Siz tarixin qalibiyyət əsgəri olacaqsınız. Siz müqəddəsliyin döyüşündəsiniz, Azərbaycan döyüşür!

Döyüşün!

Xalq döyüşünüzü Vətənin qurtuluş döyüşü bilir. Minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbələrinə müraciət edir. Sizin döyüşünüzün səsi xalqın nəfəsiylə qoşalaşıb. Bu birlik də sizin döyüşünüzün qüdrətidir, Azərbycan əsgəri! Xalqın murazını, niyyətini də sıranızda bilib döyüşün!

İşğala son güllə atacağın an bəşərilik tarixinin əbədilik anı kimi yaşadılacaq. Onu sizin qüdrətiniz yaşadacaq, Azərbaycan əsgəri!

Döyüşün!

Başlanğıcı 27 sentyabr olan bu müqəddəs döyüşün qalibi olacağınız günün ərəfəsindəyik. Döyüşün!

Neçə-neçə kəndi, strateji yüksəkliyi düşməndən azad edibsiniz. Döyüşlərin davam edir. Tam qələbəyədək davam edəcək. Tam qələbə günü uzaqda deyil. Döyüşünüz müqəddəs döyüşdür. Döyüşün!

Könüldən könülə yollar var. İndi daha duyğusallıqla. Bu yolların da sonu qələbə yoluyla birləşir. Xalq bütünlüklə bu yolun - Qələbə yolunun yolçusudur...

Ürəyimiz sizinlədir, Azərbaycan əsgəri. Siz döyüşürsünüz. Bizim inamımızı da sıranızda bilin. Şəhid ataları-anaları da, şəhid balaları da, qazilər də sizə deyir ki,

*Sellər kimi axıb gələn,*
*Şimşək kimi çaxıb gələn,*
*Köynəyindən çıxıb gələn*
*Səhər sənin səhərindi.*

*Gecə üzərlik üstədi,*
*Qələbə ərlik üstədi...*
*Barmağın tətik üstədi,*
*Zəfər sənin zəfərindi!..*

Bu zəfərlərin mübarək, Azərbaycan əsgəri! Yaxın vaxtlarda sizə "Torpaqlarımızı işğaldan azad etmiş son döyüşün mübarək, Azərbaycan əsgəri!" deyəcəyik!..

Döyüşün!

Böyük Qələbə günü xalq sizi qalibiyyət bayrağı kimi ucalıqlara yüksəldəcək!

**Rəşid Faxralı**

# SOCAR-ın TENDERLƏRİ

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**oksigen və maye qaz şlanqına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25112-20) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 29.10.2020-ci il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla ən geci 05.11.2020-ci il, Bakı vaxtı ilə saat 11:00-a qədər Satınalmalar qrupuna təqdim olunmalıdır. Müsabiqə "Bağlı Zərf" prinsipi ilə yanaşı "iki zərf prinsipi" ilə həyata keçiriləcək. Müsabiqə təklifi ayrı-ayrılıqda maliyyə və texniki təklifdən ibarət olmaqla iki ayrı zərfdə təqdim edilməli, zərflərin üzərində müvafiq olaraq, "MALİYYƏ TƏKLİFİ" və "TEXNİKİ TƏKLİF" sözləri qeyd edilməlidir. Təkliflər Azərbaycan, rus və ya ingilis dilində 3 nüsxədə (1 nüsxədə əsli və 2 nüsxədə surəti) ikiqat zərfdə bağlanmış, möhürlənmiş olmalıdır. İlkin olaraq, texniki təkliflərin açılması və qiymətləndirilməsi aparılacaqdır. Satınalan təşkilatın Satınalmalar qrupu müsabiqəyə dəvət sənədlərinin (əsas şərtlər toplusunun) tələblərinə uyğun olaraq, texniki qiymətləndirməni uğurla keçmiş iddiaçının maliyyə təklifi zərfi açılaraq qiymətləndiriləcəkdir.

-Təklifi təqdim edən və ya geri götürən İddiaçının nümayəndələri tərəfindən etibarnamə təqdim edilməlidir və şəxsiyyətini təsdiq edən sənəd üzərində olmalıdır.

-İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az 30 dəqiqə öncədən Satınalan təşkilata gəlməlidirlər.

-Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

-İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 118 AZN (ƏDV ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic
Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120
Intermediary Bank: Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satın alınan mallar üzrə veriləcək sifariş əsasında 45 təqvim günü ərzində çatdırılmalıdır.

Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən maksimal olaraq 30 % avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.

**Bank təminatı:**

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 4-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:** Astanov Siyavuş
Satınalmaların təşkili şöbəsinin rəis müavini
Telefon nömrəsi: +994 12 521-00-00 25-125
Korporativ mobil: +994 50 454 66 33
Elektron ünvan: siyavush.astanov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 05.11.2020-ci il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**

---

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Geofizika və Geologiya İdarəsi

**Xüsusi geyim və fərdi mühafizə vasitələrinin satın alınması üzrə (12001-20) Lot-3 AÇIQ MÜSABIQƏYƏ DƏVƏT**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 12.10.2020-ci il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və/ya İngilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 19.10.2020-ci il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və/ya ingilis dilində əldə etmək istəyənlər

* LOT-3 üzrə 118.00 manat (ƏDV daxil olmaqla),

Ödəniş edərkən ödənişi təsdiq edən bank tapşırığında açıq satınalma prosedurunun nömrəsi qeyd olunmalıdır.

və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müsabiqə təklifinin təminatı:***

**Bank təminatı:**

* Bank təminatı: (Tələb olunmur)

* İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i miqdarında tələb olunur. (Tələb olunmur)

* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır. (Tələb olunmur)

* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) % məbləğində müəyyənləşdirilir. (Tələb olunmur)

* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır. (Tələb olunmur)

* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır. (Tələb olunmur)

* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir. (Tələb olunmur)

Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.

***V. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 təqvim günü sifariş əsasında yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***

Azərbaycan Respublikası, Bakı şəhəri, N.Nərimanov rayonu, Heydər Əliyev pr-ti 83 A AZ1033 (indeks),

**Əlaqələndirici şəxs:** Elman Mayılov.
Satınalmaların təşkili şöbəsi, mühəndisi
Telefon: (+99 412) 521-04-17
Mob: (+99 450) 841-20-12
elman.mayilov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 19.10.2020-ci il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da online keçiriləcək.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Geofizika və Geologiya İdarəsinin Satınalmalar qrupu**

iki sahil
VAHİD AZƏRBAYCAN UĞRUNDA!
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 176 (7676) / Çərşənbə, 7 oktyabr 2020-ci il



# Yuxu haqqında nələri bilirik?



**Hər birimiz yatanda müəyyən yuxular görürük. Bəs görəsən yuxular haqqında nələri bilirik? Bu sualın cavabını bilmək üçün topladığımız maraqlı məlumatları təqdim edirik.**

Oyandıqdan 5 dəqiqə sonra yuxumuzun yarısını, 10 dəqiqə sonra isə 90 faizini unuduruq.

Alimlər sübut ediblər ki, ana bətnində belə insan yuxu görür.

Platona görə, insanın yuxu görən zaman daxili orqanlarının fəaliyyəti daha da artır. Xüsusilə də qaraciyərin fəaliyyəti artır.

3 yaşından 8 yaşınadək uşaqlar böyüklərin görmədiyi qədər qorxulu yuxular görürlər.

Korlar da yuxu görürlər.

Bir insan orta hesabla gecə boyunca 6-8, həftədə 50 və il ərzində 2 600 saatdan çox yuxu yatır. Həyatımızın demək olar ki 21 ilini yuxuda keçiririk. Normal bir insan üçün yuxu miqdarı 8 saatdır, hansı ki, ən azı üçdə biri dərin yuxudur. Dərin yuxu hər 45 dəqiqədən bir özünü yüngül birisi ilə əvəz edən digər röya ilə kəsilir. Röya halındakı yuxu gün ərzində və ya keçmişdə yaşanan fəaliyyətlərin nəticəsində yaranan emosional gərginliyin boşalmasına məsuldur. Bu müddət ərzində beynimiz xatirələri işlək vəziyyətdə tutur və yuxunun ən dərin mərhələsində həm uzun, həm də qısamüddətli xatirələrimiz prosesə qoyularaq saxlanılır.

Psixoloji gərginlik keçirənlərdən başqa hamı yuxu görür.

Elə insanlar var ki, yuxu görmədiklərini düşünürlər. Buna səbəb onların yuxularını yadda saxlaya bilməmələridir.

Uilyam Şekspir (1564-1616) öz sələfləri olan yunan dramaturqları kimi, gördükləri yuxuların əsasında öz əsərlərinin süjet və personajlarını icad edirdi.

Pisixoloqların fikrinə görə, yuxu gün ərzində gördüyümüz və xəyalımızda olan proseslərin cəmləşmiş bir halıdır.

Ancaq gördüyümüz üzlər yuxumuza girə bilər. Hamımız həyatımız boyu minlərlə üz gördüyümüz üçün yuxuda da istənilən qədər üz görə bilərik.

İnsanlar 1915-50-ci illərdə daha çox ağ-qara yuxular gördükləri halda, 50-ci illərdən sonra bu tendensiya dəyişməyə başladı. Mütəxəssislər bunun səbəbini rəngli televizorların istehsalı ilə əlaqələndirirlər.

Yuxu simvolik xarakter daşıyır. Müəyyən bir əşya və hadisə barədə bəhs edən yuxu adətən birbaşa həmin əşya və ya hadisə ilə bağlı olmaya da bilər.

Yuxular arasındakı fasilə orta hesabla 1-2 saatdır.

Heyvanlar da yuxu görürlər. Yuxunun real həyatla əlaqəsi var. Belə ki, radioda musiqi səsləndirilərkən yuxuda konsertdə olduğunuzu görə bilərsiniz.

Kişilər və qadınlar fərqli yuxular görürlər. Kişilər qadınlara nisbətən yuxularında daha aqressiv hisslər keçirirlər.

Elias Howe (1819-1867) tikiş maşını iynəsini yuxuda kəşf edib. Bu zaman o, yuxuda onun üstünə iynə ucuna oxşar nizələrlə hücum edən qorxunc məxluqları görmüşdü.

Yuxu daha çox neqativ emosiyaları önə çəkir. Yuxugörmələrdə ən çox baş verən emosional vəziyyət həyəcandır. Həyəcan nə qədər şiddətli olursa, oyandıqdan sonra yuxunun xatırlanma və uzun müddət yadda qalma imkanı bir o qədər böyükdür. Orqanizmdə olan narahatlıqlar həyəcanlı yuxugörmələrə səbəb ola bilir.

Xoruldayarkən yuxu görmək mümkün deyil.

Araşdırmalara görə, yuxuların 18-38%-i gələcəklə bağlıdır.

Ən uzun oyaq qalma rekordu 18 gün 21 saat 40 dəqiqədir.

İnsanlar heyvanlarla müqayisədə 3 saat az yatırlar.

Yuxu ilə bağlı bildiyimiz hər şey son 25 ilin nəticəsidir.

Heç bilirdinizmi ki, alma qəhvədən daha çox yuxu gətirir.

**Samirə Tağıyeva,**
***"İki sahil"***

# Miqrenin yaranma səbəbləri və müalicəsi...

Miqren, hər yaş qrupundakı insanlarda, xüsusən də böyük şəhər həyatının təlaşına qapılan insanlar arasında beyində şiddətli bir ağrı olaraq ortaya çıxır. Miqren əsasən irsi və xroniki olur. Bəs miqrenin əlamətləri nələrdir və necə müalicə olunur?

## MİQREN NİYƏ YARANIR?

Miqrenin beyində dəqiq hansı hissədə və necə meydana gəldiyi hələ də elm dünyası üçün bir sirdir. Bununla birlikdə, müasir araşdırmalar yerində diaqnoz ilə aparılır. Qədim sivilizasiyalarda "insanı dəli edəcək ağrı" kimi tanınan miqrenin bu günlərdə simptomları ilə yanaşı, ağrıları aradan qaldırmaq üçün də yolları araşdırılıb.

## MİQRENİN ƏLAMƏTLƏRİ NƏDİR?

Miqren dərmanları arasında miqrenə birbaşa təsir edən vasitə olmasa da bir neçə bitkilərlə müalicə üsulundan istifadə olunur. İlk öncə isə miqren simptomlarına nəzər salaq:

Başın xüsusilə sabit bir nöqtəsində çox güclü ağrı;

İşığa və səsə qarşı yüksək həssaslıq;

Yuxusuzluq və yorğunluq hissi;

Bulanık görmə, qaranlıq, başgicəllənmə;

Simptomundan asılı olmayaraq ağrının şiddətlənməsi.

Miqren ağrısının qarşısını ala



bilən üsullar aşağıdakılardır:

Siqaret və tütün məhsullarındakı nikotin, asılılıq yaratmasına görə miqrenə mənfi təsir göstərir.

Spirtli içkilərdən çəkinmək lazımdır.

Kofein, nikotinə bənzər asılılıq yaradan bir maddədir. Bu səbəbdən miqren ağrıları üzərində artımına təsiri olacaqdır.

Qeyri-müntəzəm yuxu saatları və nizamsız pəhriz bədənin tarazlığının pozulması səbəbindən miqrenə qarşı həssaslıq yaradacaqdır.

Xroniki miqren ağrıları sıx məşq proqramları olan idmançılarda teztez görülə bilər. Bu səbəbdən ailəsində genetik miqren problemi olan idmançıların mütəxəssis rəyini öyrənməsi və bəslənmə proqramlarını buna uyğun tənzimləməsi vacibdir.

Susuz qalmaq bədənin miqrenə qarşı həssas olmasına səbəb olan hallardan biridir. Bu səbəblə bədəndəki maye balansını qorumaq, bol miqdarda maye istehlak etmək və susuzluq yaradacaq yağlı və ədvalı qidalardan çəkinməyin miqrenə qarşı müsbət təsiri olacaqdır.

Stress və uzun iş saatları, xüsusilə şəhər həyatında bir çox insanda miqreni artırdığı düşünülən amillərdəndir.

## MİQREN AĞRILARINI AZALDA BİLƏCƏK BƏZİ ÜSULLAR

Miqrenə qarşı ən təsirli üsullardan biri lavanda yağı istifadə etməkdir. Tarix boyu lavanda yağının baş ağrısını aradan qaldırmaq üçün təsiri üçün istifadə edildiyi bilinir. Tövsiyə olunan istifadə isə 10-12 damla lavanda yağını isti suya tökmək və buxar halında nəfəs yolu ilə qəbul etməkdir.

Aloe vera təbiətdəki möcüzələrdən biridir. Aloe veranın bir çox yerlərdə istifadəsi və baş ağrısına qarşı təsiri onu miqrenə qarşı ən çox tövsiyə olunan bitkilərindən birinə çevirir.

Sarıkök miqrenə qarşı tövsiyə olunan qidalar arasındadır. Hər iki məhsulun qan damarlarına təzyiq azaldıcı təsiri və miqren üçün yaxşı ola biləcək nəticələri vardır.

**Samirə İsmayılova,**
***"İki sahil"***

## ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova, qardaşı
**Murad İmanovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Geofizika və Geologiya İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova, qardaşı
**Murad İmanovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Pirallahı rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin rəisi Manaf Manafov Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova, qardaşı
**Murad İmanovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova, qardaşı professor
**Murad İmanovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Neftqaztikinti" Trestinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova, qardaşı
**Murad İmanovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Kompleks Qazma İşləri Trestinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova, qardaşı
**Murad İmanovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nazim Vəliyev Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova, qardaşı
**Murad İmanovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"EKOL Mühəndislik Xidmətləri" QSC-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova, qardaşı professor
**Murad İmanovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl Hacıyev
Baş redaktorun müavini: Anar Miriyev
Baş redaktorun müavini: Rəşad Bağırov

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 07.10.2020-ci il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 5904
İndeks: 0151, Sifariş: 2360

Qəzetdə "AZƏRTAC", "TREND", REPORT, SİA, "OLAYLAR" informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.